# 27 Sentyabr Anım Günüdür!

Xalq qəzeti
Xalqın qəzeti!
№ 211 (30615) 27 sentyabr 2024-cü il, cümə
Gündəlik ictimai-siyasi qəzet
1919-cu ildən çıxır
Təsisçi: Azərbaycan Respublikası Prezidentinin İşlər İdarəsi və qəzetin redaksiya heyəti

## Qarabağ Zəfəri – tarixi ədalətin çağdaş təntənəsi



Səhifə ⇨ 7

## İki əsrə bərabər gün

*Xalqımız və dövlətimiz Vətən uğrunda şəhid olmuş bütün övladlarını ehtiramla yad edir və iftixarla anır*



**Haqq edilən qüruru yaşamaq xoşbəxtliyi hər xalqa nəsib olmur. Ələlxüsus da həmin xoşbəxtliyin yolu iki yüz il ərzində haqsızlıq və ədalətsizliyin içindən keçəndə dəyəri daha böyük, əbədi olur. Azərbaycan xalqının milli qürur və ehtiram rəmzinə çevrilən Anım Günü belə keşməkeşli yolun sonunda qazandığımız Zəfərin rəmzinə çevrildi. Biz bu günü ona görə qürur və fəxarətlə anırıq ki:**

– 27 Sentyabr xalq–ordu–birliyini bütün çalarları ilə özündə təcəssüm etdirən gündür;
– 27 Sentyabr xalqımızın ləyaqətini özünə qaytarmaq, kimliyini təsdiqləmək üçün Haqq yoluna çıxdığı gündür;
– 27 Sentyabr Azərbaycanı ərazi bütövlüyünün və suverenliyinin tam bərpasına aparan gündür;
– 27 Sentyabr torpağı Vətən eləyən gündür...

*(ardı 6-cı səhifədə)*

## Biz güclü iqtisadiyyat qurmuşuq, heç kəsdən asılı deyilik



Səhifə ⇨ 2

## Ərdoğanın kitab mesajı və BMT-də Fransanın ermənipərəstliyi

**Türkiyə Prezidenti Rəcəb Tayyib Ərdoğan BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində Ermənistanın baş naziri Nikol Paşinyanla görüşündə ona özünün müəllifi olduğu "Daha adil bir dünya mümkün" kitabını bağışlayıb. Məlumdur ki, sözügedən sessiya Ermənistan rəhbərliyinin, o cümlədən, onun xaricdəki havadarlarının, xüsusən, Fransanın növbəti anti-Azərbaycan fəaliyyət platformasına çevrilib.**

(ardı 3-cü səhifədə)



## Ah, Amerika, Amerika...

*Kamala xanım da trekə uydu*

**ABŞ-nin siyasi həyatı qaynayır. O mənada ki, Ağ Ev uğrunda gedən mübarizə özünün hərarətli mərhələsinə qədəm qoyur. İndi okeanın o tayında hər səsə görə vuruşurlar. İstər demokratlar, istərsə də respublikaçılar daha çox tərəfdar toplamaq məqsədilə vədlər kisəsinin ağzını açıblar.**

Co Bayden seçki marafonunu tərk etdikdən sonra meydana çıxarılan vitse-prezident Kamala Harris də amerikalıların rəğbətini qazanmaq üçün vədlər, ümidlər paylayır. Amma Kamala xanım uzun illərdir ABŞ-nin siyasi mühitində parazitlik edən erməni lobbisinin könlünü almaq üçün verdiyi vədin "barıtını" çox eləyib. Əlbəttə, seçki kampaniyası zamanı yürüdülən siyasət real siyasətin davamı olmur, çünki milli-korporasiya maraqlarını seçicilərə verilən vədlərdən üstün tutan ABŞ lideri hələ siyasi arenaya çıxmayıb. Odur ki, demokratların namizədinin ermənilərə göndərdiyi məktubu "seçici ovu" kampaniyasının tərkib hissəsi kimi nəzərdən keçirmək lazımdır.



Amma, sözsüz ki, xoş addım deyil. Kamala Harris də gözəl bilir ki, Ermənistan otuz il ərzində beynəlxalq qanunları heçə sayaraq Azərbaycan torpaqlarını işğal altında saxlayıb. İrəvan Vaşinqtonun da səs verib qəbul etdiyi BMT-nin dörd qətnaməsinin müddəalarını yerinə yetirməyərək başqa dövlətin ərazisində qanunsuz məskunlaşma aparıb, oyuncaq rejim yaradaraq Azərbaycanın təbii sərvətlərini vəhşicəsinə istismar edib. Bu istismar nəticəsində demokratların da önəm verdiyi ekologiyaya ciddi zərbə endirilib. Hələ biz erməni vandallarının işğal etdiyi ərazilərimizdə türk-müsəlman mədəniyyətinə qarşı göstərdikləri barbarlığı demirik. Tolerantlıq anlayışından məhrum ermənilərin İslam abidələrinə qarşı vəhşiliyi isə ayrı bir mövzudur. Bütün bunlar ABŞ siyasi elitasının üstündən sakitcə keçib getməyə çalışdığı həqiqətlərdir.

*(ardı 4-cü səhifədə)*

## Ermənistan parlamentinin Azərbaycana qarşı ərazi iddiası

*Yaxud "Artsaxı diriltmək" avantürasında növbəti sərsəmlik*

**Son günlər Ermənistan və havadarlarının "Artsax" avantürasını yenidən gündəmə gətirdikləri hiss olunmaqdadır. Bununla bağlı müxtəlif məqamlar var. Yazımız bunlardan ən sonuncusu barədədir. Ancaq əvvəlcə bir məsələni qeyd edək.**

Məlumdur ki, Ermənistan hakimiyyəti qətiyyətli və prinsipial deyil və istənilən təzyiq qarşısında geri çəkilməyə meyillidir. Hətta, bu, azmış kimi, rəsmi İrəvan həmin təzyiqlərin fonunda səslənmiş sərsəm fikirləri öz siyasətinə də əlavə edir. Axı erməni iqtidarının ölkəmizlə sülh müqaviləsi bağlamaq məsələsində daxildəki revanşist və şovinist dairələrə məxsus tələbləri səsləndirdiyinin dəfələrlə şahidi olmuşuq. Məsələn, ötən həftə Ermənistan parlamentinin sədri Alen Simonyan bildirmişdi ki, hazırda "Artsax", yəni Qarabağdakı sabiq qondarma rejim mövcud olmadığından, rəhbərlik etdiyi qurumda həmin rejimlə parlamentlərarası işçi qrupunun fəaliyyət göstərməsinə ehtiyac yoxdur.



Qeyd edək ki, A.Simonyanın fikri sərt reaksiyalar doğurmuşdu. Əlbəttə, tam demək olmaz ki, iki gün əvvəl Ermənistan parlamentinin tərkibində "Artsaxlıların işləri üzrə istintaq komissiyası" adlandırılan qurumun formalaşdırılması haqqında söz açdığımız işçi qrupunun ləğvinə görə meydana çıxmış əks reaksiyaları yumşaltmaq məqsədi daşıyır. Burada başqa mətləblər də var. Ancaq, ilk baxışdan, təzad yaranır: İşçi qrupunun ləğvi hara, yeni komissiyanın yaradılması hara?

*(ardı 4-cü səhifədə)*

## "Böyük Qayıdış"ın mübarək, doğma Cəbrayılımız!

Səhifə ⇨ 10



## İndiki mürəkkəb geosiyasi vəziyyətdə işimizi ehtiyatlı tutmalıyıq



Səhifə ⇨ 3

# İqtisadi məsələlərə həsr olunmuş müşavirə keçirilib

## *Prezident İlham Əliyev toplantıda çıxış edib*



**Sentyabrın 26-da iqtisadi məsələlərə həsr olunmuş müşavirə keçirilib. Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev müşavirədə çıxış edib.**

### Prezident İlham Əliyevin çıxışı

– Bugünkü müşavirədə biz iqtisadi məsələləri müzakirə edəcəyik. İlin sonuna cəmi üç ay vaxt qalır. İlin sonuna qədər görüləcək işlər haqqında da fikir mübadiləsi aparılacaq.

Bütövlükdə deməliyəm ki, ilin əvvəlindən iqtisadi inkişaf gözlənilən səviyyədədir. İlin əvvəlində mən bu ilin iqtisadi sahədə uğurlu olub-olmaması haqqında danışanda qeyd etmişdim ki, tam əminəm, bu il iqtisadiyyatımız üçün uğurlu olacaq. İlin əvvəlindən əldə edilmiş nəticələr və iqtisadi göstəricilər mənim sözlərimi təsdiqləyir. İqtisadi artım 4,3 faiz təşkil edib. Bugünkü dünyada gedən prosesləri təhlil edərkən və ümumiyyətlə, geosiyasi vəziyyətə nəzər saldıqda deyə bilərəm ki, bu, çox müsbət göstəricidir. İqtisadi inkişaf templəri inkişaf etmiş bir çox ölkələrdə olan iqtisadi inkişaf templərini üstələyir. Xüsusi əhəmiyyət daşıyan məqam ondan ibarətdir ki, qeyri-neft sektorumuz 7 faiz artmışdır. Bu da onu göstərir ki, ölkə iqtisadiyyatının şaxələndirilməsi istiqamətində atılmış addımlar və düşünülmüş islahatlar siyasəti öz bəhrəsini verməkdədir.

Onu da bildirməliyəm ki, son illər ərzində xarici neft şirkətləri tərəfindən həyata keçirilən layihələrdə neftin hasilatı ildən-ilə azalırdı və bu da təbii olaraq bizim ümumi iqtisadi inkişaf templərimizə mənfi təsir göstərirdi və biz bu tənəzzülü qeyri-neft sektorunun inkişafı ilə tənzimləyirdik. Ancaq neft hasilatında buraxılmış nöqsanlar xarici neft şirkətləri ilə aparılan danışıqlar nəticəsində onların diqqətinə çatdırılmış və onlardan tələb edilmişdir ki, bu nöqsanlar aradan qaldırılsın, neft hasilatının sabitliyi təmin edilsin. Son aylar ərzində bu istiqamətdə çox fəal iş aparılırdı. Bu işin nəticəsi olaraq əsaslı ümidlər yaranmışdır ki, daha bundan sonra heç bir əsası olmadan neft hasilatında tənəzzül olmayacaq. Təbii olaraq hökumət qurumları və Dövlət Neft Şirkəti bu işlərin gələcək gedişatına da daim diqqət yetirəcək. Beləliklə, bizim iqtisadi inkişaf templərimizi geriyə çəkən əsas amil ümid edirəm ki, aradan qaldırılacaq və gələn il sabit neft hasilatı təmin edilməlidir. Nəzərə alsaq ki, hazırda biz neft-qaz sektorunda bir neçə yeni layihə üzərində işləyirik və o layihələrin işlənməsi nəticəsində yeni hasilat proqnozlarımız var. Yəqin gələn il biz hamımız onu görəcəyik ki, yeni layihələrdən, yeni yataqlardan daha böyük həcmdə təbii qaz və neft kondensatı hasil edilir. Hesab edirəm ki, neft-qaz sahəsində templər müsbət olacaqdır.

Ancaq təbii olaraq, bizim əsas hədəfimiz iqtisadiyyatımızı bundan sonra daha da şaxələndirmək və dayanıqlı inkişaf modelini təkmilləşdirməkdir. İnflyasiya ilin əvvəlindən cəmi 1 faizdən bir qədər çox olmuşdur. Bu da çox müsbət göstəricidir. Mən artıq bəyan etdim ki, gələn il minimum əməkhaqqı və minimum pensiya artırılacaq, baxmayaraq ki, inflyasiya çox aşağı səviyyədədir, baxmayaraq ki, ölkə qarşısında duran vəzifələr böyük maliyyə vəsaiti tələb edir, ilk növbədə, hərbi, hərbi sənaye kompleksinin inkişafı, Qarabağın və Şərqi Zəngəzurun bərpası ilə bağlı. Bütün bunlara baxmayaraq, biz həssas təbəqə sayılan vətəndaşlarımızın da rifah halının yaxşılaşdırılması üçün əlimizdən gələni edirik. Bu yaxınlarda Azərbaycan Milli Məclisində etdiyim çıxışda bütün o rəqəmlər diqqətə çatdırılmışdır. Təkrar etmək istəmirəm, son beş il ərzində Azərbaycanda nə qədər böyük sosial islahatlar paketi reallaşdırıldı.

Yəni, bütün bu məsələlər tam əminliklə deməyə əsas yaradır ki, iqtisadi inkişaf templəri həm bu ilin sonuna qədər saxlanılacaq, həm də, – nəzərə alsaq ki, indi gələn ilin büdcəsi müzakirə olunur və büdcənin parametrləri də daha genişmiqyaslı olacaq, – gələn il də iqtisadi inkişaf templəri lazımi səviyyədə olacaq.

Xarici sərmayələrin cəlb olunması üçün, xüsusilə qeyri-neft sektoruna cəlb edilməsi üçün bir çox təşviq layihələri həyata keçirilir. Azərbaycanda hökm sürən sabitlik və proqnozlaşdırılan vəziyyət, eyni zamanda, Azərbaycan dövlətinin güclənməsi, ərazi bütövlüyümüzün, suverenliyimizin tam bərpa edilməsi xarici investorların bizə olan münasibətini təbii olaraq daha da yaxşılaşdırıb. Baxmayaraq ki, Azərbaycanda çox müsbət sərmayə iqlimi uzun illərdir davam edir, hökm sürür. İnvestisiyaların adambaşına düşən həcminə görə Azərbaycan qabaqcıl ölkələr sırasındadır. Son illər ərzində və xüsusilə antiterror əməliyyatından sonra dövlət suverenliyimizin tam bərpa edilməsi təbii olaraq bütün investorlara ciddi müsbət siqnal göndərmişdir və biz bunun bəhrəsini indi görürük. Bizim ənənəvi sənaye məntəqələrimizdə, – Bakı şəhəri, Sumqayıt şəhəri, sənaye parkları, – yeni müəssisələr açılır. Eyni zamanda, azad edilmiş torpaqlarda, Ağdam və Cəbrayıl rayonlarında yeni sənaye parklarının yaradılması çox müsbət hal kimi qiymətləndirilməlidir.

Qeyd etdiyim kimi, indi gələn ilin büdcəsinin müzakirəsi gedir, yaxın vaxtlarda mənə təqdim ediləcək. Təbii olaraq, büdcə bizim imkanlarımızı əks etdirir. Biz, necə deyərlər, ayaqlarımızı yorğanımıza görə uzadırıq və uzatmalıyıq. Heç bir yerdən heç bir yardım almırıq, əksinə, xarici borcu azaldırıq və bir neçə il bundan əvvəl qarşıya qoyduğum vəzifə artıq uğurla yerinə yetirilir. Xarici borcun ümumi daxili məhsula nisbətdə Azərbaycan dünya miqyasında qabaqcıl ölkələr sırasındadır. Bu, cəmi 7,5 faizdir və bu, bizə imkan verir ki, gələcəkdə daha az vəsaiti xarici borcun qaytarılmasına sərf edək. Bu gün onu da biz müzakirə edəcəyik, baxarıq, bəlkə də bəzi borcları vaxtından əvvəl ödəmək də faydalı ola bilər. Halbuki mən bunu artıq bir neçə dəfə demişəm ki, istəsək, biz bir gün ərzində bütün borcu sıfırlaya bilərik. Hər halda, bu məsələni müzakirə etmək üçün bu gün, əlbəttə ki, fikir mübadiləsi aparılacaqdır.

Gələn ilin əsas xərcləri artıq müəyyən edilib. Mənim Milli Məclisdəki çıxışımda əsas prioritetlər açıq-aydın göstərilib. İlk növbədə, ölkəmizin hərbi potensialının gücləndirilməsi, təhlükəsizliyin təmin edilməsi, dövlət sərhədlərinin qorunması, hərbi sənaye kompleksinin inkişafı, təhsil xərcləri, Qarabağın və Şərqi Zəngəzurun bərpası və digər layihələr. Həm sosialyönümlü layihələr, sosial infrastrukturla bağlı olan layihələr, həm də ümumi infrastrukturla bağlı olan layihələr – bütün bunlar bizim Dövlət İnvestisiya Proqramında öz əksini tapacaq. Bu barədə də danışacağıq. Elə etməliyik ki, biz gələn il imkan daxilində bütün əsas vəzifələri icra edək. Şübhə etmirəm ki, belə də olacaq. Artıq Azərbaycanın iqtisadi inkişaf modeli dünyada özünü təsdiqləyib. Biz öz resurslarımıza arxalanaraq güclü iqtisadiyyat qurmuşuq, müstəqil iqtisadiyyat qurmuşuq, heç kimdən asılı deyilik. İqtisadi müstəqillik təbii olaraq bizə beynəlxalq müstəvidə böyük imkanlar qazandırır ki, Azərbaycan uğurla, inamla, şərəflə, ləyaqətlə müstəqil xarici siyasət apara bilsin. Necə ki, aparmışıq və aparacağıq.

Bu gün biz bir çox digər məsələləri müzakirə edəcəyik. Əminəm ki, müzakirə və əldə edilmiş nəticələr, qəbul ediləcək qərarlar bizim iqtisadi inkişafımızı daha da sürətləndirəcəkdir.

*

Sonra gələcək iqtisadi inkişafla bağlı müzakirələr olub.

***AZƏRTAC***

# Martinikdə polis etirazçılara atəş açıb

**Martinikdə əhali müstəmləkəçiliyə, xüsusilə sosial və siyasi problemlərə qarşı ayağa qalxıb. Artıq barrikadalar qurulur, hüquq-mühafizə orqanlarının zorakılığına qarşı müqavimət güclənir.**




Polislərin dinc əhaliyə qarşı odlu silahlardan istifadə etdiyinə dair görüntülər də paylaşılır. Martinik əhalisi ciddi sosial problemlərdən, bahalıqdan və əhalinin gəlirlərinin çox az olmasından əziyyət çəkir. Onlara xarici ölkələrlə ticarət əlaqələri qurmağa icazə verilmir. Martinik əhalisinə yalnız materik Fransası ilə iqtisadi əlaqələr qurmağa imkan verilir. Martinikdəki bütün böyük ticarət şəbəkələri etnik fransızların monopoliyasında olduğundan onlar bu məhdudiyyətlərdən gəlirlərini dəfələrlə artırmaq üçün istifadə edirlər.

Əhali Fransanın kolonial siyasətinə, hüquqlarının kobud şəkildə pozulmasına, kəskin sosial duruma qarşı etiraz edir, Fransadan kolonial siyasətə son qoyulmasını tələb edir, müstəqillik istəyirlər. Fransa hökumətinin Martinik torpaqlarında istifadə etdiyi zəhərli maddələr kənd təsərrüfatı torpaqlarını yararsız hala salıb, əhalinin sağlamlığına ciddi ziyan vurulub. Zəhərli maddələrin nəticəsidir ki, Martinik dünyada ən çox xərçəng xəstəliyindən əziyyət çəkən ərazidir.

***XQ***

# Prezident İlham Əliyev 27 Sentyabr Anım Günü ilə əlaqədar paylaşım edib

**Azərbaycan Respublikasının Prezidenti, müzəffər Ali Baş Komandan İlham Əliyev 27 Sentyabr – Anım Günü ilə əlaqədar sosial şəbəkə hesablarında paylaşım edib.**




Paylaşımda “Şəhidlərimizə ehtiramla” sözləri yazılıb.

# Azərbaycan, ABŞ və Ermənistan xarici siyasət rəhbərlərinin görüşü



**Nyu-Yorkda ABŞ Dövlət katibi Antoni Blinkenin təşəbbüsü ilə Azərbaycan Xarici İşlər naziri Ceyhun Bayramovla ermənistanlı həmkarı Ararat Mirzoyan arasında görüş keçirilib.**

Görüş BMT Baş Assambleyasının 79-cu sessiyası çərçivəsində baş tutub.

Qeyd edək ki, tərəflər arasında sonuncu dəfə görüş Antoni Blinkenin təşəbbüsü ilə bu ilin iyulunda Vaşinqtonda keçirilən NATO sammiti çərçivəsində olub.

# Ceyhun Bayramovun Nyu-York görüşləri davam edir



**Xarici İşlər naziri Ceyhun Bayramov BMT Baş Assambleyasının 79-cu sessiyasının yüksək səviyyəli həftəsində iştirakı çərçivəsində BMT-nin Sivilizasiyalar Alyansının (UNAOC) ali nümayəndəsi Migel Angel Moratinos ilə görüşüb.**

Görüşdə Azərbaycanın UNAOC ilə uğurlu və məhsuldar əməkdaşlıq etdiyi diqqətə çatdırılıb, əməkdaşlıq dinamikamızın inkişafında şəxsən töhfə vermiş ali nümayəndənin fəaliyyəti xüsusilə qeyd edilib. Ölkəmizin sivilizasiyalararası dialoqda oynadığı rolundan bəhs olunub, bu istiqamətdə həyata keçirilən birgə layihələrin əhəmiyyətindən danışılıb. Postmünaqişə dövründə bölgədə mövcud vəziyyət və reallıqlar, habelə Azərbaycan ilə Ermənistan arasında normallaşma və sülh prosesi barədə qarşı tərəf ətraflı məlumatlandırılıb.

İşğal dövrünün ağır humanitar nəticələrinə baxmayaraq, münaqişəyə son qoyulmasından dərhal sonra Azərbaycanın sülh gündəliyi təşəbbüsü ilə çıxış etdiyi və normallaşma prosesinin irəlilədilməsində ən aktiv tərəf olduğu diqqətə çatdırılıb. Sülh müqaviləsinin imzalanmasına maneə törədən bir sıra məsələlərin mövcud olduğu da diqqətə çatdırılıb.

*

**Həmin gün Ceyhun Bayramov Polşanın Xarici İşlər naziri Radoslav Şikorski ilə də görüşüb.**

Azərbaycanla Polşa arasında siyasi, iqtisadi, alternativ enerji, humanitar və digər sahələrdə münasibətlərin geniş perspektivə malik olduğu, əlaqələrin inkişafında siyasi məsləhətləşmələr mexanizminin əhəmiyyəti qeyd olunub.

Nazir bu il ölkəmizin ev sahibliyi etdiyi BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasının (COP29) yeni tərəfdaşlıq sahələri üçün əlverişli imkanlar yaratdığını və bu çərçivədə Azərbaycanın Polşa ilə əməkdaşlıqda maraqlı olduğunu vurğulayıb. Ceyhun Bayramov qarşı tərəfi Azərbaycan–Ermənistan normallaşma prosesi barədə ətraflı məlumatlandırıb. Sülh sazişinin uğurla tamamlanması üçün Ermənistan Konstitusiyasında müvafiq dəyişikliklər edilməsinin zəruriliyi vurğulanıb.

*

**Dünən Ceyhun Bayramov Anqolanın Xarici İşlər naziri Tete Antonio ilə də görüşüb.**

Ceyhun Bayramov Afrika ölkələri ilə əməkdaşlığın ölkəmizin xarici siyasətinin tərkib hissəsi olduğunu qeyd edərək, Azərbaycanın Qoşulmama Hərəkatına sədrliyi dövründə bir çox Afrika ölkəsi, o cümlədən, Anqola ilə əməkdaşlıq imkanlarının yarandığını diqqətə çatdırıb.

Görüş zamanı iki ölkə arasında ikitərəfli və çoxtərəfli əməkdaşlığın perspektivləri, habelə BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) hazırlıq işləri müzakirə olunub.

*

**Xarici İşlər naziri Ceyhun Bayramov həftə çərçivəsində Latviyanın Xarici İşlər naziri Baiba Braje ilə də görüşüb.**

Tərəflər mövcud siyasi, iqtisadi, regional təhlükəsizlik, parlamentlərarası əlaqələr və humanitar sahələrdə əməkdaşlıq məsələlərini, ölkəmizin BMT-nin İqlim Dəyişmələri üzrə Çərçivə Konvensiyasının Tərəflər Konfransının 29-cu sessiyasına (COP29) sədrliyi çərçivəsində hazırlıq işləri, regional və beynəlxalq təhlükəsizlik məsələlərini müzakirə ediblər. Ölkəmizin COP29 Sədrliyi prosesini inklüzivlik əsasında qurduğu və bu xüsusda bütün maraqlı tərəfləri prosesə cəlb etmək niyyətində olduğu diqqətə çatdırılıb.

İki ölkə arasında mövcud strateji tərəfdaşlıq münasibətlərinin siyasi, iqtisadi, ticarət, humanitar və sair aspektlər üzrə inkişaf səviyyəsindən məmnunluq ifadə olunub, əməkdaşlığın bu dinamikada digər istiqamətlər, o cümlədən, infrastruktur, nəqliyyat və enerji təhlükəsizliyi üzrə davam və inkişaf etdirilməsinin əhəmiyyəti vurğulanıb.

***XQ***

# İndiki mürəkkəb geosiyasi vəziyyətdə işimizi ehtiyatlı tutmalıyıq

## *Sərhədin etibarlı qorunması daxili sabitliyin, rifahın və inkişafın təminatıdır*

**Yeddinci çağırış Milli Məclisin sentyabrın 23-də keçirilən ilk iclasında Prezident İlham Əliyevin söylədiyi nitqdə hazırkı dövrə kimi əldə edilmiş nəticələr təhlil edildi və qiymətləndirildi. Dövlətimizin başçısı təkcə əldə edilmiş nəticələri təhlil edərək qiymətləndirmədi, həm də ölkəmizin və xalqımızın qarşısında duran əsas vəzifələri göstərdi və əsaslandırdı.**





Təbii ki, cənab İlham Əliyevin toxunduğu hər bir məsələ önəmlidir və böyük əhəmiyyətə malikdir. O cümlədən onun sərhədlərimizin qorunması ilə bağlı fikirləri də mühümdür. Çünki sərhədlərin qorunması etibarlı şəkildə həyata keçirilməsə, heç nədən danışmaq olmaz. Bu mənada, "Vətən sərhəddən başlayır!" fikri də əbəs yerə deyilməyib.

Müasir dövrdə sərhədlərin etibarlı qorunması hər bir dövlət üçün, o cümlədən, Ermənistan kimi qonşusu olan ölkəmiz üçün müstəsna əhəmiyyət kəsb edir. Prezident İlham Əliyev də bir nömrəli vəzifənin hərbi gücümüzün artırılması olduğunu bildirdi və qeyd etdi ki, biz bunu edirik. "Bununla paralel olaraq, biz yerli hərbi sənaye kompleksimizi də daha sürətlə inkişaf etdirməliyik" – deyən dövlətimizin başçısının növbəti önəmli vəzifənin sərhədlərimizin qorunması ilə bağlı olduğunu vurğulaması diqqəti cəlb edir. Burada da bizim əsas təhlükəsizlik qayğımız uzun illər ərazimizin 20 faizini işğal altında saxlamış Ermənistan kimi bir ölkə ilə qonşu olmağımızdır. Hazırda Ermənistanla şərti sərhəddə mühəndis işləri aparılır. Sərhədin delimitasiyası prosesinə başlanıb. Dövlətimizin başçısının sentyabrın 6-da Beynəlxalq Çernobbio Forumunda "Yeni geosiyasi şəraitdə Azərbaycanın rolu" adlı sessiyada bildirdiyi kimi, hətta, kiçik addım hesab oluna bilən 13 kilometrlik hissəsi demarkasiya da olunub. Halbuki sərhədin uzunluğu 1000 kilometrdən çoxdur.

Azərbaycan–Ermənistan sərhədi de-yure keçmiş Azərbaycan SSR və Ermənistan SSR arasındakı sərhədə uyğundur və iki əsas hissədən – qərbdə Ermənistan və Azərbaycanın Naxçıvan eksklavı arasında və şərqdə Ermənistanla Azərbaycan arasında daha uzun bir hissədən ibarətdir. Bundan əlavə, de-yure sərhədin hər iki tərəfində bir sıra anklavlar var, lakin ölkəmiz bu ilin aprelində onlardan dördünü geri qaytarmağa müvəffəq olub. Digər anklavlar hələ də Ermənistanın nəzarətindədir. Faktiki olaraq, Azərbaycan–Ermənistan sərhədi ilə bağlı vəziyyət daha mürəkkəbdir. Sərhədin qərb hissəsi, yəni Naxçıvan bölməsi mübahisəli deyil.

Ancaq bu hissədə də Sədərək rayonunun Kərki anklavı qarşı tərəfin işğalı altındadır. Uzun illər ərzində Ermənistanla şərq sərhədlərimizin bir qisminə də ölkəmiz nəzarət etməyib. 1990-cı illərin əvvəllərində Qarabağ münaqişəsinin kəskinləşməsindən sonra, sərhədin rəsmi şərq hissəsi, faktiki olaraq, təxminən, yarıya qədəri və sərhədin cənub sektoru Azərbaycan ərazisinin daxilinə uzanan, ölkəmizin əhəmiyyətli hissəsini əhatə edən "təmas xətti" kimi formalaşmışdı. Ermənistan faktiki bu ərazini işğal etmişdi və həmin ərazidə ikinci erməni "dövləti" yaradılmışdı. Nəticədə Ermənistanla Azərbaycan arasındakı de-yure sərhəd faktiki olaraq Ermənistanla qondarma rejim arasındakı "sərhədə" çevrilmişdi. Bu vəziyyət 2020-ci il sentyabr ayının 27-nə qədər davam etmişdi. Həmin gün başlanan 44 günlük Vətən müharibəsinin ilk saatlarında uzun illər ərzində qurularaq möhkəmləndirilmiş "Ohanyan səddi" yarılmış, "təmas xətti" anlayışı aradan qalxmışdır. Vətən müharibəsinin sonunda bu məsələdə tamamilə yeni reallıqlar formalaşmışdı. Müharibənin gedişi zamanı ordumuzun Ermənistanla Zəngilan rayonu istiqamətində yerləşən Bartaz (2300 metr), Sığırt (1370 metr) və digər yüksəklikləri azad etməsi ilə sovet dövründə müttəfiq respublikalar arasında mövcud olmuş sərhədin bərpası istiqamətdə ilk addım atılmışdı. Bunu qeyd etməkdə məqsədimiz necə bir ölkə ilə sərhədə malik olduğumuzu bir daha xatırlatmaqdır.

Eyni zamanda, 1994-cü ildən 2020-ci ilədək davam etmiş atəşkəs dövründə olduğu kimi, Vətən müharibəsindən sonra da şərti sərhəddə qanlı toqquşmalar baş vermişdi. Onlardan ən böyüyü 2021-ci ilin noyabrında və 2022-ci ilin sentyabrında baş vermiş döyüşlərdir. Bu hadisələr də antiterror əməliyyatı keçirməyin zəruri olduğunu sübut edən amillər idi. Bütün bunlar bizə Ermənistanla sərhəddə işimizi, necə deyərlər, ehtiyatlı tutmağa sövq edir.

Prezident İlham Əliyevin qeyd etdiyi kimi, İkinci Qarabağ müharibəsindən sonra Ermənistanla vaxtilə işğal altında olan şərti sərhədimizin uzunluğu 500 kilometrdən çoxdur. "Özü də bu şərti sərhədin relyefi, coğrafiyası çox ağır, həm də iqlim nöqteyi-nəzərdən çox çətin yerlərdə yerləşir və orada xidmət aparmaq o qədər də asan deyil. Bizim bəzi xidmət yerlərimizin hündürlüyü 3 min metrdən çoxdur. Amma buna baxmayaraq, bizim sərhədboyu yerləşən hərbi mövqelərimiz möhkəmlənir"– deyən dövlətimizin başçısı haqlı olaraq qeyd etdi ki, biz şərti sərhəddə möhkəmlənirik, çünki hər an Ermənistandan istənilən təxribatı gözləmək olar. Qarşı tərəf həm kütləvi surətdə silahlanır, eyni zamanda, xarici ölkələrlə, özü də böyük dövlətlərlə hərbi təlimlər keçirir.

Bəli, Ermənistanla ABŞ arasında son zamanlar mütəmadi olaraq hərbi təlimlər keçirilir. Eyni zamanda, İrəvan Yunanıstan, Kipr Respublikası, Hindistan kimi ölkələrlə də hərbi-texniki əməkdaşlığı genişləndirir. Bu məsələ də bizim təhlükəsizlik qayğılarımıza səbəb olur.

Dövlətimizin başçısı Azərbaycanın hər bir məsələdən xəbərdar olduğunu bu sözlərlə ifadə etdi: "Ermənistana Qərb ölkələrindən silah-sursat göndərilir. Bəzi hallarda açıq – necə ki, Fransa–Ermənistan hərbi əməkdaşlığı açıq-aşkar aparılır – bəzi hallarda isə məxfi formada. Ancaq biz indi hər şeyi bilməliyik və bilirik, kimlər nəyi Ermənistana nə vaxt ötürür, hansı hərbi yük təyyarələri Ermənistan hava limanlarına enir və o yük təyyarələrində hansı hərbi məhsullar daşınır".

Cənab Prezident əlavə etdi ki, Ermənistanı bizə qarşı yönəltmək üçün bəzi Qərb dövlətlərinin planları göz qabağındadır. Təbii ki, onları erməni xalqı maraqlandırmır. Erməni xalqı, sadəcə, onlar üçün bir alətdir, bir vasitədir ki, Azərbaycanı daim təzyiq altında saxlasın, Ermənistan ərazisindən istifadə edərək Azərbaycan üçün və Ermənistanın digər qonşuları üçün təhdid mənbələri yaratsın və beləliklə, öz maraqlarını təmin etsin. Yəni, bu metodologiya kifayət qədər bəsitdir. Ancaq onu da bilməlidirlər ki, biz buna imkan verməyəcəyik. Mən artıq demişəm ki, əgər biz real təhdid görsək, o təhdidi istənilən ərazidə məhv etmək bizim üçün böyük çətinlik yaratmayacaq. Onu hər kəs bilsin. Sərhədlərin mühafizəsi isə həm vizual, həm infrastruktur, həm texnoloji vasitələrlə təşkil edilir və edilməlidir. Ancaq biz hamımız bilməliyik ki, bu, çox böyük, genişmiqyaslı bir işdir.

Cənab İlham Əliyev onu da bildirdi ki, digər qonşularımızla da sərhədlərimizin möhkəmləndirilməsi vacib şərtlərdən biridir. Hər zaman, hər bir məsələdə doğma xalqına arxalanan Prezident Azərbaycan vətəndaşlarının quru sərhədlərimizin hələ də bağlı olmasına anlayışla yanaşdıqlarına əmin olduğunu vurğuladı. Eyni zamanda, bunun müəyyən çətinliklər yaratdığını bildirdi. Bununla belə, dövlətimizin başçısı bugünkü geosiyasi vəziyyətin də hamının gözü qarşısında olduğunu dedi. Əlavə etdi ki, bu, daxili təhlükəsizliyi təmin etmək üçün yeganə düzgün addımdır: "Mən tam əminliklə deyə bilərəm ki, son illər ərzində quru sərhədlərimizin bağlı olması bizi çox böyük fəlakətlərdən xilas etdi. Hətta bu gün – sərhədlər bağlı olan vaxtda təhlükəli hərəkətlər olur və bu hərəkətlərin qarşısı alınır. Ona görə sərhədlərimizin qorunması bizi xarici risklərdən qoruyacaq, daxili risklər Azərbaycanda yoxdur. Azərbaycanda təhlükəsizlik, əmin-amanlıq uzun illərdir təmin edilir, sabitlik bütün dünya üçün nümunə ola bilər. Hər kəs bilir ki, əgər sabitlik olmasa, heç bir ölkə inkişaf edə bilməz. Bu gün sabitliyi pozulan ölkələrin vəziyyətini və aqibətini hər kəs yaxşı görür. Bu, təhlükəsizliyin, inkişafın, xarici sərmayənin cəlb edilməsi üçün başlıca şərtdir. Bizim təhlükəsizliklə bağlı bütün digər tədbirlər lazımi səviyyədə təmin edilir. Azərbaycan güclü dövlətdir və bizim gücümüz ildən-ilə artmaqdadır".

**Milli Məclisin deputatı Ceyhun Məmmədov** XQ-yə açıqlamasında bildirdi ki, Prezident İlham Əliyev parlamentdəki nitqində ölkəmiz, gələcəyimiz üçün çox önəmli, vacib məsələlərə toxundu. Onun sözlərinə görə, təbii ki, ordumuzun, müdafiə sənayesinin gücləndirilməsi mühüm əhəmiyyət daşıyır. Ən önəmli məsələlərdən biri də sərhədlərin möhkəmləndirilməsi məsələsidir: "Proseslərin təhlili göstərir ki, bu gün dünyada ən aktual məsələlərdən biri təhlükəsizlik məsələsidir. Hər bir dövlət özünün təhlükəsizliyini təmin etməyə və sərhədlərini möhkəmləndirməyə çalışır. Sərhədlərini qoruya və möhkəmləndirə bilməyən dövlətlər qarşıdakı illərdə çox ciddi və ağır sınaqlarla üz-üzə qalacaqlar. Buna görə də hazırda bizim qarşımızda dayanan ən vacib məsələlərdən biri sərhədlərin mühafizəsi və gücləndirilməsidir".

Ölkəmizin hazırda bu istiqamətdə çox ciddi addımlar atdığını, Ermənistanla sərhədin delimitasiya və demarkasiyasının gündəmdə olduğunu qeyd edən C.Məmmədov dövlətin bununla bağlı davamlı olaraq müxtəlif tədbirlər keçirdiyini qeyd etdi. Dövlət Sərhəd Xidmətinin ən yüksək səviyyədə, ən müasir avadanlıqlarla təchiz olunması üçün əməli işlər görülür: "Yəni, bu gün dövlət sərhədlərimizi qorumaq, mühafizə etmək üçün tələb olunan bütün addımları atır və işləri görürük. Bura ən müasir kamera, siqnalizasiya sistemlərinin alınması, qabaqcıl texnologiyaların alınması və sair tədbirlər daxildir. Bütün bunlar hamısı ona hesablanıb ki, sərhədlərimiz ən yüksək səviyyədə qorunsun".

Quru sərhədlərinin vətəndaşların gəliş-gedişləri üçün bağlı olmasına dair dövlətimizin başçısının toxunduğu məsələyə dair öz fikirlərini bildirən deputat insanların bir hissənin narahatlığını anlayışla qarşıladıqlarını dedi: "Biz də başa düşürük ki, insanların bir hissəsi narahatdır. Onlar quru sərhədləri vasitəsilə xaricə getmək istəyirlər. Amma biz nəzərə almalıyıq ki, bu, hazırda çox doğru qərardır. Cənab Prezidentin qeyd etdiyi kimi, sərhədlərin bağlı olması Azərbaycanı bir çox fəlakətlərdən qoruyur. Bu fəlakətlərin bəziləri hamımıza məlumdur, bəziləri isə məlum deyil. Dövlət bu məsələləri özü diqqətdə saxlayır. Təbii ki, bütün səbəblər açıqlansa, Azərbaycanda hər kəs dövlətin bu mühüm qərarı qəbul etdiyini başa düşər".

Hazırda dünyanın hər yerində gərginlik müşahidə edildiyini, münaqişələrin artdığını qeyd edən C.Məmmədov Azərbaycanın da buna adekvat davrandığını bildirdi. Bu addımın atılması çox sayda qaçqının ölkəmizə gəlməsinin, eyni zamanda, ayrı-ayrı dövlətlərin ölkəmizdə pozuculuq fəaliyyətinin qarşısını almağımıza şərait yaradıb. Həmçinin, bu addım daxildə ictimai-siyasi sabitliyin qorunmasına da mühüm töhfəsini verir.

***Səxavət HƏMİD***
***XQ***

---

# Ərdoğanın kitab mesajı və BMT-də Fransanın ermənipərəstliyi

## *Yaxud Paşinyan üçün "Dünya beşdən böyükdür" mesajındakı anlam*

**(əvvəli 1-ci səhifədə)**

Yazımız bu barədədir. Ancaq bu fonda cənab Ərdoğanın, belə demək mümkünsə, kitab jesti, yaxud kitab mesajı üzərində də dayanacağıq.

Əvvəlcə qeyd edək ki, Fransanın 2008-ci ildə BMT Baş Assambleyası tərəfindən Qarabağ münaqişənin həlli ilə bağlı müvafiq qətnamənin qəbuluna maneə törətmək cəhdləri olub. Yəni, mövcud müstəvi fransız məkri üçün yeni düzən deyil. Fransa Prezidenti Emmanuel Makron isə sələflərinin ədalətsiz yolunu davam etdirir. Təbii ki, olduqca azğın formada.

Fransa lideri BMT Baş Assambleyasındakı çıxışında Azərbaycanın, guya, Ermənistana təzyiq göstərdiyini bildirib. Makronun sözlərindən belə qənaət hasil olub ki, Bakı İrəvana qarşı ərazi iddiası irəli sürməkdədir. Fransa Prezidenti BMT tribunasından Ermənistanı qorumaq üçün çağırış da səsləndirib. "Dünya ictimaiyyəti sülh danışıqlarında uğurun əldə edilməsi və beynəlxalq səviyyədə tanınmış sərhədlərin toxunulmazlığı üçün Ermənistanı dəstəkləməlidir", – deyən Makron, həmçinin ölkəsinin Azərbaycanın təzyiqləri fonunda Ermənistanın yanında möhkəm dayandığını vurğulayıb.

Qeyd edək ki, BMT Baş Assambleyasının 79-cu sessiyası əsnasında Makronun mövqenə oxşar fikri Fransanın Xarici işlər naziri Jan-Noel Barro da ifadə edib. O, özünün "X" sosial şəbəkəsindəki mikrobloqunda yazıb ki, İrəvana iki həftə əvvəlki səfərindən sonra erməni həmkarı Ararat Mirzoyanla danışıqları davam etdirir: "Biz Ermənistan demokratiyasını, suverenliyini və möhkəmliyini, Cənubi Qafqazda ədalətli və dayanıqlı sülhü dəstəkləyirik".

Ümumən, son günlər erməni təəssübkeşliyinin aktiv fazaya daxil olduğu diqqətdən yayınmır. Bu təəssübkeşliyin Qarabağ avantürası xətti də həmçinin. Üzdə olan fransız ermənipərəstlər mövcud istiqamətdə, sanki, özlərinə əl qatıblar. Bu baxımdan Fransa parlamentinin üzvü Natali Luazonun "Dağlıq Qarabağ ermənilərinin etnik təmizlənməsi günü"nün Avropa Parlamentində qeyd edilməsinə dair "təşəbbüsü" xüsusi vurğulanmalıdır. Parisin İrəvanı silahlandırmaq işinə qol çırmadığı isə ayrıca mövzudur. Bir sözlə, Fransanın Ermənistana dəstək məntiqinin həm siyasi-diplomatik, həm də hərbi seqmenti "aktuallığını" qorumaqdadır.

Bəli, Fransa və Ermənistan birlikdə BMT-ni ölkəmizə qarşı hədyan tribunasına çevirir. Belə yanaşma sülh və beynəlxalq hüquqla manipulyasiyaya hesablanmış ikiüzlülükdən başqa bir şey deyil. Elə BMT-nin özü də mütərəqqi missiyasını çoxdan itirmiş, siyasi spekulyasiyaların cövlan etdiyi təşkilata çevrilmişdir. Yada salaq ki, qurum otuz ilə yaxın müddətdə Azərbaycan torpaqlarının Ermənistan tərəfindən işğalına göz yumub. Bunu özünün Təhlükəsizlik Şurasının çıxardığı 4 qətnaməyə rəğmən edib. O qətnamələrə ki, onların hər birində ərazilərimizə qəsbin dərhal dayandırılması əksini tapmışdı.



Qətiyyətlə demək mümkündür ki, Azərbaycanın 44 günlük müharibə və lokal xarakterli antiterror tədbirləri ilə özünün ərazi bütövlüyünü və suverenliyini təmin etməsi, həm də BMT-nin üzərindəki qara ləkənin təmizlənməsi idi. Amma müəyyən qədər. Çünki qurumun haqq-ədalət tribunası olduğunu söyləyə bilmirik və müasir dövrdə yaşanan bir sıra proseslər onu göstərir ki, BMT mahiyyətcə boş-boş danışıqlar platforması imicinə malikdir. Əslində, Makronun hədyanlarına da bu prizmadan yanaşmaq lazımdır. Amma vurğulanmalı bir sıra digər məqamlar da var.

BMT-ni siyasi manipulyasiyalar tribunası kimi qiymətləndirsək, mövcud müstəvidə səslənən hədyanlara cavab verilməsi mütləqdir. Çünki bir qayda olaraq, ədalətsiz yanaşmalara münasibətdə müqavimətin ortaya qoyulmaması haqsızlığın dərinləşməsi, yaxud haqsız durumun saxlanılması reallığını ortaya qoyur. Haqsızlığın saxlanılmasından söz düşmüşkən, Fransa 2020-ci ilin 44 günlük müharibəsi günlərində BMT-dən Azərbaycanı işğalçı kimi qiymətləndirmək, ölkəmizin Zəfər yürüşünü dayandırmaq üçün istifadəyə baş vurmuş, lakin istəyinə nail ola bilməmişdi. İndi də demək olmaz ki, Parisin sözügedən qurum çərçivəsindəki anti-Azərbaycan ritorikası hansısa effekt verəcək...

Söhbətimizin bu yerində Türkiyə Prezidenti Ərdoğanın baş nazir N.Paşinyana bağışladığı kitabdan söz açaq. "Daha adil bir dünya mümkün" adlı nəşr qardaş ölkə liderinin BMT-yə nəzərən işlətdiyi "Dünya beşdən böyükdür" ifadəsindən qaynaqlanır. Türkiyə lideri BMT Baş Assambleyasının 2013-cü ildə keçirilmiş 74-cü sessiyasında "Dünya beşdən böyükdür" deyərkən, qurumun Təhlükəsizlik Şurasının daimi üzvü olan beş ölkənin dünya ilə bağlı qərarvermə səlahiyyətinə etiraz etmişdi.

Əminliklə demək olar ki, cənab Ərdoğan Paşinyana bağışladığı kitabla son dərəcə incə mesaj verir. Qardaş ölkə Prezidenti Ermənistanın öz avantürasının gerçəkləşdirilməsi baxımından BMT müstəvisində heç nəyə nail ola bilməyəcəyini vurğulaması fonunda, rəsmi İrəvanı hadisə və proseslərə haqsız münasibətdən çəkinməyə, habelə xaricdə kimlərəsə, hansı qüvvələrəsə arxayın düşüb qeyri-konstruktiv mövqe tutmamağa çağırır. Onu da qətiyyətlə vurğulaya bilərik ki, bu çağırışdan mesaj payı BMT-ni özünün Cənubi Qafqaz ambisiyaları naminə alətə çevirməyə cəhd göstərən Fransaya da düşür. Əlbəttə, demək olmaz ki, Fransa və Ermənistan tandemi mesajdan nəticə çıxaracaq. Çünki düşmənin anladığı bir dil var ki, o da gücün dilidir. Azərbaycan isə daha ədalətli dünyanın mümkünlüyünü gücünü, qətiyyətini və iradəsini ortaya qoymaqla sübuta yetirib və zərurət yaranarsa, yenə sübuta yetirəcək. Buna heç kəsin şübhəsi olmasın!

***Ə.CAHANGİROĞLU***
***XQ***

# Ermənistan parlamentinin Azərbaycana qarşı ərazi iddiası

(əvvəli 1-ci səhifədə)

Ermənistan Milli Assambleyasında əvvəldən mövcud olmuş qondarma təsisatın ləğvi və məsələnin ictimailəşməsi normaldırsa, ölkə parlamentində Azərbaycana qarşı ərazi iddiasına köklənmiş yeni qurumun peyda olması tam yolverilməzdir. Heç şübhəsiz, onun yaradılması həm daxildəki revanşist və şovinistlərin, necə deyərlər, gözlərinə kül üfürmək cəhdidir, həm də məsələnin digər tərəfləri var. Hər bir halda, durum Ermənistan iqtidarının anti-sülh mahiyyətinin bariz təzahürüdür.

Bəli, birmənalı şəkildə deyə bilərik ki, Ermənistan parlamentində "Artsaxlıların işləri üzrə istintaq komissiyası"nın təsis edilməsi Azərbaycana qarşı ərazi iddiası məntiqini gündəmə gətirən hadisədir və məsələnin yalnız rəsmi İrəvanın özfəaliyyətinin nəticəsi olmadığını bildirmək üçün, kifayət qədər, ciddi əsaslar var. Nəzərə alaq ki, kollektiv Qərbin siyasi kluarlarında "Artsaxı diriltmək" cəhdləri baş qaldırıb. Söhbət ABŞ-nin və Fransanın Qarabağ məsələsini canlandırmaq yönümlü hərəkətlərindən gedir. Onlar özlərini elə aparırlar ki, sanki Qarabağdakı qondarma rejim "sağdır". Məsələn, separatçıların tör-töküntüləri ABŞ Konqresinə dəvət olunur, orada "Dağlıq Qarabağın süqutu"na həsr olunmuş tədbirlər təşkil edilir. Üstəlik, ABŞ və Fransanın hökumət qurumlarının, parlament instansiyalarının və vətəndaş cəmiyyəti institutlarının Qarabağ ermənilərinə dəstək ritorikasına hesablanmış təşəbbüsləri nəzərə çarpır. Ən əsası isə Birləşmiş Ştatların stajlı erməniпərəstlərinə çevrilmiş bəzi konqresmenlər "Artsax Gəlirlərinin Bərpası Aktı"nı gündəmə gətirirlər. Habelə, ABŞ-nin aparıcı piar şirkətlərinin Azərbaycana qarşı beynəlxalq media kampaniyasına cəlb edilmələri də həyata keçirilir.

Ermənistan parlamentində "Artsaxlıların işləri üzrə istintaq komissiya"nın yaradılması ilə ABŞ Konqresində qaldırılmış "Artsax Gəlirlərinin Bərpası Aktı"na dair "qanunvericilik təşəbbüsü" bir-biri ilə bağlı məsələlərdir. Sözügedən "təşəbbüs" Azərbaycanın suveren aktivlərinə sahib olan Birləşmiş Ştatların bütün maliyyə institutlarının, bu aktivlərlə əlaqədar ölkənin Xəzinədarlığının Xarici Aktivlərə Nəzarət Ofisinə məlumat vermək məsuliyyətini müəyyənləşdirir. "Layihədə" göstərilir ki, 60 gün ərzində Prezident həmin aktivlərlə əməliyyatları bloklamalı, bundan sonra 90 gün ərzində onlara həbs qoyulmalıdır. Üzərinə həbs qoyulmuş vəsait isə "Artsax Gəlirlərinin Bərpası Fondu" deyilən qondarma quruma yönləndirilməlidir. "Plana" görə, bu fond ölkəmizin müsadirə edilmiş aktivlərini alacaq və daha sonra həmin vəsaitlər əsasında Azərbaycanın "hərbi hücumu nəticəsində" əmlakını, biznesini və iş yerlərini itirmiş, "Artsaxdan" didərgin düşmüş ermənilərə təzminat veriləcək.



Göründüyü kimi, ABŞ başda olmaqla, kollektiv Qərb "Artsax"ı iyrənc və namərd "ssenari" əsasında bərpa etməyi düşünür. Şübhəsiz, başlıca məqsəd Ermənistanın silahlandırılmasını Azərbaycanın hesabına gerçəkləşdirməkdir. Hələ "Artsaxa" hərbi hücumda iştirak etmiş və ya dəstək vermiş yüksək rütbəli Azərbaycan nümayəndələrinə və onların yaxın ailə üzvlərinə viza məhdudiyyətlərinin tətbiqinə dair gülünc iddia da var. Bu azmış kimi, "Freedom House" insan hüquqları təşkilatının və ABŞ Beynəlxalq İnkişaf Agentliyinin (USAID) Qarabağ "fəallığı" hiss edilməkdədir.

"Freedom House" Qarabağ ermənilərinin hüquq və azadlıqları xüsusunda "hesabatlar" hazırlayır, USAID-ə gəldikdə, qurum "USAID araşdırması, ermənilərin Qarabağdan kütləvi köçü" adlı bəyanat səsləndirir. Avropanın stajlı ermənipərəstlərindən olan fransız parlamentari Natali Luazo isə "Dağlıq Qarabağ ermənilərinin etnik təmizlənməsi günü"nün Avropa Parlamentində qeyd edilməsinə dair təşəbbüsü qaldırır. Bu mənzərəyə ABŞ və Fransanın Ermənistanı silahlandırmasını, habelə fransız lisenziyalı Hindistan silahlarının İrəvana verilməsini də əlavə etsək, birmənalı şəkildə söyləyə bilərik ki, kollektiv Qərb Ermənistanın Qarabağ iddiasına, yəni Azərbaycanın ərazi bütövlüyünün və suverenliyinin təhdidinə dəstək verir.

"Artsaxlıların işləri üzrə istintaq komissiyası" adlandırılan qurumun formalaşdırılması təhdid ritorikasının, bilavasitə, Ermənistan seqmentini aktivləşdirmək niyyətidir. Nəzərə alaq ki, baş nazir Nikol Paşinyanın komandasında yer alan şəxslər də dillərinə "Dağlıq Qarabağ" ifadəsini almağa, "etnik təmizləmədən" danışmağa başlayıblar. Elə Ermənistan parlamentində yaradılmış komissiya barədə məlumatda da vurğu "etnik təmizləmə"nin üzərinə qoyulub.

Məlumatda bilavasitə "Artsax respublikası" ifadəsi işlədilib ki, bu məqamın özü də ciddi düşünməyə əsas verməkdədir. Diqqət yetirək: "Ermənistan Respublikasının Konstitusiya qanununun 20-ci maddəsinin birinci hissəsinə əsasən, Ermənistan Milli Assambleyasının reqlamentinə uyğun olaraq, deputatların (dörddəbirindən azı olmamaq şərtilə - red.) tələbi ilə Ermənistan Respublikasına zorakılıqla köçürülmüş Artsax respublikası sakinlərinin həyat və fəaliyyətinin təşkili şərtlərini öyrənmək məqsədi ilə komissiya yaradılır".

Kiçik arayış verək ki, Ermənistanın konstitusiya qanunu deyilən sənəddə "müdafiəçi" anlayışı yer alır. Qanuna görə, müdafiəçi dövlət və yerli özünüidarəetmə orqanları və onların vəzifəli şəxsləri, bu qanunla müəyyən edilmiş hallarda isə təşkilatlar tərəfindən insan hüquq və azadlıqlarına riayət olunmasına nəzarət edən, pozulmuş hüquq və azadlıqların bərpasına, rifahın yaxşılaşdırılmasına kömək edən müstəqil vəzifəli şəxsdir. Sənədin barəsində söz açılan 20-ci maddəsinə gəlincə, bu maddə "Şikayətin baxılmaq üçün qəbul edilməsi" adlanır. Həmin maddənin Ermənistan parlamentindəki "Artsax komissiyasının" yaradılması üçün istinad edilmiş birinci hissəsində isə bildirilir ki, şikayət məlumatlarında insan hüquq və azadlıqlarının pozulduğu göstərildikdə və şikayətə Konstitusiya qanunu ilə müdafiəçi tərəfindən baxılmalı olan şərtlər yarandıqda, müdafiəçi şikayətin baxılması haqqında qərar qəbul edir.

Bəli, haqqında söz açdığımız belə bir komissiyanın yaradılması, habelə qurumun formalaşdırılması üçün gətirilmiş qondarma əsas Ermənistanın Azərbaycana qarşı ərazi iddiasının mövcudluğunun növbəti təsdiqidir. Başqa sözlə desək, İrəvanın ərazi iddiası daha bir dövlət sənədində əksini tapmağa başlayıb. Halbuki, Azərbaycan sülhün şərti kimi Ermənistanın bütün qanunvericilik sənədlərindəki, o cümlədən, ölkə konstitusiyasındakı iddialardan əl çəkilməsi tələbini irəli sürüb. Görünür, hazırda bu tələb nəinki baş nazir N.Paşinyan, eləcə də xaricdəki ermənipərəstlər tərəfindən nəzərə alınmır.

Belə nəticəyə gəlirik ki, Ermənistan Üçüncü Qarabağ müharibəsinə hazırlaşır. Kollektiv Qərb isə "erməni kartını" onun avantürist mahiyyəti ilə birgə bərpa etmək, müvafiq olaraq, Qarabağla bağlı erməni iddialarını aktiv saxlamaq məqsədinə hesablanmış "fəaliyyət" gerçəkləşdirir. Şübhəsiz, bu oyunda Ermənistan alətdir. Baş nazir Nikol Paşinyan son dövrlərdəki çıxışlarında erməni dövlətçiliyindən, onun qorunub saxlanılmasından və sair bu sayaq məsələlərdən dəm vurur. Deməli, Nikol və komandası müasir erməni varlığı üçün dövlət anlayışının Qarabağ iddiası üzərində qurulduğu reallığına söykənir və həmin reallığın ölkəyə hansı dəhşətləri yaşatdığını unudur. Görünür, Ermənistan rəhbərliyi keçmişin dərslərindən nəticə çıxarmır. Bu isə yeni fəlakətə doğru addımlamaqdan başqa bir şey deyil.

***Ə.RÜSTƏMOV***
***XQ***

# Kanadasayağı "demokratiya"

*Bu ölkədə milli azlıqların danışdığı 90 dilin dörddə üçü yox olmaq təhlükəsi ilə üz-üzədir*

**Son vaxtlar Ermənistanın ciddi-cəhdlə silahlandırılması, bununla yanaşı, müxtəlif Qərb ölkələrinin İrəvana siyasi dəstək əsaslı mesajlar, bəyanatlar səsləndirməsi, şübhəsiz ki, ziddiyyətli məqamlardan xəbər verir. Azərbaycanın Ermənistana təklif etdiyi ədalətli sülhün müqabilində bu cür qeyri-adekvat addımların atılması bir tərəfdən Qərb dünyasının ikili standartları inadla davam etdirdiyini göstərir, digər tərəfdən isə rəsmi İrəvanı revanşizmə sürükləyir.**

Bu baxımdan Kanada rəsmilərinin bəyanatları da istisna təşkil etmir. Xarici işlər naziri Melani Coli Ermənistanda olarkən Azərbaycanın ünvanına son dərəcə qərəzli və ədalətsiz mesajlar səsləndirib. Onun bəyanatlarında ölkəmiz, guya, insan haqlarına qarşı biganəlikdə, Ermənistana təcavüzdə ittiham olunur, habelə Qarabağdan getmiş ermənilərin geri qaytarılması tələbi yer alır. Bu isə, təbii ki, Qərbin Sovet İttifaqının dağılmasından sonrakı 33 il ərzində nümayiş etdirməkdə olduğu ikili standartların ən bariz nümunəsidir. Maraqlıdır ki, Azərbaycanın artıq öz ərazi bütövlüyünü təmin etməsindən sonra belə, bəzi Qərb ölkələri, o cümlədən, Kanada, ABŞ, Fransa Azərbaycan ərazilərini 30 ilə qədər işğal altında saxlamış Ermənistana təcavüzkar deməyib. Bu ölkələrin nəzərində işğalçı Ermənistan demokratik, işğala məruz qalmış, 20 faiz torpağı məhz ermənilər tərəfindən viranəyə çevrilmiş, 1 milyon insanı evindən, yurd-yuvasından qovulmuş Azərbaycan isə qeyri-demokratik görünür. Bütün azərbaycanlıları işgəncələrlə qovub ərazisindən çıxarmış Ermənistana qarşı heç zaman insan haqlarını pozma ittihamı irəli sürülməyib.

Maraqlıdır ki, elə bu ölkələrin özləri də insan haqlarına, milli azlıqların, müstəmləkə altına aldıqları xalqların hüquqlarına qarşı tarixən biganə olmuş, hətta xüsusi qəddarlıq nümunələri göstərmişlər. Elə Kanadanın özü də. Kanadada müstəmləkəçilik illərində əsas yerli xalqlara amansızcasına divan tutulub. Belə xalqlardan biri hesab olunan inuitlər nəinki yurd-yuvalarından sürgün edilib, məcburi köçürülməyə məruz qalıb, hətta ruziləri kəsilib, ailələrini dolandırmaq imkanları əllərindən alınıb. İnuitlər, adətən, balıqçılıqla, balina və suiti ovlamaqla dolanıblar. Kanada müstəmləkəçiləri buna qarşı ciddi mübarizə aparmağa başlayanda inuitlər əsas peşələri olan ovdan məhrum ediliblər. Kanada hökuməti hətta onlara ailələrini saxlamaq üçün başqa real alternativ təkliflər də verməyib. İnuit fəalları bu prosesi ikinci müstəmləkəçiliklə müqayisə etmişlər. Bu siyasət nəticəsində onlar doğma yurd-yuvalarını tərk etməyə məcbur olmuşlar.

İndiyədək təkcə inuitlərə deyil, eləcə də Kanadanın 90-a yaxın aborigen xalqına qarşı aparılmış assimilyasiya siyasəti nəticəsində onların ana dilləri tamamilə sıradan çıxmaq təhlükəsi ilə üzləşib. Bunun əvəzində tarixən ingilis və fransız dillərinin təbliği, inkişafı üçün gen-bol maliyyə ayrılıb. Budur Kanadasayağı "demokratiya", "insan haqlarına hörmət", yerli xalqların, milli-etnik azlıqların hüquqlarına "qayğı"! Bu ölkənin Azərbaycanı insan hüquqlarını pozmaqda ittiham etməyə haqqı varmı?!

Artıq bu ölkədə mütəxəssislər hesab edirlər ki, bu cür ayrı-seçkilik, assimilyasiya nəticəsində 2051-ci ildə yalnız 4 faiz inuit ana dilində (inuktut dili) danışa biləcək. Bu haqda BMT-nin xüsusi sessiyasında inuit xalqının nümayəndəsi və "Nunavut Tunngavik" adlı yerli xalqların müdafiəsi uğurunda təşkilatın rəhbəri Aluki Kotierk məlumat vermişdir. Onun hesablamalarını York Universitetinin tədqiqatçısı Yan Martin də təsdiq edib.

Mütəxəssislər baş verənləri "linqvisid" adlandırırlar. 2019-cu ildə Kanada hökuməti Nunavute əyalətində fransız dilinin dəstəklənməsinə yerli xalqların dillərindən 39 dəfə çox vəsait ayırmışdır. Halbuki yerli xalqların dillərində əhalinin 60 faizindən çoxu danışır. UNESCO-nun məlumatlarına görə, Kanadada aborigenlərin danışdığı 90 dilin dörddə üçü yox olmaq təhlükəsi ilə üz-üzədir.

Kanada hökuməti yerli xalqların təhsil hüququnu da qulaqardına vurur. "Nunavut Tunngavik"in məlumatına görə, Arktik bölgədə olan 43 məktəbdən yalnız biri 5-ci sinfədək ana dilinin öyrənilməsi kursunu təklif edir. Digər məktəblərdə ana dili ümumiyyətlə tədris olunmur. 2016-cı ildə Torontodakı C.D.Howe İnstitutu müəyyən edib ki, Kanada rezervasiyalarında yaşayan 10 aborigen xalqdan yalnız 4-nün uşaqları orta məktəbi bitirir. Halbuki Kanadanın yerli xalqı olmayanlar arasında bu göstəricilər 10 nəfərdən 9-dur.

İnuktut dilində, ümumiyyətlə, təhsil yoxdur. Bu, birinci növbədə, Nunavuta qanunvericliyinə, eyni zamanda, 1992-ci ildə ATƏT-in Helsinki Sammitində Kanadanın öz üzərinə götürdüyü beynəlxalq öhdəliklərə ziddir. Digər tərəfdən, Kanada dövlətinin bu siyasəti BMT Baş Assambleyasının 1966-cı ildə qəbul etdiyi "İqtisadi, sosial və mədəni hüquqlar barədə beynəlxalq Pakt"la da ziddiyyət təşkil edir. Bu sənədi Kanada da ratifikasiya edib.

Yüksək səviyyəli təhsilin olmamasına görə yerli xalqlar arasında işsizlik, yoxsulluq, cinayətkarlıq və s. kimi problemlər artır. Bundan əlavə, yerli xalqların yaşadığı Nunavutedə qiymətlər Kanadanın digər bölgələri ilə müqayisədə 3 dəfədən çox yüksəkdir.




Məhz mövcud məhdudiyyətlər səbəbindən yerli xalqlar arasında cinayətlər, ölüm halları da kifayət qədər çoxdur. Son statistikalara görə, qapalı ərazilərdə yaşamış insanlar 11 dəfə çox ağır cinayətlərdə, o cümlədən, adamöldürmədə ittiham olunurlar. 2014-cü ildə Kanadada bütün ölüm cinayətlərin 25 faizi aborigenlər tərəfindən həyata keçirilib. Nunavutedə vərəmlə xəstələnmə əmsalı da Kanadanın digər bölgələri ilə müqayisədə 47 dəfə yüksəkdir.

Kanadada ksenofobiya bu gün də davam edir. Bir müddət əvvəl Ontario əyalətinin London şəhərində sürücü avtomobillə müsəlman ailəsini vurub. Nəticədə ailənin 4 üzvü həlak olub. Şəhər polisinin rəhbəri bunu qəsd adlandırıb: "Onlara müsəlman olduqları üçün hücum edilib".

Kanadanın baş naziri Castin Trudo isə müsəlman ailəsinin qəsdən vurularaq öldürməsi barədə yayılan xəbərdən sonra ölkədə islamofobiyanı dayandırmağa çağırıb. Yerli xalqları assimilyasiya edən Kanadada islamofobiya da hökm sürür. Deməli, bu ölkədə öz vətəndaşlarının bir-birinə qarşı dözümsüzlüyü mövcuddur. Ölkədə hindu, eskimo və aleutların 3 yaşlı uşaqlarının qatili olan bir dövlətin Ermənistanı və erməniləri müdafiə etməsi çox gülünc görünür. Bu ölkənin rəsmi şəxslərinin saxta "erməni sevgisi" də cəfəngiyyatdan başqa bir şey deyil.

İndi biz Kanadadan və onun kimi ölkələrdən demokratiya, insan hüquqları və ədalət dərsi götürə bilərikmi?!..

***Paşa ƏMİRCANOV***
***XQ***

# Ah, Amerika, Amerika...



(əvvəli 1-ci səhifədə)

K.Harris məktubunda yazır ki, "Dağlıq Qarabağdan didərgin düşmüş ermənilərin sağ-salamat öz evlərinə qayıtmaq hüququ erməni xalqının ləyaqətinin və regionda sabitliyin bərpası üçün vacibdir". Vitse-prezident xanım da postmüharibə reallıqları ilə barışmaq istəməyən erməni lobbisinə, eləcə də Ermənistandakı siyasi qüvvələrə yanlış mesaj göndərir. Halbuki regionda sabitliyi pozan məhz erməni separatçılığı olub, Azərbaycan beynəlxalq qanunlara uyğun ərazilərini separatçılardan təmizləyib və regionu "barıt çəlləyi"nə döndərmiş münaqişəyə son qoyub. K.Harrisin də üzdəniraq siyasi trekə düşərək regional sabitliyi ermənilərin evlərinə qayıtması ilə əlaqələndirməsi siyasi riyakarlıqdır və mövcud reallıqları təhrif etmək cəhdidir. Azərbaycan ərazi bütövlüyünü bərpa edib və Qarabağda yaşayan ermənilərə qarşı bir hansı qeyri-qanunu hərəkətə yol verməyib.

Məktubla tanış olduqdan sonra əmin olursan ki, Kamala xanım ermənilərə olan "məhəbbətinin" dozasını qaçırıb. O yazır: "Erməni-Amerika icmasının möhkəmliyi bizim kollektiv Amerika tariximizdə ilham mənbəyi olaraq qalır". Ermənilər ilham mənbəyi? Harada? Amerikada? Axı əsrlər boyu böyük siyasi oyunlarda piyada rolunu oynayan, vaxtı gələndə ağalarını satan və bütün xalqlardan özünü üstün tutan ermənilərin o boyda Amerikanın tarixində hansı ilhamverici rolu olub? Aydındır ki, Qərbin bir çox ölkəsində, ilk növbədə ABŞ-də seçki kampaniyasında bol-bol vədlər verilir və onlardan çoxu sonradan yaxşıca "unudulur". Amma səs üçün bu qədər bəlağətli təriflər yağdırmaq yersizdir, hətta biz deyərdik ki, təhlükəlidir. Niyə? Ona görə ki, dünyanın "ilk insanları", "ilk xristianları", "ilk sivilizasiyanın yaradıcıları" kimi xəstə tezisləri ilə hamını bezdirən ermənilər belə təriflərdən sonra amerikalara da yuxarıdan aşağı baxmağa başlayacaqlar. Axı, Kamala xanımın dediyi kimi, ermənilər Amerika birliyinin ilham mənbəyidir! Mənbədirsə, deməli, üstündür, oraların sahibi, ağasıdır.

Hələ bu harasıdır, məktubdakı digər cümləyə diqqət yetirin: "Ermənistanın və onun xalqının bizim hamımızı azadlıq və ədalət uğrunda mübarizəyə ruhlandıran zəngin tarixi var". Biz azərbaycanlılar ermənilərin necə "zəngin tarixə" malik olduğunu gözəl bilirik. Qafqaza mənfur niyyətlərlə gətirilib yerləşdirilən, müsəlman türklərə qarşı terror aktları törədən və yaradıldığı gündən bu yana qonşulara ərazi iddiaları irəli sürən və hətta otuz illik işğala "imza" atan bir xalqın necə bir "zəngin" tarixə malik olduğunu demək mümkündürmü? Təbii ki, Kamala xanım tarixçi deyil, erməni yaramazlıqlarını bilməyə bilər. Amma Amerikanın siyasi isteblişmenti də gözəl bilir ki, Osmanlı dönəmindən tutmuş postsovet dövrünədək ermənilərin siyasi fəaliyyəti regional inkişafa və demokratiyaya töhfə verməyib. Əksinə, Azərbaycanın qədim torpaqlarında yaradılan Ermənistan adlı qurama dövlət milyonlarla insanın gündəlik həyatına, gələcəyinə mənfi təsir göstərən siyasətin müəllifi olub.

Ermənistandan fərqli olaraq Azərbaycan heç zaman dosta, yoldaşa, qonşuya xəyanət etməyib. Hər zaman mehriban, qarşılıqlı hörmətə əsaslanan siyasət yürüdüb. Ölkədə dinlərarası harmoniya hökm sürür. Monoetnik Ermənistandan fərqli olaraq Azərbaycan çoxmillətli ölkədir. Bundan başqa, Azərbaycan dünyanın enerji təhlükəsizliyinə öz töhfələrini verir və bu proses uğurla davam edir. 11 sentyabr terror hadisələrindən sonra ABŞ-yə və onun müttəfiqlərinə hava-logistika məsələsində böyük yardım göstərib, Əfqanıstanda sülhün təminatında NATO-nun mühüm tərəfdaşlarından biri olub. Bütün bu önəmli faktların fonunda Ermənistanın addımları çox sönük görünür. İrəvan həmişə donorlara möhtac ölkə olub, nə Avropanın, nə də üzvü olduğu hərbi-siyasi birliklərin iqtisadi-hərbi potensialına töhfə verib. Bununla belə, ABŞ başda olmaqla Qərbin bəzi ölkələri geosiyasi ambisiyalarına görə alət olmağa alışmış Ermənistanı "demokratik ölkə" və ya "ədalət uğrunda mübarizə aparan dövlət" adlandırmağa üstünlük verirlər.

Nə etmək olar, Qərbin siyasəti belədir, maraqlarına uyğun davrananları əzizləyir, tərifləyirlər. Öz işləridir, nə qədər istəyirlər, təriflər paylasınlar. Amma tərifləri, ümid dolu məktubları ilə erməniləri çox da cuşa gətirməsinlər. İki əsrdir hərdəmxəyallardan bihuş olub hər cür rəzilliyə imza atmış Ermənistanı yeni avantüralara sürükləməsinlər. Ermənilərin dəstəklənməsi Azərbaycanın suverenliyinə azacıq da olsa təsir göstərərsə, Bakı vəziyyətə uyğun davranacaq. Ağ Evin sahibinin kimin seçilməyindən asılı olmayaraq Azərbaycan ancaq milli maraqlarına uyğun hərəkət edəcək, dosta dost, düşmənə – rəqibə layiqli cavabını verəcək.

***S.ELAY***
***XQ***

# Yevlaxda vətəndaş qəbulu və sıra baxışı





**Daxili İşlər naziri general-polkovnik Vilayət Eyvazov sentyabrın 24-də və 25-də Yevlaxda növbəti vətəndaş qəbulu keçirib.**

Rayon polis şöbəsinin inzibati binasında Yevlax, Kürdəmir, Ağdaş, Ucar, Mingəçevir şəhər və rayonlarından qəbula gələn 445 vətəndaşın müraciətini dinləyən nazir onların problemlərinin həlli üçün nazirliyin aidiyyəti baş idarə və idarə rəislərinə tapşırıqlar verib. Müraciətlərin əksəriyyətinin yerində həlli ilə bağlı tədbirlər görülüb.

Səfər çərçivəsində nazir DİN Daxili Qoşunlarının Bərdədə yerləşən hərbi hissəsinə gedib, hərbi qulluqçuların xidmət və sosial-məişət şəraiti ilə maraqlanıb.

Sonra general-polkovnik Vilayət Eyvazov polis orqanlarında xidmət etmək arzusunda olan gənclərin sıra baxışını keçirib. 45 nəfər Vətən müharibəsi iştirakçısının da qatıldığı sıra baxışında xidmətə qəbulun şərtlərinə uyğun gələn 338 nəfər seçim turunun növbəti mərhələsinə buraxılıb.

Sonda V.Eyvazov qeyd olunan rayonların polis rəislərinə ictimai asayişin qorunmasında, cinayətkarlığa qarşı mübarizədə daha səmərəli tədbirlərin tətbiqi, vətəndaşların müraciətlərinə operativ və obyektiv baxılmasına dair tapşırıqlarını verib.

*XQ*

# Baş Prokurorluqda görüş



**Sentyabrın 26-da Baş prokuror Kamran Əliyevin rəhbərliyi ilə 1 oktyabr–prokurorluq işçilərinin peşə bayramı günü və prokurorluq orqanlarının yaranmasının 106-cı ildönümü münasibətilə veteranlar, müharibəsində iştirak etmiş prokurorluq əməkdaşları, şəhid olmuş prokurorluq işçilərinin ailələri ilə görüş keçirilib.**

Baş prokuror ümummilli lider Heydər Əliyevin müdrik və uzaqgörən siyasətini dövrün tələbləri ilə uzlaşdıraraq uğurla davam etdirən Prezident, müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə silahlı qüvvələrimiz tərəfindən suverenliyimizin tam bərpa edilməsi hadisəsinin ölkəmizin hərb tarixinə qızıl hərflərlə yazıldığını bildirib, həmçinin Prezident İlham Əliyev və Birinci vitse-prezident Mehriban xanım Əliyevanın yorulmaz fəaliyyəti nəticəsində aparılan bərpa və quruculuq işlərini xüsusi vurğulayıb, ölkə rəhbərliyi tərəfindən şəhid ailələri, qazilər və müharibə veteranlarına diqqət və qayğı göstərilməsinin cəmiyyətimiz üçün örnək olduğunu qeyd edib.

İştirakçılar göstərilən diqqət və qayğıya görə ölkə rəhbərliyinə dərin minnətdarlıqlarını bildiriblər.

# Ermənipərəst mövqelər pislənib

**Qərbi Azərbaycan İcması Şotlandiya parlamentinin deputatı Kennet Qibsonun təqdim etdiyi sənədi qətiyyətlə pisləyib. İcma bununla bağlı bəyanat yayıb.**

Sənəddə Qarabağ ermənilərinin Azərbaycanın reinteqrasiya təklifini rədd edib, sərbəst şəkildə ölkəni tərk etmasinin zorla edilmiş hərəkət kimi təqdim edilir və digər əsassız iddialar irəli sürülür.

Bu sənəddə Ermənistandan qovulmuş yüz minlərlə azərbaycanlının geri qayıdışına Ermənistanın mane olmasından söz açılmır, onların bu hüququ tanınmır: "Biz bu addımı qətiyyətlə pisləyirik və Şotlandiya Parlamentinin üzvlərindən bu təxribatı dayandırmağı tələb edirik".

*

**QAİ Ermənistanın xarici işlər naziri Ararat Mirzoyanın Qədim Sivilizasiyalar Forumunda verdiyi bəyanatı da kəskin şəkildə qınayıb və rədd edib.**

İcmanın yaydığı bəyanatda bildirilir ki, nazir Mirzoyan həmin tədbirdə Azərbaycanda "erməni mədəni irsi"nin, guya, təhlükə altında olduğunu iddia edərək, təxribat xarakterli fikirlər səsləndirib.

Sənəddə qeyd olunur: "Ermənistan XİN rəhbərinin UNESCO missiyasının göndərilməsi çağırışına gəlincə, vurğulamalıyıq ki, belə bir missiya Azərbaycana deyil, məhz Ermənistana göndərilməlidir. Təəssüf ki, Ermənistanın imtinası səbəbindən hələ də bu ölkəyə UNESCO missiyası baş tutmayıb".

*XQ*

# Hərbi Prokurorluqda bayram mərasimi



**Sentyabrın 26-da Respublika Hərbi Prokurorluğunun, Bakı Hərbi Prokurorluğunun əməkdaşlarının və veteranların iştirakı ilə milli prokurorluq orqanlarının yaradılmasının 106-cı ildönümünə həsr olunmuş tədbir keçirilib.**

Baş prokurorun müavini – Respublikanın Hərbi prokuroru, ədliyyə general-leytenantı Xanlar Vəliyev mərasim iştirakçılarını 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü münasibətilə təbrik edərək onlara xoş arzularını çatdırıb. O bildirib ki, 80 il ərzində prokurorluq işçilərinin peşə bayramı qeyd edilməyib. Məhz ulu öndər Heydər Əliyevin 1998-ci ildə imzaladığı sərəncamla 1 oktyabr – prokurorluq işçilərinin peşə bayramı günü təsis edilib.

Xanlar Vəliyev ümummilli lider Heydər Əliyevin Azərbaycanın parlaq gələcəyinə hesablanmış mükəmməl siyasətini dövrün tələblərinə uyğun yeni müstəvidə davam etdirən Prezident İlham Əliyevin rəhbərliyi ilə ölkəmizdə bütün sahələrdə əldə olunmuş böyük uğurlardan bəhs edib. Hərbi prokuroru vurğulayıb ki, ölkəmizin hərtərəfli inkişafına Birinci vitse-prezident Mehriban xanım Əliyevanın çoxşaxəli fəaliyyəti misilsiz töhfələr verir.

Sonda prokurorluq əməkdaşlarının bir qisminə təltiflər, prokurorluğun bir qrup veteranlarına isə hədiyyələr təqdim olunub.

# Naxçıvanda mövqelərimiz atəşə tutulub

**Sentyabrın 26-sı saat 16:10 radələrində Ermənistan silahlı qüvvələrinin bölmələri Gorus rayonunun Ərəvus yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərindən Azərbaycan Ordusunun Naxçıvan Muxtar Respublikasının Culfa rayonunun Ləkətağ yaşayış məntəqəsi istiqamətində yerləşən mövqelərini iri çaplı pulemyotlardan atəşə tutub.**



Bu barədə XQ-yə Müdafiə Nazirliyindən məlumat verilib.

"Ordumuzun bölmələri tərəfindən qeyd olunan istiqamətdə cavab tədbirləri görülüb", – məlumatda qeyd edilib.

# Dünya müdafiə sənayesinin yeniliklərini Bakı sərgisindən izlədi

**Sentyabrın 24-dən – 26-dək Bakı Ekspo Mərkəzində regionda müdafiə sənayesinə həsr olunmuş ən nəhəng tədbir – 5-ci Yubiley Azərbaycan Beynəlxalq Müdafiə "ADEX" sərgisi keçirilib. Bununla paralel olaraq 14-cü Beynəlxalq Daxili Təhlükəsizlik, Mühafizə və Xilasetmə Avadanlıqları "Securex Caspian" sərgisi də ziyarətçilərini qəbul edib. Dünya ölkələrinin hərbi nümayəndələrini Bakıya toplamış sərgi Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin təşəbbüsü və təşkilatçılığı, Azərbaycan Müdafiə Nazirliyinin dəstəyi ilə reallaşdı. Sərginin təşkilatçısı "Caspian Event Organisers" və onun beynəlxalq tərəfdaşı "Caspian Event Management" şirkətidir.**




Ölkələrin sənaye müəssisələri və aparıcı şirkətləri arasında əlaqələrin qurulmasında mühüm rol oynayan "ADEX"də hərbi-sənaye kompleksinin müxtəlif sahələri üzrə müasir müdafiə texnologiyaları, hərbi texnikanın ən son nümunələri nümayiş etdirilib.

**Türkiyənin "Lentatek" şirkətinin texnik lideri Uğur Aydın XQ-yə açıqlamasında sərgidə təmsil etdikləri pilotsuz uçuş aparatlarından (PUA) və bunlara modernizasiya etdikləri qurğulardan danışdı:**

– Bizim üçün əsas məsələlərdən biri də PUA-lara quraşdırılmış motorların keyfiyyətli olması, uzun məsafə qət edə bilməsidir. Çalışırıq ki, motoru özümüz istehsal edək və heç bir ölkədən asılı olmayaq. Biz bunu bacarmışıq. PUA-ların digər hissələrini də özümüz istehsal edirik. Sərgilədiyimiz mini PUA-ya daha keyfiyyətli motor inteqrasiya etməklə onun havada qalma müddətini 2 saatdan 3 saata yüksəldə bilmişik. Digər kamikadze PUA-mızın üzərində kamera var və hədəf buradan dəqiq müəyyən olunur.

Diqqətimizi silah və texnika ilə yanaşı, stendlərdə təmsil edilən hərbi geyimlər də çəkdi. Bu istiqamətdə ixtisaslaşmış şirkətlərdən biri də Türkiyənin 1973-cü ildən fəaliyyət göstərən "Kilim Uniform" firmasıdır.

**Müəssisənin meneceri Əmrah Dəmirbaş dedi ki, təmsil etdiyi şirkət Türkiyə Silahlı Qüvvələrini hərbi geyimlə təchiz edən böyük firmalardan biridir:**

– Biz daha çox məhsulun keyfiyyətini düşünürük. Türkiyədə fəaliyyət göstərsək də, bir çox xarici ölkələrə ixracatımız var. Məhsullarımızın və ixrac edəcəyimiz ölkələrin genişlənməsi üzərində çalışırıq. 2014-cü ildən keçirilən "ADEX" bu il iştirakçı sayının çoxluğu və əhatə etdiyi sektorların, texnikaların genişləndirilməsi ilə yadda qalacaq.

Sərgilər artıq Bakı Ekspo Mərkəzinin yeni istifadəyə verilmiş 4-cü zalı da daxil olmaqla, bütün ekspozisiyasını, eləcə də açıq sahəsini əhatə edib. Sərgidə 40 ölkədən 270-ə yaxın şirkət iştirak edib. İştirakçı ölkələr Azərbaycanla yanaşı, ABŞ, Belarus, Birləşmiş Ərəb Əmirlikləri, Bolqarıstan, Böyük Britaniya, Çexiya, Çin, İspaniya, İsrail, İtaliya, Litva, Macarıstan, Pakistan, Qətər, Rusiya Federasiyası, Serbiya, Sinqapur, Slovakiya, Türkiyə, Ukrayna və digərləridir. Builki sərgilər ümumi sayın 34 faizini təşkil edən yeni şirkətlər hesabına yenilənib. Buraya Macarıstan, Qətər, Sinqapur, Slovakiya kimi ölkələrin müdafiə sənayesi şirkətlərini aid etmək olar.

Azərbaycan Müdafiə Sənayesi Nazirliyinin tabeliyində olan "Azərsilah" Müdafiə Sənayesi Holdinqi" QSC ilə birgə iki sərgi zalında stendlə, eləcə də Bakı Ekspo Mərkəzinin açıq sahəsində böyük ekspozisiya ilə təmsil olunub. Bu il Azərbaycan Müdafiə Nazirliyi ilk dəfə olaraq tədbirdə stendlə iştirak edib. Mərkəzin 4-cü zalında Azərbaycan Hərb Tarixi Muzeyinə aid "Zəfərimiz anbaan"maketi xaricidən gələmiş qonaqlarda maraq yaradıb.

"Azərsilah" Müdafiə Sənayesi Holdinqi"nin əməkdaşları yerli istehsal olan AH 12,7x108 millimetrlik ağır pulemyot barədə məlumat verərkən bildirdilər ki, silah hücum batalyonları üçün aşağıdan uçan hava hədəflərini, zirehli texnikanı, atəş nöqtələrini və düşmənin şəxsi heyətini məhv etmək məqsədilə dizayn edilib. Onun kalibri 12,7×108 millimetr, yer hədəfləri üçün görmə məsafəsi 2000 metr, pulemyot boş maqazinlə 21 kiloqramdır. Ümumi uzunluğu açıqlanmış qundaqla 1850 millimetr, bağlanmış qundaqla 1600 millimetrdir. Pulemyot 80 dərəcəlik bucaq altında qalxaraq aşağı məsafədən uçan hədəfləri, digər zirehli iri texnikaları da vurma qabiliyyətinə malikdir.

**Hərbi ekspert Ramil Məmmədli ilə sərginin "Azərsilah"a aid stendində həmsöhbət olduq.** O, bildirdi ki, "ADEX" Azərbaycan müdafiə sənayesi kompleksinin, ordumuzun potensialının gücləndirilməsi, təlləblərin müəyyənləşdirilməsi, dünya hərb bazarında istehsal olunan məhsulların arsenalımıza qəbul edilib-edilməməsi baxımdan olduqca əhəmiyyətlidir:

– "ADEX" həm də ünsiyyət, tanışlıq platformasıdır. Burada dünya ölkələrinin müəssisələri, şirkətləri bir-birləri ilə tanışlıq imkanı əldə edib, eləcə də məhsullarını vizual olaraq görürlər. Azərbaycanın hərbi müəssisələrinin istehsal etdiyi silahlar keyfiyyət baxımdan daha çox diqqət çəkir. Bu, uzun illər çəkilən əziyyətin bəhrəsidir. Yerli şirkətlərimizin pilotsuz uçuş aparatları, aviasiya bombaları, atıcı silahlar və digər sahələrdə yenilikləri var. Biz burada ölkəmizin zirehli texnikalarının, aviasiya vasitələrinin modernləşmə layihələrinin də şahidi olduq.

**Azərbaycanın "Ush Security" şirkətinin əməkdaşı Vüsal Nəhmədov istehsal etdikləri şərti adı "Turan" olan silah barədə məlumat verdi:**

– Biz həm özümüz məhsul istehsal edirik, həm də "Beretta" kimi dünya səviyyəli hərb şirkətlərinin rəsmi təmsilçisiyik. Sərgilədiyimiz "Turan" avtomatının ikitərəfli qoruyucu, doldurma kimi prinsipləri var ki, bu da döyüş şəraitində hərbçiyə əlavə üstünlük verir. 3,7 kiloqram çəkiyə malik "Turan"ın qundağı qatlandığı üçün daşınması da rahat olur. Silahın vuruş məsafəsi 1000 metr, daraq tutumu 30 güllələkdir. Müasir sistem orijinal standartlara uyğun olaraq hazırlanıb və sərgidə ilk dəfə nümayiş olunur. Silah sınaq testlərindən keçib, lakin hələ istifadə olunmayıb. Yaxın zamanlarda ordumuzun arsenalına veriləcəyi nəzərdə tutulur.

**Daha bir yerli şirkətimiz olan "İmprotex"in mexatronika mühəndisi Kərimxan Aydınov sərgilədikləri "Revival" minatəmizləmə maşınları və "İTX" layihəsi barədə bizi məlumatlandırdı:**

– "Revival"lar artıq 2 ildən çoxdur ki, Qarabağda aktiv şəkildə minatəmizləmə işini həyata keçirir. Bizim minatəmizləmə maşınlarımız artıq Ukrayna, Pakistan, Ərəb ölkələrində və digər ölkələrdə xidmət göstərirlər. Məsələn, "Revival P" piyada əleyhinə mexaniki minatəmizləmə vasitələri 7 kiloqramlıq TNT partlayışlarına qarşı dayanıqlıdır. Texnikanın toplam çəkisi 6,5 ton, uzaqdan idarəetmə məsafəsi 2000 metrdir. Təmizləmə dərinliyi 300 mm təşkil edən maşınlar sərt torpaq örtüyü olan ərazilərdə və böyük meyl bucağı altında rahat idarə edilir. Müəyyən edilmiş standartlar əsasında mexaniki vasitələrin ön hissəsində yerləşdirilən toxmaqlar vasitəsilə torpağın döyəclənməsi çətin ərazi relyefində əməliyyatların aparılmasını təmin edir. Maşınların uzaqdan idarə olunması heyətin təhlükəsizliyinə zəmanət verir. 2024-cü ildə "İTX" layihəmiz çərçivəsində istehsal etdiyimiz özünümüdafiə kompleksimizi və ambulansımızı da sərgiləyirik.

Qeyd edək ki, dünən sona yetən sərgidə işgüzar görüşlər də keçirilib. Azərbaycanın müvafiq qurumlarının nümayəndələri ilə sərgi iştirakçıları, eləcə də beynəlxalq nümayəndə heyətlərinin üzvləri və sərgi iştirakçıları arasında ikitərəfli görüşlər təşkil olunub.

Sərgilər dünən başa çatıb.

*Rizvan FİKRƏTOĞLU,*
*Elşən AĞALAR (foto)*
*XQ*

# İki əsrə bərabər gün



(əvvəli 1-ci səhifədə)

Dörd il bundan əvvəl o günü gerçəkliyə çevirəcək bütün şərtlər yetişmişdi. 27 sentyabr qələbəyə gedən yolumuzun başlanğıcı oldu. Bu tarixi gün xalqımızın milli mənlik şüurunun inkişafında, gənclərimizdə vətənpərvərlik ruhunun güclənməsində müstəsna əhəmiyyətə malikdir. İki yüz il boyu tarixi ədalətsizliyin, torpaq itkisinin ağrısını yaşayan xalqımız bu qələbə ilə təkcə haqqına düşəni əldə etmədi, həm də milli qürurunu, özünəinamı qaytardı. İnam və qürur. Xalqın birliyi və qələbəyə sonsuz inamı mütləq ona qürur verəcək günü yaşatmalı idi və yaşatdı.

Hayların "fransız sədləri" dedikləri o maneələri aşmağın, səhra istehkamlarını yarmağın mümkün olmadığını deyənlərə cəmi 44 gündə çox şeyləri göstərdik və sübut elədik. Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi altında peşəkar, rəşadətli silahlı qüvvələrimiz Vətən müharibəsində yenilməzlik və qətiyyət nümayiş etdirdi. Ordumuz Ali Baş Komandanın qarşıya qoyduğu bütün tapşırıqları ləyaqətlə yerinə yetirməklə, qəhrəmanlıq salnaməsinə öz imzasını atdı. Vətən müharibəsinin davam etdiyi hər gün bir ərazimizin erməni işğalından azad edildiyi gün kimi tarixə düşdü.

"Vətən müharibəsi və antiterror əməliyyatı keçirilərkən bizim 3200-dən çox qəhrəman oğullarımız şəhadət zirvəsinə ucalmışdır. Onların və digər qəhrəman hərbçilərimizin rəşadəti və vətənpərvərliyi Qələbənin əsas amilləridir. Vətən uğrunda İkinci Qarabağ müharibəsində 90 mindən çox gənc azərbaycanlı iştirak etmişdir". Bu sözləri dövlətimizin başçısı bir həftə bundan əvvəl Xankəndidə Qarabağ Universitetinin müəllim və tələbə heyəti ilə görüşündəki çıxışında deyib.

O günün xronikasına qısa nəzər yetirməyimiz yerinə düşər. 2020-ci il sentyabrın 27-si səhər saatlarında Ermənistan silahlı qüvvələri sərhəddə genişmiqyaslı təxribat törədərək ordumuzun cəbhəboyu zonada yerləşən mövqelərini, eləcə də yaşayış məntəqələrini iriçaplı silahlardan, minaatanlar və artilleriya qurğularından intensiv surətdə atəşə tutmağa başladı. Artıq düşmənə layiqli cavab verməyin, ona ordumuzun qüdrətini göstərməyin məqamı yetişmişdi. Ali Baş Komandan İlham Əliyev Ermənistan ordusunun sərhəd təxribatının, döyüş aktivliyinin qarşısını almaq, mülki əhalinin təhlükəsizliyini təmin etmək məqsədilə qoşunların bütün cəbhə boyu sürətli əks-hücum əməliyyatına başlaması barədə əmr verdi. Bununla da "Qarabağ Ermənistandır və nöqtə" deyənin çox böyük tarixi yanlışlığa yol verdiyini sübuta yetirəcək şanlı Vətən müharibəsi başlandı. Ermənistanda hərbi vəziyyət və ümumi səfərbərlik, Azərbaycanda isə hərbi vəziyyət və komendant saatı, sentyabrın 28-də qismən səfərbərlik elan edildi. Lokal döyüşlər qısa müddət ərzində sürətlə alovlanaraq, İkinci Qarabağ müharibəsinə çevrildi. 44 gün davam edən Vətən müharibəsinin gedişində oktyabrın 4-də Cəbrayıl, 17-də Füzuli, 20-də Zəngilan, 25-də Qubadlı yağılardan təmizləndi.

Noyabrın 8-də isə Qarabağın tacı, qurur və ləyaqət rəmzi sayılan qalamız – Şuşa şəhəri işğaldan azad edildi. Xoş müjdəli Qələbə xəbərini o vaxta qədər kənd və şəhərlərimizin bir-birinin ardınca azad edilməsi barədə verdiyi məlumatlarla müqayisədə xüsusi bir həyəcan və qürur hissi ilə elan edərkən Ali Baş Komandanın sevincdən kövrəldiyi hələ də gözümüz önündən getməyib. Üstündən dörd il keçəndən sonra cənab Prezident o günləri belə xatırlayır: "Bildiyiniz kimi, 44 gün ərzində şanlı Ordumuz hər gün irəli gedir, hər gün yaşayış məntəqələri işğalçılardan azad edilirdi. Bildiyimə görə, dünya hərb tarixində buna bənzər hərbi əməliyyat olmamışdır. Bir gün belə geriyə addım atmamışıq, hər gün bir neçə kənd, bir neçə qəsəbə, şəhər azad edilirdi. Bir nəfər olsun döyüş meydanını tərk etməmişdir. Amma Ermənistanın rəsmi etirafına görə, ordusunda 12 mindən çox fərari olmuşdur. Bu, nəyi göstərir? Əlbəttə ki, xalqımızın yüksək mənəvi keyfiyyətlərini göstərir. Bununla bərabər, onu göstərir ki, sinəsini qabağa verən gənclər o qədər vətənpərvərlik ruhunda tərbiyə olunmuşdur ki, onlar üçün Vətən torpaqlarını azad etmək ən şərəfli missiya olmuşdur. Sinəsini qabağa verən, ölümə gedən gənclər bir amalla yaşayırdılar ki, milli ləyaqətimizi bərpa edək və bunu etdik. Ona görə mənəvi-psixoloji üstünlük bir daha bizim ümumi üstünlüyümüzü göstərir. Müharibədən keçmiş ölkə kimi və Ali Baş Komandan kimi müharibənin nəticələrini şərtləndirən amillərə nəzər salaraq, təhlil edərək tam əminliklə deyə bilərəm ki, birinci yerdə, birinci növbədə milli ruh məsələsi, mənəvi hazırlıqdır. Təbii ki, peşəkarlıq, qəhrəmanlıq, texniki təchizat – bütün bunlar da vacib amillərdir. Ancaq mənəvi üstünlük olmasa, milli düşüncə olmasa heç bir ən güclü ordu heç vaxt heç bir qələbə qazana bilməz".

Düşmən üzərində qələbənin tarixi əhəmiyyəti ilə yanaşı, onu qazandıran əsas amilləri zərgər dəqiqliyi ilə xırdalayan dövlət başçımızın 44 gün ərzində arxa cəbhədə – informasiya savaşında göstərdiyi şücaət isə bütün dünyanı heyrətə gətirmişdi. Həqiqətən də, hər bir azərbaycanlıya sonsuz qürur və xoşbəxtlik bəxş edən Vətən müharibəsindəki Qələbəmiz dünya dövlətlərinin, beynəlxalq təşkilatların diqqət mərkəzində idi. Başda sərkərdə olmaqla, Azərbaycan əsgərinin, zabitinin bu müharibədə göstərdiyi misilsiz qəhrəmanlıqlar indi dünyanın aparıcı dövlətlərinin hərbi akademiyalarında, beyin mərkəzlərində araşdırma mövzusuna çevrilib. 44 günlük müharibənin gedişatında müzəffər ordumuzun peşəkar heyəti tərəfindən həyata keçirilən döyüş əməliyyatları, xüsusilə, Şuşanın azad olunması taktikası dünya hərb tarixində yenilik və böyük uğur kimi qiymətləndirilir.

Beləliklə, ermənilərin Cənubi Qafqaza köçürülməsindən və əzəli türk torpaqlarında məskunlaşmasından sonra keçən iki əsr ərzində uydurduqları "dənizdən-dənizə böyük Ermənistan" mifik ideyası Azərbaycanın yaratdığı çağdaş reallıqlarla toqquşmada yerlə-yeksan edildi. Bunun nəticəsində hayların 200 illik saxta tarixlərinə bir savaşda nöqtə qoyuldu. İki əsrə bərabər tutulmağa layiq o gün isə Ermənistana indini deyil, həm də gələcəyini itirə biləcəyinin acı aqibətini yaşatdı.

Bu gün xalqımız Anım Gününü həm də qürur günü kimi qeyd edir. Prezident İlham Əliyev İkinci Qarabağ müharibəsi bitdikdən sonra, 2020-ci il dekabrın 2-də Vətən müharibəsinin başladığı günü Anım Günü kimi qeyd etmək barədə sərəncam imzaladı. Sərəncamda qeyd olunur ki, dövlət Vətən müharibəsində iştirak etmiş Azərbaycanın mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər




və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, sentyabrın 27-si hər il Azərbaycanda Anım Günü kimi qeyd edilir.

2021-ci il sentyabrın 27-də paytaxtda Anım Günü ilə bağlı ilk dəfə təşkil olunmuş yürüşdə Azərbaycan Prezidenti, Ali Baş Komandan İlham Əliyevin əlində şəhid zabitlərdən birinin portretini tutması bütün şəhidlərimizin ruhuna dərin ehtiram və sayğının əlaməti idi. Bəli, Vətən onları heç vaxt unutmayacaq. 44 gün davam edən Vətən müharibəsində igid oğullarımızın rəşadəti sayəsində, şəhidlərimizin qanı bahasına Azərbaycan tarixinin qızıl səhifəsi – Zəfər yazıldı. Bu gün azad olunan torpaqlarımızda üçrəngli bayrağımızın dalğalanmasına qürurla baxdığımıza görə şəhidlərimizə, qazilərimizə, Azərbaycan əsgərinə borcluyuq.

Qarabağımızı xalqımıza yenidən bəxş edən Ali Baş Komandan İlham Əliyev çıxışlarında bəyan etdiyi kimi, bundan sonra biz qalib xalq, müzəffər dövlət kimi o torpaqlarda əbədi yaşayacağıq. Bu qələbənin əldə olunmasında canından keçmiş bütün şəhidlərimizi sonsuz sevgi və qürurla anacağıq.

Dörd il əvvəl Azərbaycan xalqı həm də işğala boyun əyməmək əzmini və ədalətsizliyə qarşı barışmazlığını nümayiş etdirdi. Bu məqam xalq–ordu–dövlət birliyini ən yüksək zirvəyə qaldırdı. Məhz bu birlik Azərbaycan–Türkiyə qardaşlığını zamanın daha bir sınağından alnıaçıq, üzüağ çıxardı. Tarixi qələbə önümüzdə yeni reallığın, gələcəyə yönəlik perspektiv layihələrin mənzərəsini açdı. Qarşıda ölkəmizi siyasi, iqtisadi və hərbi sahədə yalnız uğurlar gözləyir. Zəfəri qanı bahasına qazanmış xalqa uğur yaraşır.

Cənubi Qafqazda erməni separatizminin kökünü kəsdiyi zəfəri ilə Azərbaycan bölgənin ən güclü ordusuna malik olduğunu sübuta yetirdi. Hazırda daha da güclənmiş Azərbaycan Silahlı Qüvvələri kənardan istənilən müdaxilənin qarşısını qətiyyətlə almaq iqtidarındadır. Böyük qələbəni təmin edən xalq–ordu–dövlət birliyi ötən ilin sentyabrında lokal xarakterli antiterror tədbirlərində ərazi bütövlüyü və suverenliyimizin tam bərpası ilə özünü bir daha təsdiqlədi.

Düşmənin üzərinə yeriyən şir ürəkli oğullarımız göstərdikləri qəhrəmanlıqları ilə adlarını xalqımızın qan yaddaşına qızıl hərflərlə yazdırdılar. Vətənin azadlığı uğrunda canından keçmiş bütün şəhidlərimizin əziz xatirəsi bu gün haqq etdiyinin qürurunu yaşayan Azərbaycan xalqının qəlbində əbədi yaşayacaq.

***İmran BƏDİRXANLI***
***XQ***

# Vətən müharibəsinin xronikası: 27 sentyabr

**2020-ci il sentyabrın 27-də Ermənistan silahlı qüvvələrinin cəbhəboyu törətdiyi genişmiqyaslı təxribatlara cavab olaraq Azərbaycan Ordusu əks-hücum əməliyyatına başladı. Bu Vətən müharibəsi otuzillik işğala son qoyan şanlı Qələbə ilə nəticələndi. Müzəffər Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə qazanılmış möhtəşəm Zəfər yürüşü Azərbaycan tarixinə qızıl hərflərlə yazıldı.**



### Zəfər marafonunun 1-ci günü

– Sentyabrın 27-də Azərbaycan Respublikasının Müdafiə Nazirliyi Ermənistan silahlı qüvvələrinin saat 6 radələrindən etibarən genişmiqyaslı təxribatlar törədərək cəbhəboyu zonada yerləşən Azərbaycan Ordusunun mövqelərini və yaşayış məntəqələrimizi iriçaplı silahlar, minaatanlar və müxtəlif çaplı artilleriya qurğularından intensiv atəşə tutması barədə məlumat yaydı.

– Saat 12 radələrində Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev xalqa müraciət etdi. Dövlətimizin başçısı müraciətində sentyabrın 27-si səhər Ermənistan silahlı qüvvələrinin bir neçə istiqamətdən müxtəlif növ silahlardan, o cümlədən ağır artilleriyadan istifadə edərək yaşayış məntəqələrimizi, eyni zamanda, hərbi mövqelərimizi atəşə tutması, mülki əhali və hərbçilərimiz arasında itkilər, yaralananların olması barədə məlumat verdi. Azərbaycan Prezidenti ordumuzun düşmənin hərbi mövqelərinə atəşlər, zərbələr endirdiyini və bu zərbələr nəticəsində düşmənin bir çox hərbi texnikalarının sıradan çıxarıldığını bildirdi.

– Günorta saatlarında Türkiyə Respublikasının Prezidenti Rəcəb Tayyib Ərdoğan Prezident İlham Əliyevə telefonla zəng etdi. Qardaş ölkənin dövlət başçısı Türkiyənin həmişə olduğu kimi, bu gün də Azərbaycanın yanında olduğunu vurğuladı.

– Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyevin sədrliyi ilə Təhlükəsizlik Şurasının iclası keçirildi. Dövlətimizin başçısı Ermənistan silahlı qüvvələrinin təxribatlarının qarşısının alınması ilə bağlı verdiyi göstərişlər əsasında Azərbaycan Ordusunun genişmiqyaslı əks-hücum əməliyyatına başladığını elan etdi. İclasda Azərbaycan Ordusunun uğurlu əks-hücum əməliyyatı nəticəsində düşmənin ön xəttinin yarıldığı, altı kəndin –Qaraxanbəyli, Nüzgar, Yuxarı Əbdürrəhmanlı, Böyük Mərcanlı, Kənd Horadiz, Qərvənd kəndlərinin işğaldan azad edilməsi barədə xalqımıza ilk müjdə verildi.

– Saat 19 radələrində Prezident İlham Əliyev ölkəmizdə hərbi vəziyyətin elan edilməsi haqqında fərman imzaladı.

– Saat 18:30 radələrində Müdafiə Nazirliyi cəbhənin Goranboy istiqamətində qoşunlarımızın keçirdiyi hərbi əməliyyat nəticəsində Murov dağı silsiləsindəki Murov zirvəsinin azad olunması barədə məlumat yaydı.

# Naxçıvanda Vətən müharibəsi iştirakçıları ilə görüş

**İdman Nazirliyinin təşkilatçılığı ilə reallaşan görüşdə qazilərimiz Abbasəli Tarverdiyev, Pərviz Muradov, Vidadi Məmmədov və hazırda xidmətini davam etdirən hərbçilərimiz – kapitan Elvin Məmmədov, kiçik gizir İsmayıl Həsənov və müddətdən artıq həqiqi hərbi xidmət hərbi qulluqçusu Səfəralı Səfərov iştirak ediblər.**

Nazirliyin şöbə müdiri açılış nitqi ilə çıxış edərək bütün hərbçilərimizə ali xidmətlərinə görə minnətdarlıq edib, Vətən uğrunda canlarını fəda edən şəhidlərimizə Allahdan rəhmət diləyib. Qeyd olunub ki, dövlət gənclər siyasətinə uyğun olaraq ölkəmizdə gənc nəslin vətənpərvər ruhda böyüməsi, Azərbaycançılıq ideologiyası və milli dövlətçilik prinsiplərinə sadiq vətəndaş kimi formalaşmasına xüsusi önəm verilir. Qəhrəman əsgər və hərbçilərimizin döyüşlərdə göstərdiyi şücaət, mərdlik nümunəsi bu baxımdan mühüm əhəmiyyətə malikdir.



Tədbir diskussiya formatında davam edib. Müharibə iştirakçıları döyüş xatirələrini bölüşüb, gənclərə tövsiyələr verib və onları maraqlandıran sualları cavablandırıblar. Silahlı Qüvvələrin Ali Baş Komandanı, ölkəmizin başçısı cənab İlham Əliyev tərəfindən "Dövlət Suverenliyi Günü"nün təsis olunması ilə bağlı imzalanan Sərəncamın önəmindən bəhs olunub, suverenliyimizin tam bərpasını dünyaya bəyan edən bu sənədin qəhrəman şəhidlərin xalqımıza, yeni nəsillərə ötürdüyü vətənpərvərlik mirasına böyük dəyər qatdığı vurğulanıb.

***Səbuhi HƏSƏNOV***
***XQ***

# Anım Günü şərəfinə "yaşıl" aksiya

***Şəhər icra hakimiyyətinin təşkilatçılığı ilə Azərbaycanın ərazi bütövlüyü uğrunda canlarını qurban vermiş Vətən müharibəsi şəhidlərinin Anım Gününə ehtiram əlaməti olaraq ağacəkmə aksiyası keçirilmişdir.***

Gəncə Şəhər Ekoloji Park Kompleksinin ərazisində baş tutan aksiyada Gəncə Şəhər İcra Hakimiyyətinin başçısı Niyazi Bayramov, Türkiyənin Gəncədəki Baş konsulu Recep Öztop, Gürcüstanın Gəncədəki Baş konsulu Qaxaber Abdaladze, YAP Gəncə şəhər təşkilatının sədri Bayram Aslanov, millət vəkili Pərvin Kərimzadə, ali məktəblərin rektorları, icra hakimiyyəti başçısı Aparatının məsul əməkdaşları, bələdiyyə sədrləri, idarə, müəssisə və təşkilat rəhbərləri iştirak ediblər.

Aksiya zamanı simvolik olaraq 44 ədəd Eldar şamı əkilib, onlara aqrotexniki qulluq göstərilib, suvarılması təmin edilib.



Qeyd edək ki, Anım Gününə həsr olunmuş ağacəkmə aksiyasının məqsədi, həmçinin ətraf mühitin qorunmasına, ekoloji tarazlığın bərpasına kömək etmək və təbiətə töhfə verməkdir.

***Hamlet QASIMOV,***
***XQ-nin bölgə müxbiri***

**Gəncə**

# Qarabağ Zəfəri – tarixi ədalətin çağdaş təntənəsi



**Qədim türk yurdu, Azərbaycanın mərkəzi bölgəsi Qarabağı 30 illik yağı işğalından azad etmiş, işğalçı Ermənistanın insan qanına həris talançı quldur dəstələrini darmadağın etmiş Vətən müharibəsinin başlanmasından 4 il keçir.**

Çoxəsrlik qəhrəmanlıq salnaməmizə ən möhtəşəm zəfər kimi daxil olmuş 44 günlük bu savaş marafonunu çağdaş dünya hərb mütəxəssisləri müasir silah növləri ilə ən çevik və sürətli döyüş taktikası nümayiş etdirmiş müharibə kimi öyrənməyə başladılar. Bu mövzuda müsahibimiz Milli Müdafiə Universiteti Hərbi Elmi Tədqiqat İnstitutunun professoru, XQ-nin hərbi eksperti Mehman Süleymanovdur.

**– Mehman müəllim, tarix ədalətsiz müharibələrin məğlubiyyətlə bitməsini birmənalı təsdiq etsə də, hələ də zorakı savaşlara, hərbi işğallara, gücə, kənar himayəyə inam bəsləyənlər tapılır. İkinci Qarabağ savaşı dünyanın güclü imperialist dairələrinin açıq-gizli dəstəyi ilə hərbi-siyasi avantüraya uymuş militarist Ermənistanı möhtəşəm bir yürüşlə diz çökdürməklə tarixin hökmünə zidd getməyin acı aqibətini bir daha dünyaya nümayiş etdirdi.**

– Bəli, nə qədər qəribə olsa da, tarixin təkərini geri döndərməyə, cəmiyyət qanunlarını yenidən yazmağa cəhd edənlər hələ də tapılır. Tarix isə öz məntiqini qorumaqla müəyyən fasilələrlə təkrarlanır. Azərbaycan xalqı ölkənin qədim əyaləti Qarabağı Ermənistan işğalından qorumaq uğrunda mübarizədə ilk qələbəni 2020-ci ilin zəfərindən 1 əsr əvvəl qazanmışdı. O zaman Azərbaycanın Qərbində imperialist dairələrin əli ilə oyuncaq dövlət qurmuş erməni daşnakları bununla kifayətlənməyib Naxçıvana, Zəngəzura və Qarabağa da soxulmuşdu.

Həmin ilin mart ayının 23-nə keçən gecə tarixi torpaqlarımızda yenicə elan edilmiş Ermənistan dövlətinin təcavüzkar silahlı qüvvələri və onun Qarabağda təşkilatlandırdığı terror dəstələri Azərbaycan Xalq Cümhuriyyəti Ordusunun bölgədə yerləşən bölmələri üzərinə qəfil hücuma keçməklə, müvəqqəti də olsa, öz niyyətlərinə nail ola bilmişdilər – daşnaklar Qarabağın dağlıq hissəsinə nəzarəti ələ keçirmişdilər.

Bu kəmfürsət planların davamında o zaman Azərbaycanın böyük əraziləri də Ermənistanın işğalı altına düşməli idi. Nəzərdə tutulmuşdu ki, erməni silahlı qüvvələri Qarabağın dağlıq hissəsindən Tərtərə və oradan da Gəncəyə çıxsınlar və sonra isə Gəncədən Qazax–Ağstafaya qədər olan əraziləri zorla Ermənistana birləşdirsinlər. Eyni vaxtda Qazax–Ağstafa istiqamətindən də hücuma başlayan erməni dəstələri bu işğalçılıq planının həyata keçməsinə öz dəstəklərini verməli idilər. Bununla da xəstə təxəyyülün məhsulu olan “Böyük Ermənistanın” coğrafiyasının cızılması üçün Azərbaycan ərazisinin böyük bir hissəsi yerli əhalidən təmizlənməli, türk-müsəlmanlara münasibətdə ən adi insani meyarları əldən vermiş erməni toplumunun tapdağı altına düşməli idi.

O zaman dövrün və şəraitin çətinliklərindən heç də yaxa qurtarmamış AXC hökuməti bütün potensialını toplayaraq, Azərbaycanın ərazi bütövlüyü uğrunda ağırılı-acılı bir müharibəyə qalxdı. Dövrün milli siyasətçilərinin ərklə “ağsaqqal generalımız” adlandırdığı hərbi nazir Səməd bəy Mehmandarov silahdaşlarını toplayıb cəbhəyə səfərbər etdi və onlarla birlikdə Vətənə sədaqətli xidmətin nəsillərə meyar olacaq bir nümunəsini tarixə həkk elədi. Bütün cəhdlərinə və böyük qüvvələr cəlb etməsinə baxmayaraq, erməni-daşnak qüvvələri Qarabağı Azərbaycandan qopara bilmədilər. Cümhuriyyət ordusu böyük fədakarlıqlar nəticəsində bu qədim türk diyarını işğaldan, yad nəfəsindən qorudu, yeni yaradılmış müstəqil dövlətin ərazi bütövlüyünün pozulmasına imkan vermədi.

Lakin bu sevincin ömrü uzun olmadı, çox keçmədən Azərbaycanın müstəqilliyinə son qoyuldu. Qarabağın başı üzərində yenidən qara buludlar görünməyə, ayağında sərt küləklər əsməyə başladı. Lakin xalqımız o zaman milli qeyrət və dirəniş göstərərək, Naxçıvanı və Qarabağı qoruyub ölkəmizin tərkibində saxlamağa nail oldu. Qəddar sovet rejiminin xalqımızın adından Ermənistana bağışladığı Zəngəzuru isə qorumaq mümkün olmadı. O zaman Azərbaycanın kürəyinə sancılan paslı xəncər bu gün də qövr edir. Azərbaycandan qoparılan Zəngəzur bu gün beynəlxalq dartışmalar hədəfi kimi yenidən gündəmdədir.

**– Xalqımızın AXC dövründə Vətəni müdafiə təcrübəsi ilə bağlı xatırlatdığınız özünüqoruma instinkti və misilsiz yurd sevgisi 30 illik məşəqqətli bir dövrdə xaç dünyasının yeni səlib basqısının qarşısında davam gətirməyə və nəhayət, Qarabağı geri qaytarmağa imkan verdi.**

– Bu misilsiz təcrübə bir əsr sonra, yəni 2020-ci ilin payızında yenidən təkrar olundu. Özü də yeni keyfiyyətdə və daha yüksək səviyyədə. Çünki 1920-ci ildən fərqli olaraq, 2020-ci ildə Azərbaycan daha mürəkkəb hərbi-siyasi durumda idi. Belə ki, Qarabağın dağlıq hissəsi tamamilə işğal altına alınmışdı, bu ərazidə yaşayan azərbaycanlılar etnik təmizləməyə məruz qalmışdı. Müdhiş Xocalı soyqırımı həyata keçirilmişdi, Şuşa şəhəri, Kəlbəcər, Laçın, Ağdam, Qubadlı, Zəngilan, Cəbrayıl və Füzuli rayonları işğal edilmişdi, bu ərazinin təmas xəttində mürəkkəb istehkam qurğuları yaradılmışdı. Başlıcası isə erməni-faşist düşüncəsini və təfəkkürünü bölüşən dünyanın çox böyük dövlətləri Azərbaycan ərazilərinin işğal altında qalması üçün Ermənistana hər cürə kömək göstərirdi.

Azərbaycan xalqının, ölkə rəhbərliyinin zəkaya, bəşəri ədalətə, dünya dövlətləri tərəfindən rəsmi şəkildə tanınmış sərhədlərin bərpasına çağırış səsləri isə hər vasitə ilə qulaqardına vurulur və hətta Azərbaycanı mövcud reallıqla barışdırmaq, işğal olunmuş torpaqları unutdurmaq meyli belə özünü göstərməkdə idi. Ermənistanın faşist ideologiyasına köklənmiş rəhbərliyi və dünya erməniliyi isə haqqa göz yuman, işğalçını cəzasız qoyan böyük dövlətlərin və qüvvələrin mahiyyətindən doğan ikili yanaşmadan şirniklənməklə insanlığa meydan oxumaqda davam edirdilər.

Ermənistanın müdafiə naziri o zaman “yeni müharibə–yeni ərazilər” tezisini ortaya atdı və bu hədənin həyata keçməsi üçün strateji planları da açıqladı. D.Tonayan bildirdi ki, Ermənistan ordusu indi hücum ordusuna çevrilməkdədir. Onun sözlərinə görə, Ermənistan silahlı qüvvələri səngərlərdə oturmaqla müdafiə mövqeyinə üstünlük verilməsinə son qoymalı və hücum fəaliyyətini əsas vəzifəsinə çevirməlidir. “Biz səngər vəziyyətindən, daimi müdafiə vəziyyətindən çıxacağıq. Biz hərbi əməliyyatları düşmən ərazisinə keçirməyə qadir olan bölmələrin sayını artıracağıq”.

**– Xatırlayırsınızsa, bu bəyanatdan az sonra Ermənistanın müdafiə naziri Tonayan 2019-cu il aprel ayının 13-də Ermənistanın Gədəbəy rayonu ilə sərhəd olan nöqtəsinə gəlib oradan keçmiş Başkənd ərazisini müşahidə etdi və bu əraziyə olan iddiasını açıq şəkildə ortaya qoydu.**

– Həmin bədnam Tonayan bununla bir daha göstərdi ki, Ermənistan rəhbərliyinin Azərbaycanın yeni ərazilərinə olan iddiası heç də adi söhbətlər deyil. 2020-ci ilin iyul ayında Tovuzla sərhəd xəttində baş vermiş məlum hadisələrdən bir neçə gün əvvəl isə özünü Qarabağdakı separatçı rejimin qondarma xarici işlər nazirinin müşaviri adlandıran Ruben Marqaryan adlı birisi, guya, “beynəlxalq normalara əsasən”, Azərbaycanı erməni torpaqlarını işğal etməkdə ittiham etdi. O, Xankəndi rejiminin keçmiş Şaumyan rayonuna, “Şimali Arsax”a daxil olan Gəncə şəhərinə, Daşkəsən, Gədəbəy, Şəmkir, Xanlar rayonlarına olan ərazi iddialarını irəli sürdü.

Bütün bunları nəzərə alaraq Azərbaycan Respublikasnın Prezidenti İlham Əliyev 2020-ci il sentyabr ayının 25-də Avropa İttifaqının xüsusi nümayəndəsi Toivo Klaarı qəbul edərkən Ermənistanın Azərbaycana qarşı müharibəyə hazırlaşdığını bəyan etdi. Azərbaycan rəhbəri bu məlumatın Avropa Komissiyasına çatdırılmasını da lazım bildi: “Kəşfiyyat mənbələrimizdə məlumat var ki, çox ciddi hərbi hazırlıqlar gedir, onların hərbi qüvvələri təmas xəttində, dövlət sərhədində cəmləşir. Biz vəziyyəti izləyirik və özümüzü müdafiə edəcəyik, Tovuzda etdiyimiz kimi, başqa bir çox hallarda etdiyimiz kimi. Əgər onlar bizə hücum etsələr, peşman olacaqlar. Mən, sadəcə olaraq, sizin bunu bilməyinizi və bu mesajı Avropa Komissiyasına çatdırmağınızı və Avropa Komissiyasının təcavüzkarın yeni təxribatlarını dayandırmaq üçün nə edə biləcəyini görmək istəyirəm”.

**– Gerçəklik hissini itirmiş Ermənistan rəhbərliyinin, ikili yanaşma ilə erməni millətçilərinin faşist ideologiyasına və fəaliyyətinə şərik olan qüvvələrin Azərbaycanın dövlət rəhbərliyinin bu xəbərdarlıqlarını qulaqardına vurması isə bölgədə yenidən müharibənin alovlanmasına yol açdı.**

– Dünya dövlətlərinin və beynəlxalq ictimaiyyətin yeni bir susqunluğu ilə qarşılaşacaqlarına ümid edən Ermənistan rəhbərliyi son illərdə törətdikləri hərbi təxribatlara görə Azərbaycan Ordusu tərəfindən layiqli cəzalar alması ilə hesablaşmayaraq, 2020-ci il sentyabr ayının 27-də yeni bir hərbi təxribata əl atdı, Azərbaycanın yaşayış məntəqələri güclü atəşlərə məruz qaldı.

Ermənistan rəhbərliyi, onun millətçi dairələri və faşist xislətli hamiləri növbəti dəfə də Azərbaycanın sarsılmaz iradəsi ilə qarşılaşdı, dünya erməniliyini diz çökdürən haqlı zərbə ilə üzbəüz qaldı. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev bu təxribatın başlanmasından dərhal sonra Təhlükəslizlik Şurasının iclasındakı çıxışında Ermənistan rəhbərliyinin korafəhmliyinə, ağlasığmaz iddialılığına belə qiymət verirdi: “Mən Ermənistana xəbərdarlıq etmişdim. Tovuz hadisələrindən sonra bir neçə dəfə xəbərdarlıq etmişdim ki, əgər onlar öz çirkin əməllərindən əl çəkməsələr, peşman olacaqlar. Biz onlara 2016-cı ildə, 2018-ci ildə, bu ilin iyul ayında dərs verdik. Amma görünür ki, bu, onlar üçün dərs olmadı. Bu dəfə də dərs veririk və verəcəyik. Bu gün şanlı Azərbaycan Ordusu böyük uğurla əks-hücum əməliyyatı keçirir və bu əməliyyat davam edir”.

Cəmi ay yarım davam edən əks-hücum əməliyyatları nəticəsində Ermənistana, faşist mahiyətli dünya erməniliyinə və onların havadarlarına elə bir dərs verildi ki, bölgədə tamamilə yeni bir reallıq yarandı. 30 il ərzində davam edən işğala susqunluqla yanaşan çox böyük qüvvələr Azərbaycan xalqının iradəsi qarşısında diz çökməyə məcbur oldu və bu qüvvələrin heç yuxularında belə təsəvvür edə bilməyəcəkləri bir tarixi mənzərə ortaya çıxdı. Azərbaycan xalqı və onun iradəsini ifadə edən müstəqil dövləti gücünü və qətiyyətini toplayaraq, öz ərazilərini erməni işğalından azad etdi, fərqli bir dünya düzəni yaratmaqla yeni bir tarix yazdı.

Azərbaycan xalqı sübut etdi ki, haqsızlığa dayaqlanan şər və təcavüzlə onun iradəsini qırmaq, Azərbaycan xalqı ilə zor və təzyiqlə danışmaq, Azərbaycan xalqının səbri və dözümü ilə siyasi alver etmək olmaz. Kimsənin torpağına göz dikməyən Azərbaycan dövləti öz torpaqlarının yad tapdağı altında qalması ilə barışmadı və bu torpaqlarda əbədilik kök salacaqlarına şübhə etməyən quldurxislət ermənilərə layiq olduğu yerini göstərdi, müstəqil ölkənin ərazi bütövlüyünü bərpa etdi.

**– Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsində və Qarabağ torpaqlarının işğalına son qoyulmasında, heç şübhəsiz ki, ilk növbədə, Azərbaycan Ordusu misilsiz fədakarlıq nümayiş etdirdi.**

– Mübarizlik, qətiyyət, şücaət, xalq və dövlət maraqlarına sonsuz sədaqət, düşmənə hədsiz nifrət hər bir əsgərin, zabitin və generalın şəxsində düşmənə doğru istiqamətlənmiş ağır bir yumruğa çevrildi. Azərbaycan Ordusu mürəkkəb döyüş şəraitində bu gün bütün dünyanı heyrətə salacaq bir məharət göstərməklə xalqımızın qəhrəmanlıq tarixinə şərəfli bir səhifə yazdı.

2020-ci il oktyabrın 4-də Cəbrayıl şəhəri, oktyabrın 9-da Hadrut qəsəbəsi, oktyabrın 17-də Füzuli şəhəri, oktyabrın 18-də Araz çayı üzərindəki tarixi Xudafərin körpüsü, oktyabrın 21-də Zəngilan şəhəri, oktyabrın 22-də Zəngilan rayonunun Ağbənd qəsəbəsi erməni işğalından azad edildi. Bundan dörd gün sonra Qubadlı şəhəri və nəhayət, noyabrın 8-də Şuşa şəhəri düşmən tapdağından təmizləndi. Bu zəfərlərin hər biri böyük sevinclə qələbə xəbərlərini gözləyən Azərbaycan xalqına şəxsən Ali Baş Komandan İlham Əliyev tərəfindən çatdırıldı.

**– Füzuli rayonunun, başlıcası isə Şuşa şəhərinin azad edilməsi üçün göstərilən məharət və döyüşkənlik isə xalqımızın hərb tarixində hər zaman böyük bir qürurla xatırlanacaq bir qeyrət və rəşadətdir.**

– Düşmənin 30 il ərzində yaratdığı mühəndis-istehkam qurğuları, çoxmərtəbəli müdafiə səddi, Şuşa şəhərinin təbii şəraiti erməni işğalçı qüvvələri üçün böyük döyüş imkanları yaratsa da, Azərbaycanın ordu bölmələrinin sürətli, gözlənilməz, fədakar hücumu onların bu üstünlüyünü heçə endirdi və bu bölmələr yalnız düşməni deyil, ən təcrübəli hərbçiləri belə heyrətə salacaq döyüş nümunələri göstərdilər.

Şuşa şəhərinin azad edilməsi üçün Azərbaycan Ordusunun göstərdiyi fədakarlığı Ali Baş Komandan İlham Əliyev belə qiymətləndirirdi: “Şuşanın işğaldan azad edilməsi bizim gücümüzü göstərdi, Ordumuzun peşəkarlığını, hərbçilərimizin cəsarətini, qəhrəmanlığını göstərdi. Şuşanın götürülməsi çox böyük peşəkarlıq, cəsarət tələb edən əməliyyat idi. Əminəm ki, bu əməliyyat dünya hərb tarixində xüsusi yer tutacaqdır. Çünki bu əməliyyatı yalnız yüngül silahlarla silahlanmış bizim qəhrəman hərbçilərimiz dağlardan, meşələrdən, cığırlardan keçərək icra ediblər. Şuşanın işğaldan azad edilməsi bizim şanlı Qələbəmizdir”.

Şuşa da daxil olmaqla döyüş meydanında əldə edilmiş bütün zəfərlərin başlıca qəhrəmanını isə dövlət başçısı İlham Əliyev Azərbaycan əsgəri və zabiti hesab edirdi: “Ancaq mən bunu artıq bir neçə dəfə demişəm, bu qələbəni qazanan bizim texniki vasitələr yox, əsgər və zabitlərimizdir. Onlar torpağımızı düşməndən qarış-qarış azad edə-edə bu Qələbəni, bu Zəfəri xalqımıza nəsib etdilər. Ona görə bu qələbənin birinci qəhrəmanı Azərbaycan əsgəridir, Azərbaycan zabitidir və hər kəs bunu bilməlidir”.

Azərbaycanın dövlət müstəqilliyinə sonsuz sədaqət, bu günün tələblərini də qarşılamağa imkan verən yüksək maddi-texniki təchizat, ən mürəkkəb hərbi tapşırıqların icrasını şərtləndirən peşəkarlıq müasir Azərbaycan Ordusunun mənzərəsini müəyyənləşdirən başlıca cəhətlərdir. Belə bir ordunu təmsil edən Azərbaycan hərbçilərinin malik olduqları peşəkarlığı qarşıya qoyulan vəzifələrin məzmunu ilə düzgün əlaqələndirmək, zaman və məkan amillərindən səmərəli istifadə etmək, müəyyən edilmiş tapşırıqlar əsasında əsas zərbə istiqamətini vaxtında və düzgün istiqamətləndirmək, sonra da həmin istiqamətdə hücum üstünlüyü yaratmaq, məqsədyönlü təmkin, qətiyyət və mübarizlik kimi zəruri amillər, bütünlükdə, müharibənin getdiyi dövrdə təşəbbüs dinamikasını əldə saxlamağa yol açdı.

Azərbaycan Ordusunun nəyə qadir olduğunu Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev də elə əks-hücum əməliyyatlarının davam etdiyi vaxt belə xarakterizə edirdi: “Ordu quruculuğu mənim fəaliyyətimdə həmişə birinci yerdədir. Hərbçilər də, Azərbaycan xalqı da bunu bilir. Həmişə demişəm ki, ordumuz üçün nə lazımdırsa, biz onu da edəcəyik. Biz güclü, iradəli ordu yaratmışıq. Bizim bütün silahlı birləşmələrimiz müasir standartlara cavab verir və döyüş tapşırığını şərəflə, vicdanla, cəsarətlə yerinə yetirir. Bu gün əks-hücum əməliyyatında bizim müxtəlif silahlı birləşmələrimiz iştirak edir və vahid komandanın rəhbərliyi altında əks-hücum əməliyyatı uğurla gedir. Bütün silahlı birləşmələr arasında koordinasiya tam şəkildə təmin edilib. Əminəm ki, bu əks-hücum əməliyyatının bundan sonra da uğurlu nəticələri olacaqdır”.

**– Azərbaycan Ordusu 44 günlük müharibə dövründə elə bir məharət göstərdi ki, dünyanın ən böyük dövlətlərinin, ən güclü ordularının nümayəndələri belə bu məharətdən irəli gələn təcrübənin öyrənilməsini gələcək müharibələrin aparılması üçün zəruri sayırlar.**

– Dünyanın müvafiq reytinq agentlliklərinin sorğusuna görə, müharibə ərəfəsində Azərbaycan Ordusu dünyanın 50 ən güclü ordusu sırasında yer tutmuşdu. Bu sorğu, əsasən, orduların malik olduğu fiziki ölçülərə görə aparılır. Məsələn, ordunun sayı, büdcəsi, texniki təchizatı, hərbi təhsil potensialı və buna oxşar digər məsələlər. Amma bu sorğu meyarlarına ordunun məharəti, taktiki təfəkkürü, mənəvi dəyərləri, döyüşkənliyi kimi meyarlar daxil deyildir.

Azərbaycan dövlətinin rəhbərliyi altında formalaşdırılmış milli ordumuz isə yeni nəsil hərbi texnikanın istifadəsinin xüsusi rol oynadığı müasir bir taktika nümayiş etdirdi. Azərbaycan təcrübəsində dünyada ilk dəfə pilotsuz uçan zərbə aparatlarının uzunmüddətli, geniş və uğurlu istifadəsi baş verdi. Bu isə dünya hərb taktikasına yeni bir istiqamət verdi və bütün dünyaya da göstərdi ki, müasir döyüş taktikasının yeni istiqaməti nədir. Həmin taktikanın öyrənilməsi, ümumiləşdirilməsi və onun hərbi təlimatlara, nizamnamələrə, dərsliklərə əlavə edilməsi isə Azərbaycan Ordusunun taktiki nəzəriyyələrin təkmilləşdirilməsinə gətirdiyi bir yenilikdir.

Bununla Azərbaycan Ordusu, əslində, müasir dünya döyüş taktikasının modelini müəyyənləşdirən bir ordu olduğunu ortaya qoydu. Başlıcası isə Azərbaycan Ordusu bu Vətən müharibəsində qabarıq şəkildə göstərdi ki, dövlət rəhbərliyinin və təmsilçisi olduğu xalqın ona bağlanılan ümid və inamı heç də əbəs deyildir. Azərbaycan Ordusu ölkəsinin müstəqilliyini etibarlı şəkildə müdafiə etməyə qadir olan bir ordudur və Azərbaycanın müstəqilliyinə qəsd etmək fikrinə düşən hər bir qüvvə də bilməlidir ki, öz qarşısında Azərbaycan Ordusunu görəcəkdir.

**– O günlərdə cəbhə bölgəsində, mərmi yağışı altında kimsə erməni vəhşiliyinə boyun əyib ev-eşiyini tərk etmədi, yersiz təşvişə və həyəcanlara yer vermədi. Əksinə, xalq öz təpəri ilə mübarizə meydanında, əsgərlərin yanında, dövlətin ətrafında olduğunu göstərdi. Erməni vəhşiliyinin qurbanı olan günahsız insanların faciəsi isə bütün xalqın faciəsinə çevrildi.**

– Bu birlik, ümumi əzmkarlıq, cəbhəyə bağlı olan həmrəylik Azərbaycan Ordusuna güc-qüvvət verdi, tarixi qələbəyə aparan yola işıq tutdu. Azərbaycan Respublikasının Prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı erməni işğalına qarşı aparılan müharibədə əldə edilmiş tarixi qələbəni bütün xalqın qələbəsi kimi qəbul edirdi və deyirdi: “Biz bir daha gücümüzü göstərdik, xalqımızın birliyini göstərdik. Göstərdik ki, heç bir qüvvə bizim qabağımızda dura bilməz, heç bir qüvvə bizi haqq yolumuzdan döndərə bilməz. İkinci Qarabağ müharibəsi tarixdə Azərbaycanın şanlı qələbəsi kimi qalacaq. Bu qələbənin qazanılmasında bütün xalqımız birlik, həmrəylik göstərmişdir”.

Prezident İlham Əliyevin səsləndirdiyi “Qarabağ Azərbaycandır” ifadəsi Azərbaycanın milli mübarizəsinin şüarına çevrildi. Bütün xalqı öz ətrafında birləşdirdi və sonda bu diyarın azad olunmasını təmin etdi. Bununla bağlı dövlət başçısı deyib: “Qarabağ Azərbaycandır və nida” ifadəsi artıq bizim qələbəmizin rəmzi idi, rəmzinə çevrildi. Bir il bundan əvvəl mən bunu demişəm. Mən fəxr edirəm ki, mənim dediyim ifadə artıq bir milli şüara çevrildi. Bu gün böyük qürur hissi ilə deyə bilərik ki, Füzuli bizimdir, Cəbrayıl bizimdir, Zəngilan bizimdir, Qubadlı bizimdir, Ağdam bizimdir, Laçın bizimdir, Kəlbəcər bizimdir, Şuşa bizimdir, Qarabağ bizimdir, Qarabağ Azərbaycandır”.

**– Müharibələr cəmiyyət həyatında qan-qadalarla, böyük qırğınlarla, ağır sınaqlarla müşayiət edilən ictimai-kütləvi bir prosesdir. Bu savaşlar insanlara sonsuz məşəqqətlər, saysız qurbanlar, arzuedilməz dağıntılar gətirsə də, xalqımız, nəhayət, bu addımı atmalı oldu.**

– Bunun təqsirkarı münaqişənin sülh yolu ilə həllini qəbul etməyən Ermənistan rəhbərlikləri, onların sülh prosesini gülünc oyuna çevirən himayədarları idilər. Xalqımız isə erməni hərbi təxribatlarına cavab verilməsi, işğal altında olan torpaqlara azadlıq nəfəsi gətirilməsi üçün Azərbaycanın dövlət rəhbərliyinin əks-hücum əməliyyatlarına start verməsini çox böyük məmnunluqla qarşıladı. 4 il əvvəl bu gün başlanan Vətən müharibəsində, xalqımız, bütünlüklə Azərbaycan dövlətinin, Azərbaycan Ordusunun yanında olduğunu nümayiş etdirdi.

Azərbaycan xalqı yaxşı bilirdi ki, hərbi seçimə əl atmadan 30 il müddətində onun qədim torpaqlarını işğal altına alaraq viranə günə salan, oxşar xislətli dünya qüvvələrinin ərköyün övladı olan erməni işğalçı-millətçi qüvvələrini haqq yoluna gətirmək mümkün olmayacaq.

Belə də oldu və haqqın, ədalətin bərpa edilməsi üçün Vətən müharibəsinin başlanması Azərbaycan xalqını birmənalı şəkildə dövlət ətrafında səfərbər etdi. Onun gücünə və mübarizliyinə dayaqlanan Azərbaycan dövləti və Azərbaycan Ordusu isə bu xalqın nəyə qadir olduğunu öz fəaliyyəti ilə ifadə etdi.

Ay yarım ərzində gözlərimiz qarşısında yazılan şərəfli tarixin başlıca qəhrəmanlarından biri də, sözsüz ki, Azərbaycan xalqıdır, düşmənə aman verməmək üçün özünü güllə qarşısına atmağa hazır olan Azərbaycan vətəndaşlarıdır, torpağının yad tapdağından azad olunması istəyi bütün qayğılarını üstələyən Azərbaycan övladlarıdır. Bu müharibənin gedişində xalqımız düşmən qarşısında vahid toplum olmağın, güclü bir yumruğa çevrilməyin yeni bir nümunəsini yaratdı.

Azərbaycan lideri İlham Əliyev bu müharibə dövründə yalnız ordunun deyil, həm də informasiya və diplomatiya sahəsində aparılan müharibənin baş komandanı idi. Bu müharibənin gizli qalan məqamları olsa da, bütün xalqın gözü qarşısında cərəyan edən səhnələri də mövcuddur. Haqqı ayaq altına alıb haqsızlığın müdafiəsinə qalxmış beynəlxalq media nəhənglərinə qarşı ölkə rəhbəri İlham Əliyevin təmkinli, tutarlı, əsaslandırılmış cavabları Azərbaycan Ordusunun cəbhədə əldə etdiyi uğurları tamamladı və Azərbaycan xalqına tarixi zəfər qazandırdı.

Nəticədə, ulu öndər Heydər Əliyevin də vəsiyyətlərinin həyata keçməsinin sevincini bütün xalqla bölüşən Prezident, Ali Baş Komandan İlham Əliyev Vətən müharibəsində əldə edilən böyük qələbənin memarına çevrildi. Elə bir qələbənin ki, zaman ötdükcə, onun qüruru yeni nəsillərin yurd sevgisini yüksəldəcək, bu yenilməz ruh isə sərhədlərimizin pozulmasına imkan verməyəcək.

Bu möcüzə 2023-cü il sentyabrın 19–20-də böyük uğurla həyata keçirilmiş lokal antiterror tədbirləri ilə daha da tamamlandı, Azərbaycanın suverenliyi tam bərpa edildi və bununla ölkəmiz tarixinin yeni dövrünə daxil oldu.

**– Əhatəli və maraqlı müsahibəyə görə sağ olun.**

***Söhbəti çapa hazırladı:***
***Tahir AYDINOĞLU***
***XQ***

# Oğullar can verdi – torpaq canlandı!



**Ermənistanın ölkəmizə qarşı davam edən hərbi təcavüzünə cavab olaraq, Azərbaycan Respublikası Silahlı Qüvvələrinin 2020-ci il sentyabrın 27-də işğal altındakı torpaqlarımızın azad edilməsi uğrunda Vətən müharibəsinə başlamasından 4 il keçir. Həmin 44 günlük Zəfər Yürüşündə – müqəddəs savaşda rəşadət göstərən əsgər və zabitlərimiz, arxa cəbhədə çalışan mülki insanlarımız, bütövlükdə xalqımız bir yumruq kimi birlik və həmrəylik nümayiş etdirərək, düşmənə sarsıdıcı zərbələr endiriblər.**

Amma ən böyük qələbələr də qurbansız olmur. Vətən müharibəsində Silahlı Qüvvələrimizin 3 minə qədər hərbi qulluqçusu canından keçib, 100 nəfərdən artıq döyüşçümüz itkin düşüb, 1000 nəfərdən artıq hərbi qulluqçumuz yaralanaraq sağlamlığını itirib. Sonucda işğal altında olan torpaqlarımız qəhrəman şəhidlərimizin, əsgər və zabitlərimizin, qazilərimizin qanı və canı bahasına azad edilib.

Azərbaycan hər zaman mübariz oğul və qızlarının şücaətini yüksək qiymətləndirir, bütün şəhidlərimizin ruhuna ehtiram göstərir, xatirəsini uca tutur. Vətən müharibəsində qəhrəmancasına döyüşmüş, Azərbaycan Bayrağını işğaldan azad edilən torpaqlarımızda dalğalandırmış, ölkəmizin ərazi bütövlüyü yolunda canlarını fəda etmiş əsgər və zabitlərimizə, bütün şəhidlərimizə dərin ehtiram əlaməti olaraq, Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin 2020-ci il 2 dekabr tarixli sərəncamı ilə hər il sentyabrın 27-si ölkəmizdə Anım Günü kimi qeyd edilir.

"Xalq qəzeti" vaxtaşırı şəhidlərə həsr olunmuş səhifələr – onların döyüş yolu və qəhrəmanlığından bəhs edən oçerklər, xatirə yazıları verir. Bu gün də ölməz soydaşlarımızın bir qrupundan söhbət açır, bütün şəhidlərimizin ruhunu ehtiramla yad edirik.

# Günnütdən Tuğa qələbə müjdəsi

**Prezident İlham Əliyevin 9 dekabr 2020-ci il tarixli sərəncamına əsasən, ölkəmizin ərazi bütövlüyünün bərpa edilməsində müstəsna xidmətlərinə və işğal edilmiş ərazilərin azad edilməsi zamanı göstərdiyi rəşadətə görə 83 nəfər soydaşımız (34-ü ölümündən sonra) "Vətən Müharibəsi Qəhrəmanı" medalı ilə təltif edilib. Onlardan biri də polkovnik-leytenant Anar Əliyevdir.**

"USTA" dərəcəli hərbi qulluqçu, Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun Xüsusi Təyinatlı Bölməsinin komandiri olan Anar Əliyev çoxsaylı təlimlərdə fərqlənsə də, düşmənlə ilk dəfə 2018-ci ilin may ayında Şərur rayonunun Günnüt kəndi uğrunda əks-hücum əməliyyatı zamanı birbaşa üz-üzə gəlib. İşğlaçı silahlı dəstələrini sarsıdan həmin döyüşlər gələcək Böyük Zəfərin ilk müjdələrindən olub.

Anar Əliyev Vətən müharibəsində 2020-ci il oktyabrın 11-dən başlayaraq, cəmi 10 gün iştirak edib. Zəngilan, Cəbrayıl, Füzuli və Xocavənddə əsl hünər göstərib. Oktyabrın 21-də Xocavənd rayonunun Tuğ kəndinə hücum onun və hərbi həkim olan dostu, leytenant Adil Əfəndiyevin son döyüşü olub. İgid komandirin rəhbərliyi ilə Tuğun alınması sayəsində Silahlı Qüvvələrimizin Şuşaya girişi asanlaşıb.

O, Qarabağı qarış-qarış tanıyırdı. 1980-ci ildə Kəlbəcərin Boyaqlı kəndində dünyaya göz açıb. Sonra valideynlərinin işi ilə əlaqədar olaraq ailəsi Ağdərə rayonunun Həsənqaya kəndinə köçüb. Xain qonşuların separatçı əməlləri üzündən araya düşən nifaqa görə Anargil oradan Tərtərin Bəyimsarov kəndinə pənah aparıblar.

Cəmşid Naxçıvanski adına Hərbi Liseyi, ardınca Bakı Ali Birləşmiş Kamandanlıq Məktəbini "Qoşun kəşfiyyatı" ixtisası ilə bitirən Anar Əliyev Silahlı Qüvvələrin Təlim Tədris Mərkəzində kursun dinləyicisi olub. 2012–2014-cü illərdə Hərbi Akademiyada təhsilini davam etdirib. Müdafiə Nazirliyinin əmri ilə Naxçıvan Muxtar Respublikasının Hərbi Komandanlığının sərəncamına göndərilən təcrübəli zabitə 1 il sonra müstəsna xidmətlərinə görə vaxtından əvvəl polkovnik-leytenant rütbəsi verilib. Qərargah rəisi, hərbi hissə komandirinin müavini kimi Vətənə şərəflə xidmət edib.

Günnütdən başlanan döyüş yolu bir-birinin ardınca işğaldan azad olunan Hadrut, Qaradağlı, Xatınbulaq, Məlikcanlı, Qırmızıqaya, Dağdöşü, Tağaser, Arış, Doşulu, Edişə, Düdükçü, Edilli, Cirəquz, Pirəhmədli, Cuvarlı kimi çoxsaylı kəndlərdə, strateji önəmi olan yüksəkliklərdə üçrəngli bayrağımızın ucaldılması ilə başa çatıb.



Oktyabrın 17-də Anar Əliyev "N" saylı hərbi hissənin komandiri təyin olunub. İgid komandir ertəsi gün Zəngilan şəhərinin düşməndən azad edilməsini Naxçıvan Əlahiddə Ümumqoşun Ordusunun bir qrup hərbi qulluqçusu ilə birlikdə Ali Baş Komandana məruzə edib.

Tuğ döyüşlərində müstəsna igidlik göstərən Anar Əliyev orada qəfildən qarşı tərəfin açdığı atəşlə qolundan və gözündən vurulub. Onu xilas etməyə gələn hərbi həkim dostu da ürəyindən güllə yarası alıb. Üstəlik, bir an sonra onların yanında düşmən qumbarası partlayıb. Beləcə, hər ikisi şəhid olub.

Qələbədən sonra "Vətən müharibəsi Qəhrəmanı" adına layiq görülən Anar Əliyevin döyüş yolu gənclər üçün əsl örnəkdir. Bu gün Milli Azərbaycan Tarixi Muzeyini ziyarət edənlər orada 16 medallı igid polkovnik-leytenantın şəxsi əşyaları, sənədləri və ona aid digər materiallara baxdıqca, haqqında yazılmış 160 səhifəlik "İgid ölər, adı qalar" kitabını vərəqlədikcə qürur hissi keçirirlər. Kəlbəcər rayonu 2 nömrəli tam orta məktəbinə və Tərtər şəhərindəki küçələdən birinə Anar Əliyevin adı verilib.

# Vətən müharibəsinin ilk qurbanı

**Qarabağ uğrunda haqq savaşının ilk günündə əbədiyyətə qovuşan ilk soydaşımız hərbi pilot, mayor Abbas Rza oğlu Qasımov olub. Aviasiya dəstəsində xidmət edən igid zabit hava məkanında dövlət sərhədlərimizin mühafizəsində hünər göstərib.**



Əslən Zəngibasardan olan Abbasın 2 yaşı olanda ailəsi oradan qaçqın düşüb. Daha 4 il sonra o, yurd həsrətinə dözə bilməyən atasını itirib. Bakının Binəqədi rayonundakı 157 nömrəli məktəbdə orta təhsil alıb. Nankor qonşuların ucbatından ata-baba yurdundan deportasiyaya uğramaları, didərginlik taleyi yaşamaları ilə barışmayan gənc hərbçi olmaq, millətin təəssübünü silahla çəkmək arzusuna düşüb. Elə bu niyyətlə də o vaxtkı Mulli Təhlükəsizlik Nazirliyinin H.Əliyev adına Akademiyasına daxil olub.

Akademiyada "İnzibati idarəetmə, sərhəd qoşunları komanda taktiki" ixtisasına yiyələnmiş gənc zabit Xudat sərhəd dəstəsində xidmətə başlayıb və daim öz bilik və bacarığının artmasına xüsusi fikir verib. Buna görə nümunə göstərilib, pillə-pillə irəli çəkilib. 2010-cu ildən xidmət yerini Aviasiya dəstəsinə dəyişən Abbas Qasımov orada da özünü bacarıqlı mütəxəssis kimi göstərə bilib. 10 il ərzində peşəkarlıq səviyyəsini xeyli yüksəldən səma şahini bir sıra döyüş tapşırıqlarını uğurla yerinə yetirib.

Sentyabrın 27-də 44 günlük Zəfər Yürüşü başlananda onun 44 yaşı vardı. Müharibənin ilk günündə idarə etdiyi təyyarə ilə düşmən hədəflərinə zərbə endirərkən vurulsa da, Abbas Qasımov döyüş tapşırığını sona qədər yerinə yetirib və baş leytenant Xalid Gözəlovla birlikdə şəhid olub. Abbas Qasımovun nəşi Bakıdakı II Şəhidlər Xiyabanında torpağa tapşırılıb. Qəhrəman zabitin şərəfli tərcümeyi-halına 3-cü dərəcəli "Vətənə xidmətə görə" ordeni, 2-ci və 3-cü dərəcəli "Qüsursuz xidmətə görə","Vətən uğrunda" və "Qubadlının azad olunmasına görə" medalları ilə təltif edilməsi qeyd olunub.

...Səmalarda vuruşan qəhrəmanımızın ruhu 2020-ci il sentyabrın 27-də həmişəlik olaraq göylərə uçsa da, onun silinməz izləri yerdə qalır – paytaxtımızın 6-cı mikrorayonundakı küçələrdən biri Abbas Qasımovun adını daşıyır.

# Vüsala səsləyən kompozisiya

**Vətən müharibəsi zamanı incəsənət xadimlərimiz, sənət adamlarımız da döyüşçülərimizi qələbəyə ruhlandırmaq üçün əllərindən gələni ediblər. Heydər Əliyev Fondunun dəstəyi ilə Bakı Media Mərkəzinin hazırladığı, Azərbaycanın mədəniyyət beşiyi Şuşaya həsr olunan kompozisiya buna misal ola bilər. "Mənim ürəyim Şuşa" adlanan həmin ecazkar musiqi parçası Zəfər Günü ərəfəsində təqdim olunub və hədsiz maraqla qarşılanıb.**



Dinləyicinin xəyalını Şuşaya qanadlandıran kompozisiyanın müəllifi Almaniyada yaşayan soydaşımız – məşhur skripkaçı və bəstəçi Anar Bramo-İbrahimovdur. Mahnının sözləri Çexiyada yaşayan azərbaycanlı xanım şair Leyla Beqimə məxsusdur.

***Canım Şuşam, Şuşam,***
***Həsrətlə baş-başam!***
***Ey qəlb yarası, ümid qalası***
***Şuşam!***
***Gözəldir tamaşan!***

Kompozisiyanı Azərbaycan, rus və ingilis dillərində müvafiq olaraq Əməkdar artist Sevda Ələkbərzadə, Orxan Cəlilov və hazırda ABŞ-da yaşayan istedadlı müğənnimiz Ülviyyə Salayeva səsləndiriblər. Dirijor Fuad İbrahimov, sənətçilər Kənan Bəşirli, Sahib Paşazadə, Anastasiya Avdeyeva, Nicat Məsimov, Naala Baratelia, "Lumineux" vokal-xor ansamblı və Bakı Kamera Orkestrindən ibarət yaradıcı kollektiv də kompozisiyanın ərsəyə gəlməsində iştirak ediblər. Mahnı məşhur musiqi platformalarında yayılıb.

# Şuşa döyüşünün şuşalı şəhidləri

**İkinci Qarabağ müharibəsi zamanı döyüşlərdə şuşalı olub, Şuşanı görməyən, ya da körpə ikən oradan çıxan oğullar da canlarından keçiblər. Onlar daim haqqında valideynlərindən eşitdikləri, kitablardan oxuduqları o ulu ucalıqlara can atıblar. Şuşanı almağa, onun yolunda can qurban etməyə müntəzir olublar.**




Zəfər yürüşü zamanı Şuşa hər bir əsgərin, hər bir yurddaşımızın qibləgahı idi. Prezident, Ali Baş Komandan İlham Əliyev hamının ürəyindən xəbər verən, inam yaradan bir ifadə işlətmişdi: "Şuşasız işimiz yarımçıq olar". Yəni Şuşa mütləq alınacaq. Elə də oldu, amma, təəssüf ki, hayqırıb Şuşaya doğru şığıyan şuşalı igidlərin 9-u o günü görmədi. Onlar Nurlan Həsənov, Əzəmi Hüseynov, İsrafil İbrahimov, Bəxtiyar Aslanov, Azər Əliyev, Dünyamin Tağızadə, Pərviz Məmmədov, Aallahverdi Allahverdiyev və Samir Ələkbərlidir.

Şuşa həsrəti ilə şəhadətə qovuşan leytenant Nurlan Nadir oğlu Həsənov 1991-ci il mayın 19-da Qarabağın baş tacı olan bu şəhərdə dünyaya göz açıb. Birinci Qarabağ müharibəsindən sonra ailəsi məcburi köçkün kimi Bakıda məskunlaşmışdı. Azərbaycan Texnologiya Universitetində ali təhsilini başa vurduqdan sonra Silahlı Qüvvələrin Naxçıvan şəhərində yerləşən "N" saylı hərbi hissəsində həqiqi hərbi xidmətdə olub. Ardınca müddətli leytenant kimi Gəncədə xidmət keçib və 2014-cü ildə ehtiyatda olan zabit kimi təxris edilib. Nəhayət, Nurlan da minlərlə cəsur oğullarımız kimi 2020-ci il sentyabrın 21-də könüllü olaraq təlimlərə qoşulub, sentyabrın 27-də Ermənistanın işğalı altında olan doğma ərazilərimizin azad edilməsi uğrunda başlanan Vətən müharibəsində iştirak edib. Füzuli və Cəbrayılda döyüşlərdə fəal iştirak edib.

Döyüşlər yenicə başlananda evə zəng edən Nurlan: "Ana, məndən narahat olmayın, burada hər şey yaxşıdır, Şuşanı almağa gəlmişəm" – deyibmiş. Amma oktyabrın 1-də o, Füzuli istiqamətində qəhrəmancasına şəhid olub. Azərbaycanın ərazi bütövlüyünün təmin edilməsi uğrunda döyüş əməliyyatlarında fərqləndiyi və hərbi hissə qarşısında qoyulmuş tapşırıqların icrası zamanı vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Azərbaycan Prezidenti İlham Əliyevin sərəncamına əsasən Nurlan Nadir oğlu Həsənov ölümündən sonra "Vətən uğrunda", "Cəsur döyüşçü", eləcə də Cəbrayılın, Xocavəndin və Füzulinin azad olunmasına görə medaları ilə təltif edilib.

...Əsgər Allahverdi Əli oğlu Allahverdiyev də əslən şuşalı idi. Bun şəhərin işğalının 9-cu ilində Bakıda doğulub. Vətən müharibəsi başlananda 19 yaşı yenicə tamam olmuşdu. Azərbaycan Ordusunun Quru Qoşunlarının sərrast baş atıcısı kimi işğalçılara qarşı döyüşlərdə iştirak edib. Allahverdi elə davanın ilk günü – sentyabrın 27-də Talış–Suqovuşan istiqamətində ilk döyüş tapşırığını yerinə yetirərkən şəhidlik zirvəsinə ucalıb.

Hərbçi kimi vəzifə borcunu şərəflə yerinə yetirdiyi üçün Allahverdi Allahverdiyev ölümündən sonra III dərəcəli "Vətənə xidmətə görə" ordeni, "Vətən uğrunda", "Suqovuşanın azad olunmasına görə", "Cəsur döyüşçü" müdallarına layiq görülüb.

Şuşada doğulub böyümüş şair-publisist Tahirə Məmmədova əslən bu diyardan olan şəhidlərdən 2-si – leytenant Nurlan Həsənov və əsgər Allahverdi Allahverdiyev haqqında sənədli filmin ssenari müəllifidir. Onun dedikləri: "Qəhrəmanlıq filmini yaratmaq bir şuşalı kimi mənim borcum idi. Belə igidlərlə həmişə fəxr etməliyik və edirik də. Mən qalan 7 şəhid haqqında da sənədli film hazırlayacağam ki, gələcək nəsillər Şuşanı görməyən, lakin onun uğrunda canından keçən bütün igid şuşalıları tanısınlar".

Filmdə doğmaları, müəllimləri, döyüş dostlarının Nurlan və Allahverdi ilə bağlı xatirələri kövrək hisslər yaradır. Hər kəs qürur keçirir ki, Vətən belə mərd igidlər yetirib və onlar Şuşanın xilası naminə canlarından keçiblər.

# Şair ürəkli komandir

**Səngərdə qısa istirahət saatlarında yazdığı şeirləri ilə döyüş dostlarını qələbəyə ruhlandıran baş leytenant Samir Təyyub oğlu Şükürov Lerik rayonunun Kəlvəz kəndində dünyaya gəlib. Həqiqi hərbi xidmətini başa vurduqdan sonra ali hərbi məktəbə daxil olub və 1 il təhsil alıb. Birinci Qarabağ müharibəsi başlananda döyüşlərə atılıb, ön cəbhədə şücaət və qəhrəmanlıqlar göstərib. Motoatıcı taqım komandiri vəzifəsində Hərbi vəzifələrini layiqincə yerinə yetirdiyinə görə leytenant, sonra da baş leytenant rütbələrinə layiq görülüb.**

1997-ci ildən ehtiyata buraxılan zabit Samir Şükürovun Vətən müharibəsi başlanan gün – 2020-ci il sentyabrın 27-də yuxusu ərşə çəkilir. Nəhayət, qisas zamanının gəlməsindən ruhlanaraq, Vətən müdafiəçilərinə xitabla "Əsgər" adlı belə bir şeir yazır:

*Yuxunu sən ərşə çəkmisən bütün,*
*Durmusan düşmənlə üz-üzə, əsgər!*
*Qələbə sevincin eşidək bu gün,*
*Zəfər xəbərini ver bizə, əsgər!*

*Daha geriyə də qalmayıb bir yol,*
*Bütün ümidimiz sənədir, əsgər!*
*İnləyən yurdların xilaskarı ol,*
*Səninlə zirvəyə ucalsın səngər!*

*Yeni müjdələrlə sevindir bizi,*
*Qoy görək səndəki hünəri, əzmi.*
*Tanrım zamin durub qorusun sizi,*
*Yağılar rədd olsun, daha yetməzmi?!*

*Az qalıb qələbə marşına, çox az,*
*Bizə bu anları sən yaşat, əsgər!*
*Dağlarda qış dönüb olsun güllü yaz,*
*Dərdi könlümüzdən sən boşalt, əsgər!*




Çox keçmədən Samir Şükürov qəti qərara gəlir ki, o da mütləq igid əsgərlərin yanında olmalıdır. Şair ürəkli keçmiş komandir elə bu niyyətlə də Lerik Rayon Hərbi Komissarlığına yollanaraq, istəyində təkid edir. Birtəhər qeydiyyatdan keçir və 44 yaşında ikən 44 günlük Zəfər Yürüşünə qatılır. Vətən müharibəsinin cəbhələrinə yollanır. Bir sıra yaşayış məntəqələrinin, strateji yüksəkliklərin alınmasında, düşmən postlarının ələ keçirilməsində fəal işirak edir. Noyabr ayının 9-da isə Şuşa şəhərinin azad olunması uğrunda gedən ağır döyüşlərdə şəhidlik zirvəsinə ucalır.

Qəhrəman komandirin nəşi noyabrın 10-da Bakı şəhərinə gətirilib və ailəsinin yaşadığı Xəzər rayonu Binə qəsəbəsindəki Şəhidlər Xiyabanında torpağa tapşırılıb. O, ölümündən sonra "Azərbaycan Bayrağı" ordeni, "Vətən uğrunda", "İgidliyə görə" və "Xocavəndin azad olunmasına görə" medalları ilə təltif edilib.

*Səhifəni hazırladı:*
***Əli NƏCƏFXANLI***
***XQ***




# “Yaşıl dünya” naminə həmrəylik



## Həmkarlar İttifaqları iqlim savaşına qoşulur

*Beynəlxalq əməkçi qurumlarının COP29-a dəstəyi*



**Bakıda Azərbaycan Həmkarlar İttifaqları Konfederasiyası (AHİK), Beynəlxalq Əmək Təşkilatı, Beynəlxalq Həmkarlar İttifaqları Konfederasiyası və Pan-Avropa Regional Şurasının birgə təşkilatçılığı ilə “İqlim dəyişmələri və ədalətli keçid: Həmkarlar ittifaqlarının rolu və fəaliyyətləri” mövzusunda beynəlxalq konfrans keçirilib.**

Məclisdə Azərbaycanın hökumət nümayəndələri, AHİK-in və üzv təşkilatların rəhbərliyi və əməkdaşları, beynəlxalq həmkarlar ittifaqları təşkilatlarının rəsmi şəxsləri, eləcə də Avropa, Asiya və Afrikanın müxtəlif ölkələrinin həmkarlar ittifaqlarının rəhbərləri və nümayəndələri, habelə ölkəmizin iqlim siyasəti üzrə ekspertləri, ekoloji fəallar, sahibkarlar və özəl sektorun nümayəndələri iştirak ediblər. Konfransın keçirilməsində əsas məqsəd həmkarlar ittifaqlarının iqlim dəyişmələri və ədalətli keçid proseslərindəki rolunun təşviqi, COP29 üçün prioritetlərinin müəyyənləşdirilməsi və müdafiəsi, dünyanın müxtəlif bölgələrində həmkarlar ittifaqlarının təcrübə mübadiləsi, həmçinin həmkarlar ittifaqları, hökumətlər və işəgötürənlər arasında əməkdaşlığın genişləndirilməsi olub.

Toplantı çərçivəsində iqlim danışıqlarında həmkarlar ittifaqlarının iştirakını gücləndirmək üçün fəaliyyət planları və strategiyaların hazırlanması istiqamətində interaktiv sessiyalar, müxtəlif tərəflər arasında əməkdaşlıqla bağlı görüşlər keçirilib. Ekologiya və təbii sərvətlər naziri, COP29-un müəyyən edilmiş prezidenti Muxtar Babayev ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə fəal olduğunu, qlobal problemlərin həlli, müstəmləkədən əziyyət çəkən ölkələrin, vətəndaşların hüquqlarının qorunması istiqamətində dəstəyini əsirgəmədiyini bildirib. Emissiya qazlarının miqdarının azaldılmasının Azərbaycanın 2030-cu il strategiyası üçün prioritet istiqamətlərdən biri olduğunu deyən nazir işğaldan azad edilmiş ərazilərin “yaşıl” enerji zonası elan edildiyini də diqqətə çatdırıb.

AHİK sədri Sahib Məmmədov çıxışında iqlim dəyişikliyi böhranının hazırda ciddi narahatlıq doğurduğunu, bu vəziyyətin təbii fəlakətlərin baş verməsində aydın nəzərə çarpdığını vurğulayıb. Ölkəmizin iqlim dəyişikliyi ilə mübarizədə beynəlxalq konvensiyalara qoşulduğunu xatırladan S.Məmmədov respublikamızın COP29-a ev sahibliyi kimi məsuliyyətli vəzifəni üzərinə götürdüyünü və bu mötəbər tədbirə ciddi hazırlaşdığı, həmçinin belə bir nüfuzlu konfransın iqlim dəyişikliyi ilə mübarizə işinə töhfə verəcəyindən əminliyini bildirib. S.Məmmədov daha sonra deyib: “Hazırda dünya üçün ən böyük çağırışlardan biri olan iqlim dəyişikliyi yalnız təbiətin korlanması deyil, bu, həm də həyatımızın hər sahəsinə təsir edən və dağıdıcı fəsadlar törədən bir hadisədir. Biz bunun qarşısını almasaq riskləri daha da artacaq. Az inkişaf etmiş ölkələr bu risklərə daha çox məruz qalacaq”.

İqtisadiyyat nazirinin birinci müavini Sahib Ələkbərov çıxışında Azərbaycanın iqlim dəyişikliyi ilə mübarizədə yeni çağırışlara adekvat reaksiya verən ölkələrdən biri olaraq “yaşıl” iqtisadiyyatın yaradılması istiqamətində genişmiqyaslı layihələr həyata keçirdiyini bildirib. Qaz emissiyalarının azaldılmasının hazırda mühüm əhəmiyyət kəsb etdiyini və iqlim dəyişikliyi ilə bağlı Paris sənədinin ölkəmizdə ratifikasiya edildiyini xatırladan S.Ələkbərov bildirib ki, Azərbaycan 2030-cu ilə qədər istixana qazlarının miqdarının 35 faiz azaldılmasını hədəfləyib. Eyni zamanda, işğaldan azad edilmiş Qarabağ və Şərqi Zəngəzurun 2050-ci ilədək “Netto sıfır emissiya” zonasına çevrilməsinin nəzərdə tutulduğunu xatırladıb.

Nazir müavini daha sonra həmin ərazilərdə bərpaolunan və “yaşıl” enerjinin əldə edilməsi istiqamətində müxtəlif layihələrin həyata keçirilməsindən, yeni “yaşıl” iqtisadiyyatın yaradılmasında görülən işlərdən də danışıb.

Konfransda regionda və dünyada baş verən təbii fəlakətlərin şahidi olduğunu diqqətə çatdıran Beynəlxalq Əmək Təşkilatının işçilərinin fəaliyyətləri üzrə bürosunun direktoru Maria Helena Andrena neft və qaz hasilatı, atom bombaları və digər iqlim dəyişikliyinə təsir edən amillərlə bağlı narahatlığını ifadə edib. O, iqlim dəyişikliyi ilə bağlı mübarizədə səfərbər olmağın əhəmiyyətini xatırladıb, həmkarlar ittifaqları təşkilatlarının COP29-a verəcəyi töhfə ilə bağlı fikirlərini bölüşüb, bu istiqamətdə müştərək layihələrdən, təcrübə mübadiləsindən danışıb.

Beynəlxalq Əmək Təşkilatının Şərqi Avropa və Mərkəzi Asiya ofisinin direktoru Mixail Puşkin beynəlxalq konfransdakı çıxışında iqlim dəyişikliyi ilə mübarizədə ədalətlilik prinsipinin qorunmasının zəruriliyini diqqətə çatdırıb, eyni zamanda, iqlim dəyişikliyi ilə bağlı hazırda baş verənlərin dayanıqlı inkişaf məqsədləri və Paris razılaşması üzrə geriləmələrin olduğunu göstərdiyini qeyd edib.

Beynəlxalq əməkdaşlığın və qlobal həmrəyliyin vacibliyini diqqətə çatdıran M. Puşkin milli öhdəliklərin yerinə yetirilməsində ölkələrin həmkarlar ittifaqlarının rolunu yüksək qiymətləndirib, iqlim dəyişikliyi ilə mübarizənin hər bir ölkənin, təşkilatın üzərinə məsuliyyət qoyduğunu xüsusi vurğulayıb.

## “Təmiz” enerjiyə keçid dialoqunun 3-cü mərhələsi



**Beynəlxalq Enerji Agentliyi (BEA) Nyu-York şəhərində COP29 Sədrliyi ilə əməkdaşlıq şəraitində “təmiz” enerjiyə keçid dialoqunun 3-cü mərhələsini həyata keçirib. Dialoqda BEA-nın hesabatının nəticələrinə xüsusi önəm verilib.**

Xatırladaq ki, həmin hesabatda COP28-də 200-ə yaxın ölkənin bərpaolunan enerji imkanlarını 3 dəfə və enerji səmərəliliyini 2 dəfə artırmaq barədə razılığa gəldiyi vurğulanıb. Bu hədəflər elektrik şəbəkəsinin modernləşdirilməsinə və enerji ehtiyatının əhəmiyyətli dərəcədə artırılmasına hesablanıb.

BEA bildirir ki, qarşıya qoyulan məqsədlərə nail olmaq beynəlxalq əməkdaşlıq və müvafiq milli siyasətin həyata keçirilməsini tələb edir. Məsələn, 2030-cu ilə qədər respublikamızda 25 milyon kilometr elektrik şəbəkəsi qurulmalı və təkmilləşdirilməli, enerji saxlama qabiliyyəti 1500 giqavata çatdırılmalı, o cümlədən bunun 1200 giqavatı batareyalardan verilməlidir.

Hesabata əsasən, əlverişli iqtisadiyyat, geniş istehsal potensialı və güclü siyasət sayəsində 2030-cu ilə qədər qlobal bərpaolunan enerji potensialının 3 dəfə artırılması mümkündür. BEA qeyd edir ki, bərpaolunan enerji və səmərəlilik üçün COP28 məqsədlərinə tam nail olmaq 2030-cu ilə qədər qlobal emissiyaları gözlənilənlə müqayisədə 10 milyard ton azaldacaq və dünyaya Paris sazişinin temperatur hədəflərinə çatmaq üzrə şans verməyə kömək edəcək.

Hesabat Nyu-Yorkda İqlim Həftəsinə təsadüf edən Birləşmiş Millətlər Təşkilatının Baş Assambleyası zamanı açıqlanıb. Həftə ərzində hökumət, sənaye və vətəndaş cəmiyyətinin liderləri enerji, iqlim və davamlı inkişaf məsələlərində daha geniş fəaliyyət imkanlarını müzakirə etmək üçün bir araya gəliblər.

## Azərbaycan İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirlərinin Koalisiyasına qoşuldu

**Azərbaycan Maliyyə Nazirliyi İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirlərinin Koalisiyasına tamhüquqlu üzv qəbul edilib.**

The Coalition of Finance Ministers for Climate Action

Xatırladaq ki, 92 ölkənin maliyyə nazirlərinin üzv olduğu İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirləri Koalisiyası 26 beynəlxalq təşkilatla institusional tərəfdaşlıq edir. Həmin qurumlar maliyyə nazirlərinin iqlim dəyişikliyi ilə bağlı siyasətlərin işlənib hazırlanması və həyata keçirilməsində səylərini dəstəkləməkdə əsas texniki və məsləhətçi rolunu oynayırlar.

Azərbaycanın Maliyyə Nazirliyi cari ilin aprel ayında Beynəlxalq Valyuta Fondu və Dünya Bankı Qrupunun Vaşinqton şəhərində keçirilən yaz toplantıları çərçivəsində İqlim Fəaliyyəti üzrə Maliyyə Nazirlərinin Koalisiyasının 11-ci iclasında müşahidəçi statusunda iştirak edib. Azərbaycan Respublikasının COP ilə fəaliyyət istiqamətləri əksər hallarda üst-üstə düşən sözügedən koalisiyada tamhüquqlu üzv kimi təmsil olunması isə ölkəmizin COP29 sədrliyinin hədəflədiyi nəticələrin əldə edilməsinə mühüm töhfə verəcək.

Yeri gəlmişkən, koalisiya üzvlərinin növbəti görüşü 2024-cü ilin oktyabr ayında Vaşinqtonda BVF və Dünya Bankı Qrupunun İllik Toplantıları çərçivəsində keçiriləcək. Noyabr ayında Azərbaycanın ev sahibliyi edəcəyi COP29 konfransının “Maliyyə günü” çərçivəsində koalisiyanın xüsusi iclasının keçirilməsi barədə də ilkin razılıq əldə olunub.

## Qlobal ekoloji hədəflərin milli yönləri

**COP29-un müəyyən olunmuş prezidenti, ekologiya və təbii sərvətlər naziri Muxtar Babayev BMT Baş Assambleyasının 79-cu sessiyasında Yüksək Səviyyəli Həftəsi çərçivəsində keçirilən “Qlobal Bərpa Olunan Enerji Sammiti”ndəki çıxışında Azərbaycanın COP29 fəaliyyət gündəliyində “yaşıl” enerjiyə böyük diqqət yetirildiyini və bununla bağlı bir sıra layihələr hazırlandığını bildirib. Nazir açıqlamasında vurğulayıb: “COP28-də bir sıra məsələlərin həlli istiqamətində razılıq əldə edildi. Bu, COP29 üçün möhkəm zəmin yaratdı. Eyni zamanda, enerji keçidlərinə dair çətinliklərin ədalətli və nizamlı şəkildə aradan qaldırılmasını şərtləndirdi və dövlətləri gələcəyin bərpa olunan enerji sistemlərini yaratmaq üçün birlikdə işləmətə sövq etdi”.**



Muxtar Babayev COP29 çərçivəsində bərpaolunan enerjiyə keçidlə bağlı ölkəmizin irəli sürdüyü təşəbbüslər barədə də fikirlərini bildirib: “Azərbaycanın təşəbbüskar olduğu Qlobal Enerji Anbarları və Şəbəkələri Öhdəliyi çərçivəsində əsas məqsədi qlobal enerjinin saxlanılması potensialını 2022-ci illə müqayisədə 6 dəfə artıraraq 2030-cu ilə qədər 1500 giqavata çatdırmaqdır. Öhdəlik götürən tərəflər enerji şəbəkələrini təkmilləşdirmək məqsədi ilə görülən qlobal səylər çərçivəsində 2040-cı ilə kimi 80 milyon kilometrdən çox enerji şəbəkəsini ümumi şəbəkə sisteminə əlavə etmək üçün bu sahəyə investisiya axınını artıracaq”.

COP29-un müəyyən olunmuş prezidentinin sözlərinə görə, Azərbaycanın təşəbbüskarı olduğu COP29-un Yaşıl Enerji üzrə Zona və Dəhlizlər Öhdəliyində investisiyaların təşviqi, iqtisadi artımın stimullaşdırılması, infrastrukturun inkişafı, modernləşdirilməsi və genişləndirilməsi, eləcə də regional əməkdaşlığın təşviqi ilə bağlı hədəflər olacaq.

M.Babayev beynəlxalq enerji agentlikləri və qlobal tərəfdaşlara səslənərək COP29-un qlobal hədəflərini milli fəaliyyət planlarına çevirmək üçün kritik məqam olduğunu qeyd edib.

## 36 illik “yaşıl” marafon ölkəmizə 44 milyard dollara başa gələcək

**Dünya Bankının Azərbaycan üzrə meneceri Stefanie Stalmeister mediaya açıqlamasında respublikamızda “yaşıl” iqtisadiyyatın şaxələndirilməsi məqsədilə kritik infrastruktur yatırımlarının davam etdirilməsinin zəruriliyini bildirib. O, 2060-cı ilə kimi dekarbonizasiya məqsədilə respublika iqtisadiyyatının müxtəlif sahələrinə, ümumilikdə, 44,1 milyard dollar investisiya yatırılmasının vacibliyini qeyd edib.**



Menecer daha sonra deyib ki, elektrik enerjisi sahəsində investisiya boşluğu 13,8 milyard dollar, nəqliyyat sahəsində 4,4 milyard dollar, sənaye və digər sahələrdə 8,3 milyard dollar təşkil edir. Su effektivliyi sahəsində 17,6 milyard dollar, “ağıllı” kənd təsərrüfatı sahəsinə 1,8 milyard dollar investisiya tələb olunur. Ümumi davamlılıq üzrə isə 19,4 milyard dollar yatırıma ehtiyac duyulur.

S.Stalmeister əlavə edib ki, Azərbaycan müəyyənləşdirilən məsələlərin həllinə nail ola bilər. Amma bunun üçün, ilk növbədə, iqlim dəyişikliklərinin doğurduğu çətinlikləri diqqətdə saxlamaqla iqtisadiyyatın inkişafı daha da sürətləndirməlidir.

## Sağlam həyat layihələri çoxalır

**Bu günə qədər Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi 1806 layihəyə maliyyə dəstəyi göstərib ki, bunun da 1582-si kiçik qrant müsabiqəsi çərçivəsində gerçəkləşib. Bunu agentliyin icraçı direktoru Aygün Əliyeva İqtisadiyyat Nazirliyi yanında Dövlət Vergi Xidmətinin təşkilatçılığı ilə Bakıda keçirilən karbon qiymətləndirilməsi üzrə beynəlxalq konfransda bildirib.**



Həmin layihələrin 405-nin sağlam həyat tərzi və təmiz ətraf mühit mövzusunda olduğunu bildirən icraçı direktorun sözlərinə görə, təkcə cari ilin ötən dövründə agentlik bu mövzuda 194 QHT layihəsinə maliyyə dəstəyi göstərib. Bütün layihələrin qəbulu isə elektron xidmət üzərindən həyata keçirilir.

A.Əliyeva deyib ki, rəhbərlik etdiyi qurum fəaliyyət göstərdiyi 3 il ərzində müxtəlif tədbirlər, inkişaf və mübadilə proqramları həyata keçirib. “Ümumilikdə, 5 mindən çox QHT nümayəndəsi bu tədbirlərdə iştirak edib. Bizim üçün beynəlxalq təcrübənin öyrənilməsi vacibdir və bu istiqamətdə agentlik maraqlı tərəflərə hər zaman dəstək verməyə hazırdır”– deyə o, əlavə edib.

Azərbaycan Respublikasının Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Agentliyi

*Səhifəni hazırladılar:*
*Vaqif BAYRAMOV,*
*Mirbağır YAQUBZADƏ*
*XQ*

# IDEA-nın paytaxtda növbəti ekoloji aksiyaları



**“Yaşıl dünya naminə həmrəylik ili” çərçivəsində dünən Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və digər ailə üzvlərinin iştirakı ilə paytaxt Bakının Nizami rayonunun Mikayıl Əliyev və Kamil Balakişiyev küçələrinin kəsişməsində yerləşən ərazidə növbəti ağacəkmə aksiyası keçirilib.**



IDEA könüllülərinin də iştirak etdikləri budəfəki ağacəkmə aksiyası vaxtilə tikinti materialları və məişət tullantıları ilə mütəmadi olaraq çirkləndirilmiş ərazidə təşkil olunub. Aksiya zamanı 230 Eldar şamı tingi əkilib. Ərazidə abadlıq işləri aparılıb, damcısuvarma sistemi qurulub. Baxımsız qalan 2 hektarlıq sahə bir neçə ay əvvəl IDEA İctimai Birliyinin təşəbbüsü və könüllülərin fəal iştirakı ilə tullantılardan təmizlənib, rekultivasiya işləri görülüb. Aprelin 16-da Leyla Əliyevanın iştirakı ilə ərazinin bir hissəsində ilk ağaclar əkilib.

IDEA İctimai Birliyi belə ekoloji aksiyalarla ətraf mühitin mühafizəsinin vacibliyini göstərir, insanları ekoloji problemlərə qarşı mübarizədə birgə fəaliyyətə səsləyir.

*

**Həmin gün paytaxtın Yeni Yasamal-1 yaşayış massivində yerləşən çoxmərtəbəli binalarda 1500-dən çox sakinin yaşadığı həyət abadlaşdırılaraq sakinlərin istifadəsinə verilib.**

Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyeva, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və ailə üzvləri IDEA könüllüləri ilə birlikdə məhəllədə kütləvi ağacəkmə aksiyasında iştirak ediblər. Həyətin azyaşlı sakinlərinə hədiyyələr təqdim olunub.

“Bizim həyət” layihəsi çərçivəsində abadlaşdırılmış növbəti həyətdə də sağlamlıq imkanları məhdud insanların rahat hərəkəti nəzərə alınıb. Ərazidə süni örtüklü futbol stadionu, şahmat meydançası, müxtəlif idman qurğuları, uşaqlar üçün oyun sahəsi salınıb, söhbətgahlar, çoxsaylı oturacaqlar, quş yuvaları və pişik evləri quraşdırılıb. Həyətdə yeni işıqlandırma dirəkləri, müşahidə kameraları quraşdırılıb. Binaların fasad və dəhlizləri təmir olunub, asfalt və dam örtüyü, elektrik xətləri yenilənib. Ətrafda yaşıllıq zolağı salınıb, “yaşıl sədlər” yaradılıb.

*



**Heydər Əliyev Fondunun vitse-prezidenti, IDEA İctimai Birliyinin təsisçisi və rəhbəri Leyla Əliyevanın, Bakı Media Mərkəzinin rəhbəri Arzu Əliyeva və digər ailə üzvlərinin, eləcə də IDEA könüllülərinin iştirakı ilə çimərlik mövsümünün bitməsi ilə əlaqədar dünən sahilyanı təmizlik aksiyası da keçirilib.**

COP29 çərçivəsində Bilgəhdə ictimai çimərlik ərazisində təşkil edilən iməcilik zamanı toplanan 2 tona yaxın tullantı “Təmiz Şəhər” ASC-nin Balaxanı bərk məişət tullantılarının çeşidlənməsi zavoduna təhvil verilib.

“Sahillər təmiz qalsın!” şüarı altında keçirilən aksiyanın məqsədi dəniz sahillərində təmizliyə riayət olunmasını təbliğ etmək, sahilyanı ərazilərin məişət tullantıları ilə zibillənməsinin qarşısını almaq və insanları dənizətrafı mühitin mühafizəsi uğrunda səylərə cəlb etməkdir.

***XQ***



# Bakıda Çinin milli bayramı münasibətilə rəsmi qəbul



**Sentyabrın 26-da Çinin Azərbaycandakı səfirliyi Çin Xalq Respublikasının yaradılmasının 75-ci ildönümü münasibətilə rəsmi qəbul təşkil edib.**

Mərasimdə Çinin Azərbaycandakı müvəqqəti işlər vəkili Din Tao ölkəsinin 75 ildə keçdiyi inkişaf yolundan danışıb, ölkələrimiz arasında münasibətlərin yüksək səviyyəyə çatdığını söyləyib: “Sədr Si Cinpinin qeyd etdiyi kimi, Çin–Azərbaycan strateji tərəfdaşlığının yaradılması yeni mövqe və yeni başlanğıc nöqtəsidir. Hər iki ölkə liderinin əldə etdiyi konsensusun tam şəkildə həyata keçirilməsi üçün Çin Azərbaycanla işləməyə hazırdır. Bu yeni başlanğıc nöqtəsində əlaqələrimizi daha yetkin və əsaslı mərhələyə yüksəldək və həm ölkələrimizə, həm də xalqlarımıza daha çox fayda gətirək”.

Azərbaycan Respublikası Baş nazirinin müavini Şahin Mustafayev ticarət-iqtisadi əməkdaşlığın inkişafında Azərbaycan–Çin Hökumətlərarası Komissiyasının mühüm rolunu xüsusilə qeyd edib: “2023-cü ilin noyabrında komissiyanın doqquzuncu iclası Çində keçirildi. Görüşün yekunlarına dair imzalanmış Protokolun icrası ticarət, investisiya, enerji, nəqliyyat, qida təhlükəsizliyi və turizm sahələrində əməkdaşlığımızın inkişafına töhfə verir”.

Baş nazirin müavini qeyd edib ki, Azərbaycan və Çin arasında iqtisadi əlaqələrin dinamikasına təsir edən mühüm amillərdən biri də enerji sahəsində səmərəli əməkdaşlıqdır: “ Hazırda alternativ və bərpaolunan enerji mənbələri sahəsi ölkələrimiz arasında əməkdaşlığın perspektivli sahələrindən biridir. Ölkəmizin bu ilin noyabrında COP29 konfransına evsahibliyi edəcəyini nəzərə alaraq, Çindən rəsmi nümayəndə heyətinin iştirakını alqışlayır və Çinin iqlim dəyişikliyi ilə mübarizə sahəsində qabaqcıl təcrübəsini bölüşməkdə maraqlıyıq.

Tədbir bədii hissə ilə davam edib.

***XQ***

# İslamabadda Azərbaycan şəhidlərinin xatirəsi anılıb



**Azərbaycanın müstəqilliyi, suverenliyi və ərazi bütövlüyü uğrunda gedən döyüşlərdə canlarından keçmiş şəhidlərimizə dərin ehtiramın ifadəsi olaraq, ölkəmizin Pakistandakı səfirliyinin təşəbbüsü ilə Müasir Dillər Universitetində konfrans keçirilib.**

Azərbaycan Dil və Mədəniyyət Mərkəzində təşkil olunan tədbirdə universitetin müəllim-tələbə heyəti, bu ölkənin beyin mərkəzlərinin nümayəndələri, səfirlik əməkdaşları, eləcə də media mənsubları iştirak ediblər.

Əvvəlcə şəhidlərimizin əziz xatirəsi bir dəqiqəlik sükutla yad olunub, Azərbaycanın və Pakistanın dövlət himnləri səsləndirilib və Anım günü ilə bağlı videoçarx nümayiş etdirilib.

Tədbirdə çıxış edən ölkəmizin Pakistandakı səfiri Xəzər Fərhadov bildirib ki, Ermənistan tərəfindən Azərbaycan ərazilərinin 30 ilə yaxın davam edən işğalına dövlət başçımız, Ali Baş Komandan İlham Əliyevin rəhbərliyi ilə müzəffər ordumuzun qəhrəmanlığı nəticəsində son qoyulub. O, BMT Təhlükəsizlik Şurası tərəfindən Ermənistan silahlı qüvvələrinin Azərbaycanın işğal edilmiş ərazilərindən tam, dərhal və qeyd-şərtsiz çıxarılmasını tələb edən 4 qətnamə qəbul olunduğunu diqqətə çatdırıb. Lakin həmin qətnamələrin Ermənistan tərəfindən icra olunmadığını xatırladan səfir bildirib ki, beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq Azərbaycan BMT Təhlükəsizlik Şurasının qətnamələrini özü icra edib. Beləliklə, Azərbaycan 44 gün davam edən Vətən müharibəsində nəinki öz ərazi bütövlüyünü bərpa etməyə nail olub, həm də bütün regionda yeni siyasi reallıqlar yaradıb. Diplomat, həmçinin işğaldan azad edilmiş ərazilərdə aparılan bərpa və yenidənqurma işləri regiona yeni nəfəs gətirdiyini də diqqətə çatdırıb.

Daha sonra universitetin icraçı direktoru Şahzad Munirin və xarici dillər fakültəsinin dekanı professor Cəmil Əsgər Caminin çıxışları dinlənilib. Qeyd olunub ki, Azərbaycanın müzəffər Ordusunun Zəfər yürüşü, düşmənin sonadək bütün ərazilərdən qovulması, işğala son qoyulması, uzun illər düyünə düşmüş və region üçün təhlükə mənbəyi olan münaqişənin uğurla və ədalətlə həll edilməsi bölgədə davamlı sülhə və təhlükəsizliyə əvəzsiz töhfə verəcək.

***Qulu KƏNGƏRLİ,***
***XQ-nin xüsusi müxbiri***

**İslamabad**

# “Böyük Qayıdış”ın mübarək, doğma Cəbrayılımız!

**Vətən müharibəsində qazandığımız möhtəşəm Qələbədən dərhal sonra işğaldan azad edilmiş torpaqlarımızda başlanan bərpa-quruculuq işləri getdikcə daha geniş vüsət almaqdadır. Prezident İlham Əliyevin rəhbərliyi və birbaşa nəzarəti altında həyata keçirilən irimiqyaslı layihələr Qarabağ və Şərqi Zəngəzur iqtisadi rayonlarının sürətlə dirçəlməsinə, əhalinin dayanıqlı məskunlaşmasına xidmət edir, habelə həmin ərazilərin yüksək inkişaf etmiş regiona çevrilməsi üçün etibarlı bünövrə yaradır.**

Qürurvericidir ki, 30 ildən artıq Vətən həsrəti ilə yaşamış keçmiş məcburi köçkünlərin köç karvanları bir-birinin ardınca əzəli və əbədi torpaqlarımıza istiqamət götürür. Sentyabrın 26-da 44 günlük zəfər dastanımızın 4-cü ildönümü ərəfəsində həsrətin bitdiyi ünvanlar sırasına Cəbrayıl da qoşuldu, işğaldan azad edilmiş ərazilərə Böyük Qayıdışa dair I Dövlət Proqramı çərçivəsində yenidən qurulan şəhər ilk sakinlərini qarşıladı. Bununla da 36 ailədən ibarət 117 nəfərin ən ülvi arzuları reallığa çevrildi. Xalqımız bayram əhval-ruhiyyəsi yaradan yeni qayıdış müjdəsinə sevindi.

**“Xalq qəzeti” olaraq biz də bu sevincə qoşulub öz doğma yurduna qayıdan Cəbrayıl sakinlərinin bir neçəsinin təəssüratlarını öyrəndik. Məcburi köçkün kimi 31 il Xırdalan şəhərində müvəqqəti məskunlaşmış Ramazan Hüseynov bildirdi ki, bu xoşbəxt günün gələcəyinə inamımızı bir an belə itirməmişdik:**

– Yenidən qurulan, gözəl, müasir Cəbrayıl şəhərinin ilk sakinlərindən biri olduğum üçün qürur duyuram. Yaşadığımız həsrət dolu acı günlər geridə qaldı. Bundan sonra doğma Cəbrayılımda yeni, ikiotaqlı mənzilimdə yaşayacağam. Bu gün sanki təbiət də yolumuza uğur diləyirdi. Yağış yağır, buludlardan nur tökülürdü. Bütün yol boyu dualar edərək Allahdan şəhidlərimizə rəhmət diləmişəm. Ulu Tanrı möhtərəm Prezidentimizə cansağlığı, uzun ömür versin, ordumuzu qorusun! Bir də dua etmişəm ki, Allah xalqımızın birliyini heç zaman pozmasın. Çünki bütün böyük qələbələrimizi xalqımızın öz Müzəffər Ali Baş Komandanının ətrafında yumruq kimi birləşməsi sayəsində qazanmışıq.

**35 yaşında məcburi köçkün düşdüyü doğma Cəbrayılına qızı və nəvəsi ilə qayıdan Nazilə Əliyeva sevincini sözlə ifadə etməkdə çətinlik çəkdiyini bildirdi:**

– Elə bilirəm ki, şirin bir yuxudayam. Bakıdakı Binə qəsəbəsində yataqxanada məskunlaşmışdıq. Bu gündən daha məcburi köçkün deyiləm. Allah dövlətimizin bayrağını daim uca etsin, üçotaqlı mənzillə təmin edildik. Yeni mənzilimizə baxdıq, çox xoşumuza gəldi. Şəhərimiz əvvəlkindən də gözəl olacaq. Xoşbəxtəm ki, ömrümün qalan günlərini Cəbrayılda, ata-baba yurdumda yaşayacağam. Bütün cəbrayıllıların, o cümlədən xalqımızın gözü aydın olsun! Bizim üçün bundan gözəl gün ola bilməz. Allah bu sevinci yaşamağı keçmiş məcburi köçkünlərin hamısına qismət etsin!

**Cəbrayıl şəhərinin ilk sakini olmağın qürurunu yaşayanlardan biri də Fazil Bəhrəmovdur. Birinci Qarabağ müharibəsinin iştirakçısı olan F.Bəhrəmov bildirdi ki, bu qayıdış onun həyatının 3-cü mərhələsidir:**

– Ömrümün yarısını Cəbrayılda, digər yarısını isə məcburi köçkün kimi Xırdalan şəhərində yaşamışam. İndi yenə doğma şəhərimə qayıdıram. Özü də daimi yaşamaq üçün. Sanki yenidən doğulmuşam. Arzu edirəm ki, keçmiş məcburi köçkünlərin hamısı bir nəfər kimi öz ata-baba yurdlarına qayıtsın. Burada yaşayaq, işləyək, yenidən qurub-yaradaq. Çünki bu torpaqlar şəhidlərimizin qanı bahasına azad edilib, hər qarışı şəhid qanı ilə suvarılıb. Şəhid qanı ilə yoğrulmuş torpaq isə adi torpaq deyil, müqəddəs Vətəndir. Allah şəhidlərimizə rəhmət eləsin, qazilərimizə şəfa versin, ordumuzu var etsin!





Doğma sakinlərinin Cəbrayıla qayıdışı təkcə onların deyil, hamımızın sevinci, fərəhidir. Bugünlər şanlı Zəfər tariximizin növbəti qızıl hərflərlə yazılmış səhifələrinə çevriləcək.

“Böyük Qayıdış”ın mübarək, yenidən qurulmuş gözəl Cəbrayıl!

Gözün aydın, Vətən!

***Mahir RƏSULOĞLU,***
***XQ-nin Qarabağ müxbiri***

# Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

# QƏRAR

## № 3-27/3-7-16/2024

**Bakı şəhəri** **12 sentyabr 2024-cü il**

**“Uçuş əməliyyatlarına hazırlıq Qaydası”nın təsdiq edilməsi haqqında**

“Aviasiya haqqında” Azərbaycan Respublikasının 2023-cü il 22 dekabr tarixli 1058-VIQ nömrəli Qanununun tətbiqi barədə” Azərbaycan Respublikası Prezidentinin 2024-cü il 15 fevral tarixli 1 nömrəli Fərmanının 8.1.5-ci yarımbəndinin icrasını təmin etmək məqsədilə Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 12 yanvar tarixli 1785 nömrəli Fərmanı ilə təsdiq edilmiş “Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi haqqında Əsasnamə”nin 5.11-ci bəndini rəhbər tutaraq, Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyası

**qərara alır:**

1. “Uçuş əməliyyatlarına hazırlıq Qaydası” təsdiq edilsin (əlavə olunur).

2. Hüquq şöbəsi bu Qərarın qəbul edildiyi gündən 3 gün müddətində Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinə daxil edilməsi üçün Azərbaycan Respublikasının Ədliyyə Nazirliyinə təqdim olunmasını təmin etsin.

3. Bu Qərar Azərbaycan Respublikasının Hüquqi Aktların Dövlət Reyestrinin elektron variantında dərc edildiyi gündən qüvvəyə minir.

**Kollegiyanın sədri,**
**rəqəmsal inkişaf və nəqliyyat naziri** **Rəşad Nəbiyev**

**Azərbaycan Respublikası Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyinin Kollegiyasının 2024-cü il 12 sentyabr tarixli 3-27/3-7-16/2024 nömrəli Qərarı ilə təsdiq edilmişdir.**

**Uçuş əməliyyatlarına hazırlıq**
**QAYDASI**

1. Ümumi müddəalar

1.1. “Uçuş əməliyyatlarına hazırlıq Qaydası” (bundan sonra – Qayda) “Aviasiya haqqında” Azərbaycan Respublikası Qanununun 38-ci maddəsinə, “Beynəlxalq Mülki Aviasiya haqqında” 1944-cü il 7 dekabr tarixli Konvensiyanın (bundan sonra - Konvensiya) 6 nömrəli Əlavəsinin I hissəsinə uyğun olaraq hazırlanmışdır və beynəlxalq, habelə ölkədaxili kommersiya hava daşımalarının həyata keçirilməsində istifadə edilən mülki hava gəmilərinin uçuş əməliyyatlarına hazırlığının təmin olunmasına dair qaydaları müəyyən edir.

1.2. Bu Qayda ilə tənzimlənməyən müddəalar Konvensiyanın 6 nömrəli Əlavəsinin

I hissəsinin tələblərinə uyğun həyata keçirilir.

**2. Əsas anlayışlar**

2.1. Bu Qaydada istifadə olunan əsas anlayışlar aşağıdakı mənaları ifadə edir:

2.1.1. aerodrom əməliyyat minimumu – hava gəmisinin uçuş-enmə zolağına enə və ya qalxa biləcəyini müəyyən etmək üçün aerodromdan aşağıdakı istifadə hədləri:

2.1.1.1. uçuş-enmə zolağının vizual diapazonu və (və ya) görünmə qabiliyyəti ilə ifadə edilən qalxma;

2.1.1.2. uçuş-enmə zolağının vizual diapazonunu və (və ya) görünmə qabiliyyətini, habelə minimum enmə yüksəkliyini/hündürlüyünü (MDA/H) ifadə edən 2D alətlə yaxınlaşma əməliyyatlarında eniş;

2.1.1.3. uçuş-enmə zolağının vizual diapazonunu və (və ya) görünmə qabiliyyətini, habelə minimum enmə yüksəkliyini/hündürlüyünü (MDA/H) ifadə edən 3D alətlə yaxınlaşma əməliyyatlarında eniş.

2.1.2. əməliyyat uçuş planı – hava gəmisinin istismar vəziyyəti, uçuşla bağlı məhdudiyyətlər, habelə uçuş marşrutlarında və uçuş həyata keçirilən aerodromlarda gözlənilən şərait (situasiya) nəzərə alınaraq, uçuş əməliyyatlarının təhlükəsiz şəkildə həyata keçirilməsi məqsədilə tərtib edilən plan;

2.1.3. texniki xidmət buraxılışı – hava gəmisinə texniki xidmətin uçuşa yararlılıq tələblərinə uyğun olaraq göstərildiyini təsdiq edən sənəd.

2.2. Bu Qaydada istifadə olunan digər anlayışlar “Aviasiya haqqında” Azərbaycan Respublikasının Qanunu və Konvensiyanın 6 nömrəli Əlavəsinin I hissəsi ilə müəyyən edilmiş mənaları ifadə edir.

**3. Uçuşa hazırlıq**

3.1. Hava gəmisinin kapitanı (komanda verən pilotu) aşağıdakıları təsdiqləyən uçuşa hazırlıq blanklarını doldurduqdan sonra uçuşa başlayır:

3.1.1. hava gəmisi uçuşa yararlıdır və müvafiq sertifikatlar (uçuşa yararlılıq və qeydiyyat sertifikatları) hava gəmisinin bortundadır;

3.1.2. uçuş əməliyyatlarının təhlükəsiz yerinə yetirilməsi üçün nəzərdə tutulmuş alətlər və avadanlıqlar quraşdırılmışdır və uçuş üçün kifayət edir;

3.1.3. hava gəmisinə Konvensiyanın 6 nömrəli Əlavəsinin I hissəsinin 8.8-ci bəndinə uyğun texniki xidmət buraxılışı verilmişdir;

3.1.4. hava gəmisinin kütləsi və ağırlıq mərkəzinin yeri gözlənilən uçuş şəraiti nəzərə alınmaqla, uçuşu təhlükəsiz həyata keçirməyə imkan verir;

3.1.5. hava gəmisinin bortunda daşınacaq yüklər düzgün şəkildə paylanılmış, sərnişinlər düzgün şəkildə yerləşdirilmiş və təhlükəsizliyi təmin edilmişdir;

3.1.6. uçuş əməliyyatlarının yerinə yetirilməsi üçün Konvensiyanın 6 nömrəli Əlavəsinin I hissəsinin 5-ci fəslindəki istismar tələblərinə riayət oluna biləcəyini təsdiq edən yoxlama tamamlanmışdır;

3.1.7. əməliyyat uçuş planı Konvensiyanın 6 nömrəli Əlavəsinin I hissəsinin 4.3.3-cü yarımbəndinə uyğun olaraq təsdiq edilmişdir.

3.2. Doldurulmuş uçuşa hazırlıq blankları hava gəmisinin istismarçısında 3 (üç) ay müddətində saxlanılır.

3.3. Hava gəmisinin istismarçısının aerodromdan istifadə aralığının müddəti istismarçı dövlət tərəfindən təsdiq edilir.

3.4. Uçuş zamanı hava gəmisinin bortunda atmosfer təzyiqinin düşməsi halında bütün sərnişinlərin və heyət üzvlərinin nəfəs alması üçün tənəffüs oksigeninin lazımi ehtiyatı təmin edilmədiyi təqdirdə uçuşun başlanılmasına yol verilmir.

3.5. Atmosfer təzyiqinin aşağı olduğu uçuş hündürlüyündə istismar edilməsi nəzərdə tutulan hava gəmisində uçuş heyətinin kabinəsi Konvensiyanın 6 nömrəli Əlavəsinin I hissəsinin 4.3.9.1-ci yarımbəndində qeyd olunan oksigen təchizatının saxlanılmasını və paylanılmasını təmin edən qurğularla təchiz olunmalıdır.

**4. Əməliyyat uçuş planlaması**

4.1. Əməliyyat uçuş planı nəzərdə tutulan hər bir uçuş üçün tərtib edilərək hava gəmisinin kapitanı (komanda verən pilotu) tərəfindən, eləcə də uçuş əməliyyatları üzrə məsul şəxs/uçuş dispetçeri tərəfindən imzalanır.

4.2. Əməliyyat uçuş planının surəti hava gəmisinin istismarçısına, bu mümkün olmadıqda isə hava limanının və ya aerodromun istismarçısına təqdim edilməli və ya yola düşmə məntəqəsində (hava limanı və ya aerodromda) uyğun yerdə saxlanılmalıdır.

4.3. Azərbaycan Respublikasının Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi yanında Dövlət Mülki Aviasiya Agentliyi tərəfindən təsdiq edilən uçuş əməliyyatları barədə təlimatda uçuş planının məzmunu və həyata keçirilməsi qaydası qeyd olunur.

**5. Alternativ aerodromlar**

5.1. Uçuş aerodromunda meteoroloji şərait uçuş əməliyyatının həyata keçirilməsi üçün aerodrom eniş minimumundan (hava gəmisinin istismarçısı tərəfindən müəyyən edilmiş) aşağı olduqda və hava gəmisinin yola düşdüyü aerodroma qayıtması mümkün olmadıqda, hava gəmisinin istismarçısı tərəfindən uçuş üçün alternativ aerodrom seçilməlidir. Bununla bağlı əməliyyat uçuş planında da dəyişiklik edilməlidir.

5.2. Alternativ aerodromda meteoroloji şərait uçuş əməliyyatının həyata keçirilməsi üçün aerodrom eniş minimumuna (hava gəmisinin istismarçısı tərəfindən müəyyən edilmiş) uyğun və ya həmin minimumdan yuxarı olmalıdır.

5.3. İki turbinli mühərriki olan hava gəmilərinin həyata keçirdiyi uçuşlar üzrə alternativ aerodromlar planlaşdırılmış uçuş marşrutundan kənara çıxma əməliyyatları ilə bağlı hallar üçün seçilərək əməliyyat uçuş planlarında və hava hərəkətinə xidmət planlarında qeyd edilməlidir.

**6. Meteoroloji şərait**

6.1. Uçuşa başlamazdan əvvəl hava gəmisinin kapitanı (komanda verən pilotu) planlaşdırılan uçuşla bağlı bütün cari meteoroloji məlumatlarla tanış olmalı, eləcə də meteoroloji şərait proqnozlaşdırılandan daha pis olduqda bu barədə dərhal hava gəmisinin istismarçısına məlumat verməlidir.

6.2. Meteoroloji şərait hava gəmisi istismarçısının uçuş əməliyyatı üçün müəyyən etdiyi aerodrom əməliyyat minimumuna uyğun olmadığı halda hava gəmisinin uçuşa başlamasına və ya uçuşu davam etdirməsinə yol verilmir.

6.3. Şübhəli və ya məlum buzlanma şəraitində uçuşlar hava gəmisinin buzlanma şəraitində uçuşa hazırlığı, o cümlədən zəruri avadanlıqlarla təchizatının mövcudluğu və yararlılığı yoxlanıldıqdan sonra həyata keçirilir.

**7. Yanacaq təminatı və oksigen təchizatı**

7.1. Hava gəmisi planlaşdırılmış uçuşu təhlükəsiz başa çatdırmaq, eləcə də həmin uçuşdan mümkün kənara çıxma əməliyyatları üçün kifayət qədər miqdarda (uçuş əməliyyat planına əsasən hava gəmisinin istismarçısı tərəfindən müəyyənləşdirilən) istifadəyə yararlı yanacaq daşımalıdır.

7.2. Uçuşların həyata keçirilməsi üçün tələb olunan yanacağın minimum miqdarı hava gəmisinin yanacaq sərfiyyatının monitorinqi sistemindən alınan və və ya hava gəmisinin istehsalçısı tərəfindən verilən məlumatlar, eləcə də planlaşdırılan uçuşun əməliyyat şərtləri əsasında müəyyənləşdirilir.

7.3. Planlaşdırılan uçuşun əməliyyat şərtlərinə aşağıdakılar daxildir:

7.3.1. təyyarənin ehtimal olunan kütləsi;

7.3.2. pilotlara verilən bildirişlər (NOTAM);

7.3.3. cari meteoroloji hesabatlar və proqnozlar;

7.3.4. hava hərəkətinə xidmət qaydaları, uçuşla bağlı məhdudiyyətlər və uçuş üzrə gözlənilən gecikmələr;

7.3.5. təxirə salınmış texniki xidmətin və (və ya) konfiqurasiyadan kənaraçıxmaların təsiri.

7.4. Uçuşların həyata keçirilməsi üçün tələb olunan yanacağın minimum miqdarı uçuşdan əvvəl aşağıda qeyd edilən yanacaqlar nəzərə alınaraq hesablanmalıdır:

7.4.1. taksi hərəkəti yanacağı – hava gəmisinin uçuşdan əvvəl və digər aerodromda yerə enməsindən sonra yerdə hərəkətini həyata keçirən zaman sərf edəcəyi yanacaq;

7.4.2. səyahət yanacağı – hava gəmisinin uçuşa başlamasından digər aerodromda yerə enməsinədək sərf edəcəyi yanacaq;

7.4.3. ehtiyat və son ehtiyat yanacaqlar – əvvəlcədən proqnozlaşdırılması mümkün olmayan halların baş verməsi səbəbindən bu Qaydanın 7.4.1-ci və 7.4.2-ci yarımbəndlərində qeyd edilən yanacaqlar uçuş əməliyyatları üçün kifayət etmədiyi halda hava gəmisinin yerdə hərəkəti və uçuşun həyata keçirilməsi üçün sərf edəcəyi yanacaqlar;

7.4.4. alternativ təyinat yanacağı – hava gəmisinin alternativ aerodroma çatması üçün sərf edəcəyi yanacaq;

7.4.5. əlavə yanacaq - bu Qaydanın 7.4.1-7.4.4-cü yarımbəndlərində qeyd edilən yanacaqlar uçuş əməliyyatları üçün kifayət etmədiyi halda hava gəmisinin yerdə hərəkəti və uçuşun həyata keçirilməsi üçün sərf edəcəyi əlavə yanacaqlar;

7.4.6. diskresion yanacaq – hava gəmisinin kapitanının (komanda verən pilotunun) seçimi əsasında həyata keçiriləcək əməliyyatlar üzrə sərf ediləcək yanacaq.

# Müdafiə Nazirliyi “Azərsilah”la Anlaşma Memorandumu imzalayıb

**“ADEX-2024” və “Securex Caspian” sərgiləri çərçivəsində sentyabrın 26-da Azərbaycan Respublikasının Müdafiə Nazirliyi ilə Müdafiə Sənayesi Nazirliyinin tabeliyində fəaliyyət göstərən “Azərsilah” Müdafiə Sənayesi Holdinqi” Qapalı Səhmdar Cəmiyyəti arasında birgə fəaliyyətlərin həyata keçirilməsi və qarşılıqlı əməkdaşlığın qurulmasına dair Anlaşma Memorandumu imzalanıb.**

Qeyd olunub ki, Memorandum qurumlar arasında öz səlahiyyətləri daxilində fəaliyyət sahələrinə uyğun olaraq qarşılıqlı faydalı, uzunmüddətli, səmərəli əlaqələrin qurulması və inkişafı üçün əməkdaşlıq etmək, həmçinin bu istiqamətdə koordinasiyalı fəaliyyətlərin təşkili məqsədi daşıyır.



**Kərkük xatirələri**

**Azərbaycan Prezidenti İlham Əliyevin 25 yanvar 2024-cü il tarixli sərəncamı ilə dahi Azərbaycan şairi və mütəfəkkiri Məhəmməd Füzulinin anadan olmasının 530 illiyinin ölkəmizdə qeyd olunması qərara alınıb. Sərəncamda göstərildiyi kimi, Məhəmməd Füzuli istedadlı nümayəndələri ilə tanınan bütöv bir ədəbi məktəb formalaşdırmışdır. Onun 500 illiyinin UNESCO səviyyəsində layiqli şəkildə qeyd edilməsi milli-mədəni dəyərlərin qorunmasına həmişə xüsusi diqqət və qayğı göstərmiş ümummilli lider Heydər Əliyevin adı ilə bağlı olub.**

# Bağdadda Füzuli festivalı



Dahi şairin 500 illiyi onun anadan olduğu İraqda da təntənə ilə keçirilib. Tədqiqatçı, pedaqoq, şair və yazıçı, “Kərkük” qəzetinin baş redaktoru, türk dünyası Akademiyasının fəxri professoru Dr. Şəmsəddin Küzəci həmin mərasimlərin fəal iştirakçısı olub. Qəzetimizin bu nömrəsindən etibarən onun bu barədə xatirələrini təqdim edirik.

Küzəci xatırlayır: Türk dünyasının böyük şairi Məhəmməd Füzuli əl-Bağdadinin anadan olmasının 500 illiyi ilə bağlı İraq və Azərbaycan dövlətləri tərəfindən möhtəşəm tədbirlərin hazırlanması fikri professor Qəzənfər Paşayev və Əbdüllətif Bəndəroğlunun düşüncələri əsasında formalaşmışdı. İraq dövləti də Füzulinin İraqda doğulması səbəbindən bu işə ciddi önəm vermişdi. Bundan əlavə, belə bir tədbirin İraqda keçirilməsi ABŞ və müttəfiqləri tərəfindən tətbiq edilən embarqoya qarşı mübarizə kimi də qiymətləndirilmişdi.

Tədbirlər çərçivəsində Azərbaycandan alimlərin, ziyalıların, sənətçilərin dəvət olunması iki cəmiyyət arasında əlaqələrin inkişafına da müsbət təsir göstərəcəkdi. Digər türk dövlətləri nümayəndələrinin tədbirə qatılmamasına qarşı öz haqq səsini ucaldan Azərbaycan dövləti İmam Əlinin, İmam Hüseynin, Füzulinin ruhundan güc alaraq İraqla bir əl, bir ürək, bir yumruq olduğunu göstərdi, Bağdad, Kərbəla, Nəcəf və Səddam Hüseynin icazəsi ilə Kərkükə səfərləri, İraqda “Leyli və Məcnun” operasının yüksək səviyyədə ifası əsl tarixi hadisələr idi. Bir toyda xoyrat oxuduğum üçün 3 ay İraqın Tikrit həbsxanasında qalan və həmin tarixi günlərdə sərbəst buraxılan bir İraq türkmanı olaraq, 128 nəfərlik Azərbaycan nümayəndə heyətinə çox yaxınlaşmış, onlara isti münasibət göstərmişdim. Dövlət televiziyasında işləməyimə baxmayaraq, azərbaycanlı ziyalılarla ünsiyyətdə olmaq, onlarla söhbət etmək içimdə bir dərd kimi yaşayırdı. AzTV-də hazırlanan “Turan” verilişinin müxbiri Mailə Muradxanlı mikrofonu mənə uzadanda çox mütəəssir olmuşdum və nə deyəcəyimi bilmirdim. 30 il sonra xatirələrimi təzələmək və Füzulinin 500 illiyi ilə 530 illiyi arasında yaşadığım duyğuları qələmə almaq istədim. Bir neçə qəzet və jurnalı araşdırıb, Azərbaycan və türkman ziyalıları ilə görüşüb xatirələrini qələmə almağa çalışdım. Bu yazıya məhz bu cür başladım.

Dahi Azərbaycan–türkman şairi Məhəmməd Füzuli əl-Bağdadinin anadan olmasının 500 illiyində İraq Mədəniyyət və İnformasiya Nazirliyi 1994-cü ilin sentyabrında Bağdadda Beynəlxalq Füzuli festivalı keçirdi. Festivalın hazırlıq heyətinə Mədəniyyət və İnformasiya, Xarici İşlər, Ali təhsil və Elmi Araşdırmalar, Vəqflər və Dəyanət İşləri nazirləri və müavinləri, Türkman Mədəniyyət müdiri və başqaları daxil idi. Komissiya Azərbaycan, Türkmənistan, Qazaxıstan, Özbəkistan, Türkiyə, Hindistan və Pakistandan ədəbiyyat adamlarını, alimləri də dəvət etmişdi.

Azərbaycandan Baş nazir müavini yazıçı Elçin Əfəndiyevin rəhbərliyi ilə Füzuli festivalına 128 nəfərlik heyət qatılmışdı. Bu cür nüfuzlu şəxslər arasında xatırlaya bildiyimiz adlar bunlardır: Anar, Sabir Rüstəmxanlı, Qəzənfər Paşayev, Yaşar Qarayev, İsa Həbibbəyli, Zəlimxan Yaqub, Ayaz Vəfalı, Fikrət Qoca, Qabil, Gülhüseyn Hüseynoğlu, Cabir Novruz, Söhrab Tahir, Vaqif Səmədoğlu, Fikrət Sadıq, Çingiz Əlioğlu, Şahmar Əkbərzadə, İsa İsmayılzadə, Dilsuz, Arif Abdullazadə, Vaqif Cəfəroğlu-Məmmədov, Zeynəb Xanlarova, Mələkxanım Əyyubova, Qəndab Quliyeva, Nailə Muradqızı, Asif Rüstəmli, Mənsum İbrahimov, Hacı Mail İsmayıloğlu, Ələddin Əsədov, Aydın Ərşadoğlu və başqaları...

İraq dövlətinin 17–19 sentyabrda təşkil etdiyi festivalın açılış mərasimi Qurani-Kərimdən ayələrin oxunması ilə başlandı. Ardınca İraq Mədəniyyət və İnformasiya naziri Həmid Yusif Həmmadi açılış nitqi ilə çıxış etdi və hər kəsə təşəkkürünü bildirdi. Füzuli haqqında məlumat verdikdən sonra İraq–Azərbaycan əlaqələrindən danışdı. İraq Türkman Mədəniyyət Mərkəzinin rəhbəri Əbdüllətif Bəndəroğlu nazirin dediklərini Azərbaycan dilinə tərcümə edirdi. Daha sonra Azərbaycan heyəti adından Baş nazirin müavini Elçin Əfəndiyev çıxış etdi və o da İraq–Azərbaycan əlaqələrinin tarixinə toxundu. Azərbaycanla İraq arasında mədəniyyət və sənət körpüsü olan hər kəsə dərin təşəkkürünü bildirdi. Azərbaycan və İraqın elm adamları, şairlər, yazıçılar dahi Füzulinin yaradıcılığı haqqında dəyərli fikirlərini ifadə etdilər. Bu hissədə Füzuli hər kəsin könül qapısını açdı, qəlblərdə dərin izlər buraxdı, yeddidən-yetmiş yeddiyə hər kəsi duyğulandırdı və qürurlandırdı.

Beynəlxalq Füzuli festivalına evsahibliyi edən İraqın Yazıçılar Birliyinin sədri Cavad əl-Xəttab ərəbcə çıxış edərək festivalın əhəmiyyətindən danışdı. Çıxışı jurnalist Qasım Sarıqaya tərcümə etdi. Azərbaycan Yazıçılar Birliyinin sədri Anar çıxış edərək festivalın təşkilində əməyi olan hər kəsə təşəkkür etdi.

Festivalın ilk günü iraqlı alim – professor Hüseyn Əli Məhfuz “Füzulinin həyatı və əsərləri” adlı elmi məruzə ilə çıxış etdi. Məruzə iştirakçılar tərəfindən alqışlarla qarşılandı. Məruzədən sonra Azərbaycan Folklor Orkestrinin solistləri Füzuli əsərlərindən ibarət muğamları möhtəşəm şəkildə ifa etdilər. Bundan sonra İraq Mədəniyyət və İnformasiya naziri Azərbaycan nümayəndə heyətinin şərəfinə şam yeməyi verdi. Bu möhtəşəm gecənin ardından Füzuli 500 il sonra azərbaycanlı və iraqlı elm adamları tərəfindən gündəmə gətirildi, ruhu bir xoyrat-bayatı kimi Bağdadda və Bakıda dillərdə dolaşdı.

Festivalın 2-ci günü ilk bölmənin iclası yenə Bağdadda baş tutdu. İlk çıxışı Azərbaycan Mətbuat və İnformasiya naziri Sabir Rüstəmxanlı etdi. Onun ardınca Türkman Mədəniyyət Mərkəzinin başçısı Əbdüllətif Bəndəroğlu “Füzuli əl-Bağdadi və iraqlı insanların acısı” adlı məruzəsini təqdim etdi. Daha sonra professor Vesim Mehmet “XVI əsrdə Azərbaycan–İraq əlaqələri” adlı məruzə ilə çıxış etdi. Ardınca növbə ilə Məhəmməd Mehdi Bayatın “Füzuli əl-Bağdadiyə dair yeni düşüncələr” və professor Qəzənfər Paşayevin “Füzulinin şairliyi” adlı çox gözəl məruzələri dinlənildi.

Həmin gün 2-ci iclasda professor Əliyar Səfərli “Füzuli haqqında araşdırma”, Əbdüləziz Semin Bayatlı “Füzuli şeirində kədərin yaranışı” adlı məruzələrini tədqim etdilər. Daha sonra professor İmamverdi Həmidov, Azadə Cəfərqızı, Faruk Faik Köprülü, Vəcihə Feyzullazadə və digərləri araşdırmaları haqqında məruzələr oxudular.

Füzulinin anadan olmasının 500 illiyinə həsr olunmuş festivalda elmi məruzələrdən sonra şeir oxuma mərasimi təşkil edildi. Azərbaycan şairləri adından Fikrət Qoca İraq–Azərbaycan əlaqələrinə həsr olunmuş şeirini səsləndirdi. Daha sonra Azərbaycanın xalq şairi Zəlimxan Yaqub Füzuli haqqında şeir oxudu. Həmçinin aşağıda adları çəkilən Azərbaycan və İraq-türkman şairləri hərəyə bir şeir oxumaqla gecəyə rəng qatdılar – Azərbaycan şairləri: Qabil, Cabir Novruz, Söhrab Tahir, Vaqif Səmədoğlu, Sabir Rüstəmxanlı, Fikrət Sadıq, Ayaz Vəfalı, Çingiz Əlioğlu, Şahmar Əkbərzadə, İsa İsmayılzadə, Dilsuz, Arif Abdullazadə, Vaqif Cəfəroğlu-Məmmədov; İraq-türkman şairləri: Salah Növrəs, Rza Çolakoğlu, Mustafa Ziya, Sabir Dəmirçi, Hani Sahib, Ümit Köprülü, Salah Bəhlul, Fövzi Əkrəm Tərzioğlu, Nicat Mehmet Tuzlu, Əli Yağmuroğlu, Mehmet Ömər Qazançı, Mehmet Mərdan, Fərman Həmid Tuzlu, Mehmet Mehdi Bayat, Səlahəddin Nacioğlu, Adnan Assafoğlu.

Azərbaycan nümayəndə heyətinin Kərbəla–Nəcəf ziyarəti də yaddaqalan oldu. Sentyabrın 19-da qonaqlar 3 avtobusla yola düşüb İmam Hüseyn və qardaşı Həzrəti Abbasın türbəsi ilə bərabər, Füzulinin məzarını ziyarət etdilər. Heyət tərəfindən dualar oxunarkən kimi göz yaşlarına hakim ola bilmədi, kimi də qəhərdən boğuldu. Kərbəla və Nəcəfdən sonra Kufədə Hz.Əlinin məzarı da ziyarət edildi. Beləcə, Azərbaycan nümayəndə heyəti Füzulinin məzarı başında xeyli dəyərli vaxt keçirdi. Onlar üçün bizlərdən daha müqəddəs sayılan Füzulinin sadə məzarı, bəlkə də, normal bir məzar deyildi. Ancaq Füzulinin ruhu ilə qarşılaşmaları ziyarətçilərə dünyanı vermişdi və sanki rahatlıq tapmışdılar.

İraq Mədəniyyət və İnformasiya naziri ziyafət zamanı yanında əyləşmiş Azərbaycan Baş nazirinin müavini Elçin Əfəndiyevdən bir istəklərinin olub-olmadığını soruşur. Elçin bəy də cavabında: “Bəli” deyir. – Heyətimiz Kərkükü ziyarət etmək istəyir. Mən də daxil, Kərkükü görmədən geri dönməyəcəyimizi bilməyinizi istərdik”. İraqlı nazir buna açıq şəkildə cavab verir: “Bu istəyiniz mənim səlahiyyətim xaricindədir. Buna ancaq prezident Səddam Hüseyn qərar verə bilər. Mən bu istəyinizi prezidentə deyərəm” – deyir və mövzu bağlanır.

İraqlı nazir Azərbaycan nümayəndə heyətinin istəyini Səddam Hüseynə çatdırır. O da 20 sentyabrda Azərbaycan nümayəndə heyətindən Elçin Əfəndiyevi və Sabir Rüstəmxanlını görüşə dəvət edərək: “Şəxsim və dövlətim adına dəyərli Azərbaycan dövlətinə və sizlərə çox təşəkkür edirəm. Bütün ölkələr İraqa qarşı embarqo tətdiq etdiyi zamanda bu qədər ziyalı insanlarla İraqı ziyarət etməniz bizim üçün şərəfdir. Bu festival bütün embarqoları keçmişdir. Əsl dostluq, qardaşlıq budur” – deyir və Azərbaycan nümayəndə heyətinə Kərkükə getməyə icazə verir. Qəbuldan dərhal sonra hazırlıqlar görülür və Azərbaycan nümayəndə heyəti Mustafa Ziyanın rəhbərliyi ilə Kərkükə yola düşür.

(ardı var)

*Şəmsəddin KÜZƏCİ,*
*Kərkük şair-publisisti*

Xalq qəzeti
XQ
xalqqazeti.az
№ 211 (30615) 27 sentyabr 2024-cü il, cümə

# Stolüstü tennis: meydan kiçik, hədəf isə böyükdür

**Stolüstü tennis dünyada ən populyar idman növlərindən biri hesab olunur. Beynəlxalq Stolüstü Tennis Federasiyasının tərkibində 200-dən çox ölkə var və bu göstərici özü çox şey deyir.**




Azərbaycanda bu idman növü üzrə böyük nailiyyətlər əldə olunmasa da, son illər kütləviliyin artırılması baxımından xeyli iş görülüb. Parklarda, həyətlərdə, məktəblərdə, universitetlər və digər obyektlərdə tennis stolları quraşdırılıb. İstənilən şəxs yaşı, sağlamlığı və fiziki hazırlığı ilə bağlı heç bir məhdudiyyət olmadan stolüstü tennis oynaya bilər. Ölkəmizdə uşaqlar arasında bu idman növünə marağın xeyli artdığını xüsusi qeyd etmək olar. Təsadüfi deyil ki, aşağı yaş qruplarında artıq istedadlı idmançılarımız da yetişir.

Belə davam edərsə, gələcəkdə Avropa, Dünya, hətta Olimpiya çempionlarımız yetişəcək.

Fərhad İsmayılov komandamızın bu il bir çox nüfuzlu beynəlxalq turnirlərdə, qitə birinciliklərində iştirak etdiyini də dedi:

– İdmançıların hazırlığı üçün bütün tədbirlər görülür. Qazaxıstan, Türkiyə, Çində yeniyetmələr, gənclər və böyüklər arasında təlim-məşqlər keçirilib. Təmsilçilərimiz bu il Ələcəzairdə dünya seriyalı WTT yarışlarında 1 qızıl, Türkiyədə Avropa seriyalı turnirdə 1 qızıl, 2 gümüş, 7 bürünc, Lüksemburqda və Belçikada dünya seriyalı WTT yarışlarının hər birində 1 bürünc mükafat qazanıblar. Bundan başqa, Fransada dünya seriyalı WTT-də qızıl, digər turnirdə – "Euro Mini Champs"da bürünc medal qazanmışıq. Digər beynəlxalq turnirlərdə də idmançılarımız mükafata layiq yerlər tutublar. Təmsilçilərimizdən Onur Quluzadə, Yağmur Məmmədli, Mərziyyə Nurmətova, Adil Əhmədzadə, Rüstəm Hacılı, Hüseyn Eylazov, Zemfira Mikayılova, Ləman Abdulhəmidova, Aylin Əsgərova və başqalarının adlarını çəkə bilərəm.



Stolüstü tennis üzrə qadınlardan ibarət millinin baş məşqçisi Fərhad İsmayılovla görüşüb, onunla bu idman növünün inkişafı ilə bağlı görülən işlərdən danışdıq. Həmsöhbətimiz son illər məhz kütləviliyin artmasının bu idman növünün inkişafına öz töhfəsini verəcəyini bildirdi. Qeyd etdi ki, uşaqlar arasında bu idman növünə axının çox olması təqdirəlayiq haldır:

– Stolüstü tennis Bakı ilə yanaşı, bölgələrdə də inkişaf etdirilir. Sumqayıtda və digər regionlarda məşqçi-müəllimlərimiz federasiya ilə bağladıqları müqavilə əsasında çalışırlar. 7–9 yaşlarında uşaqlar arasında kütləvilik çoxalıb. Şəki, Şabran, Salyan, Şirvan, Gədəbəy, Qaxdan olan idmançılar, demək olar ki, bütün mühüm yarışlarda iştirak edirlər. Stolüstü Tennis Federasiyası Masallıda ayrıca zal açıb. İndi məşqlər gedir. Hazırda 5–6 yaşdan uşaqları qəbul edirik və hazırlayırıq. Kiçik yaşlılar arasında yarışların təşkili rəqabəti daha da artırır. Çalışırıq ki, aşağı yaş qruplarında daha perspektivli və potensiallı uşaqları seçib, hazırlayaq.

Məşqçi onu da qeyd etdi ki, komandamız bu il ilk dəfə 21 yaşlı idmançıların Avropa birinciliyində iştirak edərək, yaxşı reytinq xalları qazanıb. Mütəxəssisin sözlərinə görə, bu yarış 19 yaşlı idmançılar Zemfira Mikayılova və Ləman Abdulhəmidova üçün yaxşı təcrübə olub.

Yığmanın əsas bazası "Şüa" Sağlamlıq İdman Kompleksində və Sumqayıt bulvarında yerləşir. F.İsmayılovun sözlərinə görə, hazırda Bakıda uşaq gənclər idman məktəblərindən (UGİM) 3-də stolüstü tennis zalları var ki, onlardan da səmərəli istifadə edilir. Bundan başqa, mütəxəssis hazırlığına xüsusi diqqət yetirilir:

Federasiya mütəxəssis çatışmazlığını aradan qaldırmaq üçün görülən tədbirləri davam etdirir. Avropadan mütəxəssislər dəvət etmək istəyirik ki, seminarlar təşkil edilsin. Həm hakimlik, həm də məşqçilik seminarlarının keçirilməsi mütəxəssislərin öz bilik və bacarıqlarını artırması üçün də faydalı olar. Orta məktəblərdən də müəllimləri bu seminarlara cəlb etmək istəyirik ki, bilik və təcrübələrini zənginləşdirsinlər. Bir neçə ildir ki, Azərbaycan Dövlət İdman Akademiyasında stolüstü tennisdən ixtisas dərsi keçirilir. Bu da idmançılarımızın akademiyaya daxil olub, mütəxəssis kimi yetişməsi üçün geniş imkanlar yaradır.

Məşqçi stolüstü tennisçilərimizin daha bir beynəlxalq yarışda iştirak etmək üçün 2 gün əvvəl Gürcüstana yola düşdüklərini dedi:

– Batumidə təşkil olunan "WTT Youth Contender" turnirində 10 idmançımız bacarığını göstərəcək. Oktyabrda isə bizi böyüklər arasında Avropa çempionatının fərdi yarışları gözləyir. Onu da deyim ki, komandamız, təxminən, 5–6 il idi ki, Avropa çempionatında iştirak etmirdi.

Stolüstü tennis sağlamlıq üçün ən yaxşı idman növlərindən biridir. Onun ən böyük üstünlüklərindən biri isə yaş həddinin olmamasıdır. Bu idman növü onunla məşğul olan 5–6 yaşlı uşaqlar üçün nə qədər faydalıdırsa, yeniyetmələr, gənclər, böyüklər və eləcə də, 80–90 yaşlı insanlar üçün də bir qədər faydalı və əlçatandır. Fərhad İsmayılovun təbirincə desək, oyun zamanı göz, beyin, ayaqlar və qolların eyni zamanda və fəal şəkildə işləməsi sağlamlıq üçün çox yaxşıdır. Təbii ki, stolüstü tennisin, bizim üçün ənənəvi olmayan digər idman növlərinin inkişafı kimi, atletlərimizin əldə etdikləri uğurlu nəticələrdən də çox asılıdır. Ümid edirik ki, idmançılarımız böyük qələbələri ilə stolüstü tennisi ölkəmizdə daha da populyarlaşdıracaqlar.

***Leyla QURBANOVA***
***XQ***

## ADA Universitetində "Məlumatlandırma günü"



**Dünən Azərbaycan Respublikasının Xarici İşlər Nazirliyi və NATO-nun İnnovasiya, Hibrid və Kiberməsələlər üzrə bölməsinin birgə təşkilatçılığı ilə ADA Universitetində NATO Sülh və Təhlükəsizlik naminə Elm proqramı barədə "Məlumatlandırma günü" keçirilib.**

Aksiyada NATO Baş katibinin İnnovasiya, Hibrid və Kiber üzrə köməkçisinin müavini Ceyms Appaturay virtual qaydada, o cümlədən NATO SPS proqramının əməkdaşları, ölkəmizdən isə NATO ilə əməkdaşlıq üzrə aidiyyəti dövlət qurumları, həmçinin Elm və Təhsil Nazirliyinin nəzdində əlaqədar institutların nümayəndələri iştirak ediblər.

Həmin gün SPS proqramı, onun prioritetləri, Azərbaycan və NATO arasında praktiki əməkdaşlığa dair həyata keçirilmiş və cari layihələrə aid geniş təqdimatlar nümayiş etdirilib. Bundan əlavə, meydana gələn təhlükəsizlik problemlərinin həllində elmin və texnologiyanın rolu barədə müzakirələr aparılıb.

***XQ***

## Rusiyada 3 mükafat

**Yunan-roma güləşi üzrə Azərbaycan komandası Rusiyanın Tümen şəhərində dünya və Avropa çempionu, olimpiya mükafatçısı Vladimir Çeboksarovun şərəfinə təşkil edilən yarışda 3 medal qazanıb.**



Finala vəsiqə qazanan Eldəniz Əzizli və Ülvi Qənizadə (hər ikisi 72 kiloqram) zədə səbəbindən həlledici görüşə çıxmadıqları üçün gümüş mükafatla kifayətləniblər.

Qurban Qurbanov (82 kiloqram) isə 3-cü yeri tutub.

Qeyd edək ki, milli komandanı yarışda baş məşqçi Aleksandr Tarakanov və məşqçi Kamran Məmmədov rəhbərliyi altında 6 güləşçi təmsil edib. Ənənəvi turnirdə Azərbaycanla yanaşı Rusiya, Belarus, Ermənistan, Qazaxıstan və Qırğızıstan komandaları mübarizə aparıblar.

***L.AZAD***
***XQ***

## "Ömür dastanının boyları"



**Azərbaycan Yazıçılar Birliyində tanınmış şair, Prezident təqaüdçüsü İbrahim Yusifoğlunun 70 illik yubileyinə həsr olunmuş "Ömür dastanının boyları" kitabının təqdimatı keçirilib.**

AYB-nin katibi, yazıçı Elçin Hüseynbəyli yubilyarı təbrik edərək, onun çoxşaxəli yaradıcılığından danışıb.

AMEA-nın Ədəbiyyat İnstitutunun əməkdaşları dosent Aygün Bağırlı, filologiya elmləri doktoru Vaqif Yusifli, professor Vüqar Əhməd və başqaları həssas qəlbli, sadə və səmimi keyfiyyətlərə malik yazarı 70 yaşı münasibətilə təbrik ediblər, ona yeni yaradıcılıq uğurları arzulayıblar.

Sonra İbrahim Yusifoğluya Azərbaycan Milli Elmlər Akademiyası Azad Həmkarlar İttifaqının Fəxri fərmanı təqdim edilib.

Mərasimin sonunda yubiliyar xoş sözlərə görə təşəkkürünü bildirərək deyib: "1968-ci ildən bu günə qədər ədəbiyyat sahəsində öz qələmimi sınayıram. Məqalə və şeirlərim dövri mətbuatda çap olunub. Ümumiyyətlə, 34 adda kitabım işıq üzü görüb".

***Fidan SALMANOVA***
***XQ***

## Günlər qısalır, rütubət artır

**Bu gün Bakıda və Abşeron yarımadasında hava şəraitinin dəyişkən buludlu olacağı, arabir tutulacağı, əsasən, yağmursuz keçəcəyi gözlənilir. Lakin gecə bəzi şəhərətrafı ərazilərdə qısamüddətli yağış yağacağı, şimşək çaxacağı ehtimalı var. Şimal-şərq küləyi əsəcək. Bu barədə Milli Hidrometeorologiya Xidmətindən məlumat verilib.**

Havanın temperaturu gecə 16-19° isti, gündüz 23-26° isti olacaq. Atmosfer təzyiqi 766 mm civə sütunu təşkil edəcək. Nisbi rütubət gecə 70-75 faiz gündüz 40–45 faiz olacaq.

Qeyd edilib ki, Azərbaycanın rayonlarında bəzi yerlərdə arabir yağış yağacağı, şimşək çaxacağı gözlənilir. Ayrı-ayrı yerlərdə leysan xarakterli olacağı, dolu düşəcəyi, yüksək dağlıq ərazilərdə qar yağacağı ehtimalı var. Gecə və səhər bəzi yerlərdə arabir duman olacaq. Mülayim şərq küləyi əsəcək.

Havanın temperaturu gecə 15-20° isti, gündüz 23-28° isti, dağlarda gecə 6-11° isti, gündüz 13-18° isti olacaq.



***Q.QASIMOV***
***XQ***

*✓ 1994-cü ildə Bakının Xətai rayonunun 17 nömrəli tam orta məktəbi tərəfindən Litvinov Aleksandr Valeryeviçin adına verilmiş ümumi orta təhsil haqqında 2110 nömrəli attestat itdiyi üçün etibarsız sayılır.*

## ALLAH RƏHMƏT ELƏSİN

"Xalq qəzeti"nin baş redaktoru Əflatun Amaşov tanınmış politoloq və jurnalist

**FUAD-MUXTAR AĞBABALININ**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Ağcabədi Rayon İcra Hakimiyyətinin başçısı Rafil Hüseynov Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə qardaşı

**HABİL QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Zaqatala rayonundan Mübariz Əhmədzadə Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə qardaşı

**HABİL QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Azərbaycan Turizm və Menecment Universitetinin rektorluğu, professor-müəllim heyəti və Həmkarlar İttifaqı Təşkilatı universitetin mehmanxana və restoran biznesi kafedrasının əməkdaşı Aminə Əliyevaya atası

**ADİL ƏLİYEVİN**

vəfatından kədərləndiklərini bildirir və dərin hüznlə başsağlığı verirlər.

---

Siyəzən Rayon İcra Hakimiyyətinin başçısı Novruz Novruzov Goranboy Rayon İcra Hakimiyyətinin başçısı Məhərrəm Quliyevə qardaşı

**HABİL QULİYEVİN**

vəfatından kədərləndiyini bildirir və dərin hüznlə başsağlığı verir.

---

Vüqar Əhmədov və "Azərişıq" ASC-nin kollektivi "İri Şəhərlərin Birləşmiş Su Təchizatı Xidməti" Publik Hüquqi Şəxsin idarə heyətinin sədri

**KÖÇƏRLİ HƏSƏNOVUN**

vəfatından kədərləndiklərini bildirir və mərhumun ailəsinə dərin hüznlə başsağlığı verirlər.

BAŞ REDAKTOR
ƏFLATUN AMAŞOV

TELEFONLAR:
Reklam və elanlar: 493-82-21
Qəbul şöbəsi: 493-24-75 Mühasibatlıq: 498-85-29
Məsul katib: 493-61-02 E-mail: xalqqazeti@gmail.com
Texniki şöbə: 493-59-64 info@xalqqazeti.az
+994(51) 280-16-44

"Xalq qəzeti"nin kompüter mərkəzində yığılıb və səhifələnib, "Azərbaycan" nəşriyyatında çap olunub.

ÜNVANIMIZ:
AZ-1000, Bakı şəhəri, Bülbül prospekti, 30.
Şəhadətnamə 022273

İNDEKS 0282
TİRAJ 3924
SİFARİŞ 2178
QİYMƏTİ 60 qəpik

Növbətçi redaktor
Əli NƏCƏFXANLI

Çapa imzalanmışdır 00:00